HARUN YƏHYA

# AXIRZAMANIN 656 ƏLAMƏTİ

Onlara küfrdən çəkindirən neçə-neçə xəbərlər gəlmişdir. Bu böyük hikmətdir. Lakin arxa çevirənlərə təhdidlər nə fayda verə bilər?!
(Qəmər surəsi, 4-5)

# ÖN SÖZ

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in hədisi-şəriflərində Axırzaman və bu müqəddəs dövrdə yer üzünə ikinci dəfə gələn hz. İsa (ə.s) ilə hz. Mehdi (ə.s) haqqında çox təfərrüatlı məlumatlar var. Hədislərdə hz. Mehdi (ə.s)-ın zühurundan əvvəl dünyanın vəziyyəti, hz. Mehdi (ə.s)-ın zühur yeri və əlamətləri, fiziki xüsusiyyətləri, üstün əxlaqı, tələbələri və fəaliyyətləri, hz. İsa (ə.s) ilə birlikdə nələr edəcəkləri, Axırzamanın digər əhəmiyyətli şəxsləri və bu kimi çoxlu sayda ətraflı məlumatlar bildirilir.

Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanla əlaqədar bu müjdələrinin şübhəsiz reallaşacağı mövzusunda Əhli-sünnə alimləri arasında razılaşma vardır. Hədis imamları **hz. Mehdi (ə.s) haqqındakı hədislərin "mütəvadir" olduğunu bildirmişlər. "Təvadür" sözünün mənası "doğru xəbər, doğruluğundan şübhə edilməyən və bir camaata bağlı doğru xəbər" deməkdir**. (Büyük Lugat-Tür-Dav, 3003)

Hədis alimlərinə görə, bir xəbər çoxlu adamlar tərəfindən rəvayət edilirsə buna "mütəvadir" xəbər deyilir. Həm də hədis alimləri mütəvadir qəbul edilən hədislərin ravilərinin (hədisi nəql edən kəslər) araşdırılmayacağı və mütəvadir hədislə bağlı sorğu-sual edilməyəcəyi baxımdan həmfikirdirlər.

Dünyada demək olar ki, hər gün yaşanan yeniliklər, yaşadığımız dövrün “Axırzaman” olduğunun və **"hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın vəzifə başında olduqlarının və onların vasiləsi ilə yaşanacaq Qızıl əsrin yaxınlaşdığının" xəbərçisidir.** Axırzaman əlamətləri hədislərdə "bir təsbehin dənələri kimi bir-birinin ardınca" sözləri ilə ifadə edildiyi kimi ard-arda baş vermişdir və hələ də həyata keçməkdədir. Axırzamanla əlaqədar hədislərin mütəvadir olduğunun ən əhəmiyyətli dəlillərindən biri də, yüzlərlə əlamətin bir-birinin ardınca, son 30 il ərzində təsdiqlənməsidir.

Mübarək Peyğəmbərimiz (s.ə.v)-in 1400 il bundan əvvəl xəbər verdiyi hadisələrin, həm də eynilə təsvir etdiyi şəkildə reallaşması, Allahın Peyğəmbərimiz (s.ə.v)-ə lütf etdiyi möcüzədir. Eynilə Rəsulullah (s.ə.v)-in söylədiyi şəkildə hicri 1400-cü ilin başlamasıyla bərabər Fəratın suyu kəsilmiş, İran-İraq müharibəsi baş vermiş, Kəbədə qanlı hücum olmuş, Ramazan ayında 15 gün ara verməklə ay və günəş tutulmaları olmuş, Əfqanıstan, İraq işğal edilmiş, Bağdad alova bürünmüş, Halley quyruqlu ulduzu çıxmış, İraqın Küveyti işğalı əsnasında neft quyularının yandırılması ilə şərqdən bir atəş görünmüş, 11 sentyabrda Amerikadakı əkiz qüllələrə hücum edilməsilə tozlu, tüstü, qaranlıq bir fitnə zühur etmiş, Şam və Misir məlikləri öldürülmüş, Azərbaycan işğal edilmiş, iki quyruqlu, digər ulduzlara əks istiqamətində hərəkət edən, çox parlaq olan Lulin quyruqlu ulduz görülmüş və bu şəkildə yüzlərlə əlamət təsdiqlənmişdir.

**Peyğəmbərimiz (s.ə.v) İslam əxlaqının hicri 1400-cü illərdə hakim olacağını müjdələmişdir**

Peyğəmbərimiz (s.ə.v)-in xəbər verdiyi hadisələrin hamısının təsdiqlənmiş olması qədər əhəmiyyətli bir başqa məlumat da Rəsulullah (s.ə.v)-in dünyanın ömrü haqqında verdiyi məlumatdır. Peyğəmbərimiz (s.ə.v) hədisi şərifləri ilə, İslam ümmətin ömrünün 7000 il olduğunu bildirmiş, özünə qədər də bu ömürdən 5600 ilin keçdiyini açıq bir şəkildə ifadə etmişdir. 7000-dən 5600 çıxanda yerdə 1400 qaldığına görə, ayədə bildirilən hz. İsa (ə.s)-in gəlişi, Rəsulullah (s.ə.v)-in müjdələdiyi hz. Mehdi (ə.s)-ın çıxışı və İslam əxlaqının dünyaya hakim olması hicri 1400-cü illərdə reallaşacaqdır.

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən dünyanın ömrü ilə əlaqədar sözü gedən səkkiz hədis, böyük İslam alimi Cəlaləddin Suyutinin əsərində yer alır və hədislər belədir.

İbni Əsakir deyir ki, Əbu Səid Əhməd ibn Məhəmməd Bağdadi rəvayət etdi. Ənəs ibn Malik (r.ə) dedi ki, Rəsulullah (s.ə.v) buyurdu: Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını görsə, Allah Təala onun üçün, gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmiş kimi **BU DÜNYANIN YEDDİ MİN İLLİK ÖMRÜ QƏDƏR SAVAB YAZAR.**

İbni Abiyy deyir ki: Əbu İshaq, İbrahim ibn Abdullah Nəbti, (aradakı ravi silsiləsi ilə). Ənəs ibn Malik (r.ə)-dan rəvayət etdi. O dedi ki, Rəsulullah (s.ə.v) buyurdu: DÜNYANIN ÖMRÜ, AXİRƏT GÜNLƏRİNDƏN YEDDİ GÜNDÜR. ALLAH TƏALA BUYURDU Kİ: **"SƏNİN RƏBBİNİN YANINDAKI BİR GÜN, SİZİN SAYDIĞINIZ MİN İL KİMİDİR."**

İbni Əbi Dünya, Zəmmil Əməlində deyir ki: Əli ibn Səid, Həmzə ibn Hişandan, O da Səid ibn Cubeyrdən rəvayət etdilər ki: **"DÜNYA, AXİRƏT HƏFTƏLƏRİNDƏN BİR HƏFTƏDİR."**

İbni Əbi Xatəm, təfsirində İbni Abbasdan rəvayət etdi ki: **"DÜNYA, AXİRƏT HƏFTƏLƏRİNDƏN BİR HƏFTƏ OLUB, YEDDİ MİN İLDİR VƏ BUNUN ALTI MİNİ KEÇMİŞDİR".**

İbni Abbasdan səhih olaraq nəql edilən belə bir rəvayət vardır. O DEDİ Kİ: **"DÜNYA YEDDİ GÜNDÜR. HƏR BİR GÜN MİN İL KİMİDİR VƏ RƏSULULLAH (S.Ə.V) DƏ ONUN SONUNDA GÖNDƏRİLDİ".**

Əshabi Kiramın gördüyü bir yuxu

Tabarani Kəbirində deyir ki, Əhməd ibn Nadr əl-Əsgəri və Cəfər ibn Məhəmməd-ül Fəryabi nəql etmişlər ki: (Ravi silsiləsi ilə) Daqqaq ibn Zeydi Cühənidən rəvayət etdilər. O

dedi ki: **“Mən gördüyüm bir yuxunu Rəsulullah (s.ə.v)-ə izah etdim. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli bir minbərin ən üst pilləsində idi. O BUYURDU Kİ: YEDDİ PİLLƏLİ GÖRDÜYÜN MİNBƏR BU DÜNYANIN ÖMRÜ OLAN YEDDİ MİN İLDİR, MƏN DƏ ONUN SON MİNİNDƏ OLACAĞAM”.**

İbni Abd-il Həmid təfsirində deyir ki, Məhəmməd ibn Fədl, Həmməd ibn Zeyddən, o da Yəhya ibn Cəlddən, o da Məhəmməd ibn Sirindən, o da müsəlman olmuş kitab əhli olandan rəvayət etdilər ki: **“ALLAH GÖYLƏRİ VƏ YERLƏRİ ALTI GÜNDƏ YARATMIŞDIR. RƏBBİMİN YANINDA BİR GÜN, SİZİN DÜNYA HƏYATINDA SAYDIĞINIZ MİN İL KİMİDİR VƏ DÜNYANIN ƏCƏLİ ALTI GÜNDÜR, YEDDİNCİ GÜNDƏ QİYAMƏT QOPACAQDIR. ALTI GÜN GETMİŞDİR VƏ SİZ YEDDİNCİ GÜNDƏSİNİZ”.**

Peyğəmbər (s.ə.v.) zamanında, Adəm (ə.s.)-dan bəri 5600 il keçmiş olduğu Əhməd ibn Hənbəl İləlində nəql etdi. İsmayıl ibn Əbdülkərim, Əbdüssaməddən o da Vəhbdən rəvayət etdi:

**“DÜNYADAN BEŞ MİN ALTI YÜZ İL KEÇMİŞDİR”.** (Ahir Zaman mehdisinin alametleri, Celaleddin Suyuti'nin tasnifinden Hadisler, Ali bin Hüsameddin El-Muttaki, səh. 88, 89)

Peyğəmbərimiz (s.ə.v) sözü gedən hədisi-şəriflərində xüsusi bir təqvimə görə vaxt barədə məlumatı verir. Necə ki, hz. İsa (ə.s)-ın ad günü, Peyğəmbərimiz (s.ə.v)-in Məkkədən Mədinəyə hicrəti bir təqvim başlanğıcı olaraq hicri və miladi təqvimlər yaranmışdırsa, eynilə bu şəkildə Peyğəmbərimiz (s.ə.v)-in də, o dövrdə istifadə edilən müəyyən təqvimə görə belə hesablama aparmasındandır. İndi 2010-cu ildə olduğumuzu deyərkən necə dünyanın yaşının 2010 il olduğunu nəzərdə tutmuruqsa, Peyğəmbərimiz (s.ə.v) də, hədisi-şəriflərində ümmətinə dünyanın ömrünün 7000 il olduğunu, özünə qədər də bu ömürdən 5600 il keçdiyi məlumatını verərkən dünyanın başlanğıcından etibarən yaşını nəzərdə tutmamışdır. Bu tarix bəlkə hz. Nuh (ə.s) yaxud hz. İbrahim (ə.s)-ın doğumu, hz. İbrahim (ə.s)-a peyğəmbərlik vəzifəsinin verilməsi və yaxud hz. İbrahim (ə.s)-ın bir yerdən digər bir yerə hicrəti, yaxud hz. Nuh (ə.s)-ın gəmiyə minib tufanın başlaması, ya da tufanın sona çatması, yaxud da başqa peyğəmbərlərin həyatlarında baş vermiş oxşar bir çox əhəmiyyətli hadisənin başlanğıc və bitmə tarixlərinə görə təyin olunmuş təqvim əsasında hesablana bilər.

Burada əhəmiyyətli olan, Peyğəmbərimiz (s.ə.v)-in bəhsi keçən bu təqvimin başlanğıcı əsasında dünyanın ömrünün bu təqvimə görə 7000 il olduğunu ümmətinə bildirməsi və özünə qədər də bu başlanğıcdan 5600 il keçdiyini dəqiq olaraq bildirməsidir.

**7000-5600 = 1400**

Deməli Peyğəmbərimiz (s.ə.v)-in dövründə, dünyanın ömründən yalnız 7000 illik dövrü əhatə edən bir təqvim istifadə edilirdi. Peyğəmbərimiz (s.ə.v) də bu təqvimi əsas götürərək öz dövründən, İslam ümmətinin sonuna qədər olan dövrə aid bəzi məlumatlar verdi.

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədisə görə, Suyuti Həzrətlərinin verdiyi izahda ümmətin ömrünün hicri 1500-ci illəri keçməyəcəyi bildirilir:

**"MƏNİM ÜMMƏTİMİN ÖMRÜ 1500 İLDƏN ÇOX KEÇMƏYƏCƏKDİR".** (Suyuti, el-Keşfu an Mücavezeti Hazihil Ümmeti el-Elfu, el-havi lil Fetavi, Suyuti. 2/248, tefsiri Ruhul Beyan. Bursevi. (Arapça) 4/262, Ahmed bin Hanbel, Kitâbu'l-İlel, səh. 89.)

Böyük əhli-sünnə alimi Bərzənçi həzrətləri ümmətin ömrünün hicri 1500 ili keçməyəcəyini ifadə edir:

**"BU ÜMMƏTİN ÖMRÜ MİN İLİ KEÇƏCƏK, LAKİN MİN BEŞ YÜZ İLİ KEÇMƏYƏCƏK..."** (Kıyamet Alametleri, Medineli Allame Muhammed ibn Resul el-Hüseyni el-Berzenci, Pamuk Yayıncılık, İstanbul, 2002, səh. 299)

Son 1000 ilin ən böyük mücəddidi Səid Nursi Həzrətləri müsəlmanların Allahın əmri gələnə qədər haqq yolunda olacaqlarını və 1506-cı illərə qədər qalib olaraq davam edəcəyini, 1545-ci il tarixində isə qiyamətin qopacağını (Doğrusunu Allah bilir) bildirir:

**"Ümmətimdən bir tayfa Allahın əmri gələnə qədər (qiyamətə qədər) haqq yolunda olacaqdır". "Ümmətimdən bir tayfa.." fiqrəsinin (hissəsinin) məqamı-cifrisi (cifir hesabına görə olan nəticə) 1542 (2117) edərək varlığının sonuna işarə edər. "Haqq yolunda olacaqdır". (şəddə sayılar) fiqrəsi də, məqamı-cifrisi 1506 (2082), bu tarixə qədər zahir və aşkaranə (açıq və ortada), bəlkə qalib şəkildə, sonra da 1542-ci (2117) ilə qədər, gizli və məğlubiyyət içində vəzifəsi tənviriyəsinə (aydınlatma vəzifəsinə) davam edəcəyinə rəmzə (işarəyə) yaxın eyham edər. "Allahın əmri gələnə qədər" (şəddə sayılar) hekayəsi də, mövqeyi-cifrisi 1545 (2120), kafirin başına QİYAMƏT QOPMASINA işarə edər.** (Kastamonu Lahikası, səh. 33)

Həm əhli-sünnə alimlərindən Bərzənci və İmam Suyuti Həzrətlərinin, həm də Ustadın Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərinə əsasən verdikləri izahlara görə ümmətin ömrünün hicri 1500-ci illəri keçməyəcəyi başa düşülür. Bu məlumatlar vəsiləsi ilə hz. Mehdi (ə.s)-ın zühur edəcəyi və buna görə də İslam əxlaqının dünyaya hakim olacağı Axırzamanın yaşadığımız əsr olduğu, yəni hicri 1400-cü illər olduğu açıq şəkildə görünür.

**Axırzaman hədislərini gizlətmək istəyənlərin səyləri əbəsdir.**

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, Əshabi-Kiram dövründən etibarən müsəlmanların hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın gəlişini həsrətlə gözlədiklərindən bəhs edilir. Hədislərdə həm də Peyğəmbərimiz (s.ə.v) o dövrdə yaşayan möminlərə, "qarda sürünərək də olsa, hz. Mehdi (ə.s)-ı tapıb ona iman etmələrini" bildirərək, bu dəyərli əsrə çatanlara, Allahın lütfünə layiq olmağa çalışmağı nəsihət etmişdir.

Bu kitabın hazırlanmasındakı məqsədlərdən biri də həm hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ı həyəcanla gözləyən müsəlmanların, həm də bu mövzu ilə maraqlanan bütün insanların, ən doğru məlumatlara və ən etibarlı, səhih qaynaqlara çata bilmələri, Peyğəmbərimiz (s.ə.v)-in, əsrlər boyu nəql edilərək günümüzə çatdırılan qiymətli hədislərində bu mübarək şəxslər haqqında verilən əhəmiyyətli xəbərləri öyrənə bilmələridir. Bu vəsilə ilə müsəlmanlar, İslam dünyası və yer üzündəki bütün insanların dincliyi üçün böyük əhəmiyyət daşıyan bu vacib yenilikləri daha yaxından təqib edə biləcək və bu tarixi hadisələrə daha sürətli, gözəl şəkildə hazırlana biləcəklər.

Bu kitabın bir başqa məqsədi də Peyğəmbər (s.ə.v)-dən rəvayət edilən Axırzaman və hz. Mehdi (ə.s) ilə əlaqədar hədisi-şərifləri bir yerə toplayaraq "hz. Mehdi (ə.s)-ın gəlməyəcəyini", yaxud "bir şəxs olaraq deyil, şəxsi-mənəvi olaraq gələcəyini" və ya "keçmiş zamanda gəlib vəzifəsini tamamlayıb sonra da vəfat etdiyini", "bu əsrdə deyil, qarşıdakı əsrlərdə gələcəyini" iddia edən bəzi kəslər Axırzaman əlamətlərinin doğru olmadığının dəlillərini təqdim edir. **Kitabda hədislərlə əlaqədar heç bir rəy və izah verilməyib, çünki Peyğəmbər (s.ə.v)-in Axırzaman və mehdiyyət ilə əlaqədar hədisi-şərifləri heç bir izah yaxud təfsir tələb etməyəcək qədər açıq, dəqiq və aydındır.**

**Axırzaman müjdələrinin sevincini yaşamaq**

Əsrimizdə yaşayan bu tarixi şəxslərin çıxışını həsrətlə, ümidlə, şövqlə gözləyən səmimi iman edən kəslər inşaAllah hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın köməkçilərindən, dostlarından, yaxınlarından olmaq şərəfinə çata biləcəklər. Yer üzündəki dinsiz cərəyanlara qarşı aparacaqları fikri mübarizələrində, bütün dünyaya İslam əxlaqının yayılmasında, Türk-İslam dünyasının birlik olmasında, xristian və yəhudi dünyasının Qurana və haqq dinə tabe olmasında inşaAllah hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın dəstəkçilərindən ola biləcəklər.

Bu mübarək şəxslərin köməkçilərindən olub, bütün dünyanın həsrət qaldığı ədalət, sülh, dinclik, xoşbəxtlik, bolluq və bərəkətə qovuşmasına vəsilə olmaq şərəfinə çatmaq, bütün insanlıq üçün əlbəttə ki, çox böyük müjdədir. Allahın vədi haqdır və reallaşacaqdır.

**Allahın köməyi ilə. O, istədiyinə kömək edir. O, Qüdrətlidir, Rəhimlidir. Budur Allahın vədi. Allah Öz vədinə xilaf çıxmaz. Amma insanların əksəriyyəti bunu bilmir. (Rum surəsi, 5- 6)**

# HZ. MEHDİ (Ə.S)-I İNKAR EDƏNLƏRİN VƏZİYYƏTİ

## 1-DÖVRÜN İMAMINI QƏBUL ETMƏDƏN ÖLƏN, CAHİLİYYƏ ÖLÜMÜ ƏSASINDA ÖLƏR

Fuzeyl ibn Yəsar belə deyir: İmam Məhəmməd Baqirin belə buyurduğunu eşitdim: **"Hər kim zamanının imamını tanımadan ölsə cahiliyindən ölər.** Hər kim imamını tanısa Qaim (hz. Mehdi) əleyhissalamın zühurununa erkən və ya gec olması, onun üçün fərq etməz. Hər kim imamını tanıyaraq ölsə Qaim (hz. Mehdi) əleyhissalamın çadırında olanlar kimidir". (Gaybetul Numani, səh. 407)

## 2- DİGƏR İMAMLARI QƏBUL EDİB HZ. MEHDİ (Ə.S)-I İNKAR EDƏN, BÜTÜN PEYĞƏMBƏRLƏRİ QƏBUL EDİB HZ. MƏHƏMMƏD (S.Ə.V)-İ İNKAR ETMİŞ KİMİ OLAR.

On birinci İmam Həsən Əskəri dedi ki: **"Allahın peyğəmbərindən sonrakı imamları qəbul edib Mehdi (ə.s)-ı inkar edən adam, bütün peyğəmbərləri qəbul edən, amma Məhəmməd (s.ə.v)-i rədd edən adam kimidir.** Hər kim Allahın peyğəmbərini (Məhəmməd (s.ə.v)-i) inkar etsə Allahın bütün peyğəmbərlərini inkar etmiş olar. Bizim sonuncumuza itaət etməyiniz birincimizə itaət etməyiniz kimidir və sonuncumuzu inkar etməyiniz birincimizi inkar etməyiniz kimidir. Diqqət edin! Doğrusu Mehdi üçün Allahın qoruduqlarını çıxmaqla, bütün insanların şübhəyə düşəcəyi qeyb olacaqdır". (Ithbatu'l-hudat, Şeyh Hurr el-Amili, səh. 427)

## 3-PEYĞƏMBƏRİMİZ (S.Ə.V): "MEHDİNİ İNKAR EDƏN MƏNİ İNKAR EDƏR"- DEYƏ BUYURMUŞDUR.

Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Qaim, (qiyam edən Mehdi) mənim övladlarımdandır. Adı, mənim adım, ləqəbi mənim ləqəbim, xasiyyəti mənim xasiyyətim və davranışları da mənim davranışlarım olacaqdır. İnsanları mənim dinimə çağıracaqdır, Allahın Kitabına dəvət edəcəkdir. Ona itaət edən, mənə itaət edər. **Ona üsyan edən mənə üsyan edər. Zühurundan əvvəl onu inkar edən məni inkar etmişdir. Onu təkzib edən (inkar edən) məni təkzib etmişdir. Onu təsdiq edən, məni təsdiq etmişdir. Onu (hz. Mehdini) təkzib edənlərdən (inkar edənlərdən), onun (hz. Mehdinin) haqqındakı sözlərimi inkar edənlərdən və ümmətimi azdıranlardan Allah yanında şikayət edəcəyəm. Zalımlar yaxında işlərinin nəticəsini görəcəklər".** (Bihar-ul Envar, 51-ci cild, səh. 73)

Peyğəmbər (s.ə.v) belə buyurmuşdur: **"Övladlarımdan olan Mehdini inkar edən məni inkar etmişdir."** (Bihar-ul Envar, 51-ci cild, səh. 73)

### 4-HZ. MEHDİ (Ə.S)-I GÖZLƏMƏK İBADƏTDİR.

Qaimimiz Mehdi (ə.s)-ın yoldaşları arasında olmağı ümid edən kəslər onu gözləməli, şəfqətli və yaxşı davranışları mənimsəməlidir. (İmam Mehdi Haqqında Suallar və Cavablar, Seyid Hüseyn Hüseyni)

Əmir əl-Möminin Əli, Rəsulullah (s.ə.v)-dən belə nəql edir: **"İbadətlərin ən üstünü Mehdi (ə.s)-in zühurunu gözləməkdir".** (Yenabi'ul- Mevedde, səh. 493. el-Mehdi, səh. 201)

### 5- ALLAH, MERACDA PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-Ə HZ. MEHDİ (Ə.S)-I GÖSTƏRMİŞ VƏ HZ. MEHDİ (Ə.S)-I SEVDİYİNİ SÖYLƏMİŞDİR.

Abdullah ibn Ömər ibn Xəttabdan, Rəsulullah (s.ə.v) belə buyurdu: **“Mirac gecəsi Allah Azzə və Cəllə mənə belə vəhy etdi: "Ey Məhəmməd! Onları görmək istəyirsənmi? İstəyirəm, ya Rəbbim!" dedim.**

**Belə buyurdu: "Elə isə bir az get. Bir az getdikcə Əli ibn Əbu Talibi gördüm. Sonra Həsən, Hüseyn, Əli ibn Hüseyn, Məhəmməd ibn Əli, Cəfər ibn Məhəmməd, Musa ibn Cəfər, Əli ibn Musa, Məhəmməd ibn Əli, Əli ibn Məhəmməd, Həsən ibn Əli və hüccəti Qaimi (Hz. Mehdi (ə.s)-ı) gördüm. Mehdi onların içində parlayan ulduz kimi idi. Dedim ki: "Ey Rəbbim! Kimdir bunlar?"**

**Belə buyurdu: "Onlar imamlardır. Bu da Qaim (Mehdi)-dir. Halalımı halal edəcək, haramımı isə haram edəcəkdir. Düşmənlərimdən də intiqam alacaqdır. Ey Məhəmməd, onu sev, çünki mən onu sevirəm, onu sevəni də sevirəm".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh.97)

### 6-HEÇ BİR ŞEY MÜSƏLMANLARI HZ. MEHDİ (Ə.S)-A TABE OLMAQDAN SAXLAMAMALIDIR.

**Heç bir şey səni ona beyət etməkdən (onun tələbəsi olmaqdan, ona tabe olmaqdan) saxlamasın, sənə mane olanlar həmişə fitnəyə sığınanlardır. Əgər danışsalar şər danışarlar, əgər susarlarsa fasid və fasiqdirlər".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 252)

### 7- MÜSƏLMANLAR ƏN ÇƏTİN ŞƏRTLƏRDƏ BELƏ OLSA HZ. MEHDİ (Ə.S)-I AXTARMAQLA MƏSULİYYƏT DAŞIYIRLAR.

**Sizdən ona (hz. Mehdi (ə.s)-a) kim çatsa, qar üzərində sürünərək da olsa ona gəlsin. Ona qatılsın. Çünki o, hz. Mehdi (ə.s)-dır.**

(İbn Mace, Fiten, B 34, H 4082; İbn Ebi Şeybe, cild: VII, səh. 527; Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh.14)

Allah Elçisi (s.ə.v) Huzəyfətül-Yəmani, "Bu sülhdən sonra nə olacaq?" deyərkən belə buyurmuşdu: **"Dəlalətə dəvət ediləcəkdir. Məhz sən o gün bir xəlifə (hz. Mehdi (ə.s)) gördüyündə ağacın kökünü dişləyərək də olsa (yəni aclıqdan çox çarəsiz hala düşsən də) ölənə qədər ona tərəf qaç" .** (Ebu Avane, Müsned, 4:476)

## 8-PEYĞƏMBƏRİMİZ (S.Ə.V): "HZ. MEHDİ (Ə.S)-I TƏRK ETMƏK, ALLAHI TƏRK ETMƏKDİR"–DEYƏ BUYURMUŞDUR.

**…** Bu ümmətin Mehdisi də bizdəndir. Məndən sonra onlara sarılan şübhəsiz ki, Allahın qopmaz ipinə sarılmışdır. Onları (Mehdi (ə.s) və camaatını) tərk edən isə Allahı tərk etmiş sayılar.

# HZ. MEHDİ (Ə.S)-IN SOYU (NƏSƏBİ)

### 9- HZ. MEHDİ (Ə.S)-IN SOY AĞACINI PEYĞƏMBƏRİMİZ (S.Ə.V) AÇIQLAMIŞDIR.

Mufaddil dedi: "Ey Mövlam! Hz. (Mehdi (ə.s))-ın zühuru necədir?" (Sadiq) dedi: **"Ey Mufaddil! Ortaya çıxmaq üçün şübhəli zühur edər, adı yayılar, əmri bilinər, adı ilə və ləqəbi ilə xatırlanar, nəsəbi açıqlanar, qəbul edən və etməyən, sınayaraq inkar edənlərin dilinə düşər ki, bəhs edilən sübutlara uyğun gəlsin və onun üçün dəlillərimiz isbat edilsin, soyunu, adını və ləqəbini ifadə etdik ki, insanlar adını, soyunu və ləqəbini bilmirik deməsinlər deyə babası Peyğəmbər (s.ə.v)-in adını verdik".** (Bihar-ül Envar, 53-cü cild)

### 10- PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SOYUNDANDIR

**Qiyamətin qopması üçün vaxtdan yalnız bir gün qalsa da, Allah (cc) mənim Əhli-Beytimdən (soyumdan) bir şəxsi (hz. Mehdi (ə.s)-ı) göndərəcəkdir.**

(Sünen-i Ebu Davud, 5/92)

**Hz. Mehdi (ə.s) ilə müjdələnin. O Qureyşdən və Əhli-Beytimdən olan bir kəsdir.** (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 13)

**Mənim Əhli-Beytimdən bir şəxs (Hz. Mehdi (ə.s)) bütün dünyaya hakim olana qədər günlər və gecələr getməz.**

(En-Necmu's Sakıb, Ukayli)

Bütün peyğəmbərlər bir-birinin soyundandır. Hz. Mehdi (ə.s) da hədislərin ifadə etdiyinə görə bu soydan gəlir. Xalq arasında bu soydan gələnlərə "seyid" deyilir. Hz. Mehdi (ə.s) da seyid olacaqdır.

Allah Quranda bir-birlərinin soyundan gələn elçilərdən bəhs edir. Bu ayələr hz. Mehdi (ə.s)-ın da eyni soydan gələcəyinə işarə edir.

**Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib aləmlərdən üstün etdi. Onlar biri digərindən olan hənif bir nəsil idilər. Allah Eşidəndir, Biləndir. (Ali İmran surəsi, 33- 34)**

**Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən! (Bəqərə surəsi, 128)**

**Onların atalarından, nəsillərindən və qardaşlarından bəzilərini də. Onları seçdik və düz yola yönəltdik. (Ənam surəsi, 87)**

**11-HZ.MEHDİ (Ə.S) HZ. ƏLİ (Ə.S)-IN SOYUNDANDIR.**

Hz. Əli ibn Əbu Talib belə buyurur: **"Vəd edilmiş Mehdi bizdən olacaq və Axırzamanda zühur edəcəkdir. Heç bir millət arasında ondan başqa gözlənilən bir Mehdi yoxdur".** (Isbat-ül Hüdat, 7-ci cild, səh.148)

**12-HZ. HƏSƏNİN SOYUNDANDIR**

**"Hz. Mehdi Fatimənin övladlarındandır və Həsənin soyundandır".** (Ebu Davud, Hz. Mehdi, 1)

Hz. İmam Əli Naqi belə buyurmuşdur: **"MƏNDƏN SONRA OĞLUM HƏSƏN İMAMDIR VƏ HƏSƏNDƏN SONRA DA ƏDALƏTİ BÜTÜN DÜNYANI ÖRTƏCƏK OLAN OĞLUM MEHDİDİR".** (Isbat-ül Hüdat, 6-cı cild, səh.275)

# HZ. MEHDİ (Ə.S)-IN DOĞUMU

**13-DOĞUMU GİZLİ OLMUŞ, YƏNİ EVDƏ DOĞULMUŞDUR.**

İmam Zeynal Abidin belə buyurmuşdur: **"Bizim Qaimimiz (hz. Mehdi (ə.s) ilə Allahın rəsulları arasında bir sıra bənzərliklər vardır... <u>İbrahim (ə.s) ilə doğumunun gizli olmasında (doğumunun evdə olmasında) ...bənzərliyi vardır".</u>** (Kemal'ud-Din səh. 322, 31. Bab, 3. hadis)

Hz. Əli ibn Hüseyn Zeynəl Abidin belə buyurur: **"Qaimimizin (hz. Mehdi (ə.s)-ın) doğumu insanlara gizli qalacaqdır (yəni doğumu evdə olacaqdır) ..."** (Bihar-ül Envar, 51-ci cild, səh. 135)

**14-BÖYÜK BİR ŞƏHƏRDƏ DOĞULMUŞ, SONRA YENƏ BÖYÜK BİR ŞƏHƏRƏ GETMİŞDİR VƏ "QARA KƏNDİ" NDƏNDİR.**

**<u>MEHDİ, MƏDİNƏDƏN (BÖYÜK ŞƏHƏRDƏN) ÇIXACAQ VƏ MƏKKƏYƏ GƏLƏCƏKDİR.</u> İnsanlar onu, öz aralarından (tanıyıb) ortaya çıxaracaqlar ....** (Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi'si "Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar)

**<u>MEHDİ (Ə.S)-IN QARA KƏNDDƏN ÇIXACAĞI DEYİLMİŞDİR.</u>** (Mustafa Reşit Filizi, Risalet-ül Huruc ül Mehdi, səh. 69)

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdə mədinə sözü gizli şəkildə ifadə edilmişdir. Yəni Peyğəmbərimiz (s.ə.v) mədinə sözünü fərqli-fərqli mənaları ilə istifadə etmişdir. İslam aləmində isə çox saylı böyük şəhər, yəni mədinə vardır. Buna görə sözü gedən hədislərdə keçən mədinə sözünün hansı mənanı daşıdığını ancaq mövzuyla əlaqədar digər rəvayətləri araşdıraraq anlamaq mümkündür.

Məsələn, yuxarıda qeyd etdiyimiz hədisdə Peyğəmbərimiz (s.ə.v) hz. Mehdi (ə.s)-ın mədinədən, yəni böyük bir şəhərdən çıxacağını bildirir, başqa bir hədisdə də **hz. Mehdi (ə.s)-ın "Qara adlı kənddən çıxacağını" ifadə edir. İmam Qurtubinin təzkirəsində isə hz. Mehdi (ə.s)-ın, İslam ölkələrinin qərb tərəfindən çıxacağı ifadə edilmişdir.** Bu ifadə, hz. Mehdi (ə.s)-ın doğulduğu böyük şəhərin İslam ölkələrinin qərb tərəfində yer alan böyük bir şəhər olduğunu göstərir.

Başqa bir hədisdə isə Peyğəmbərimiz (s.ə.v) qarşısındakı şəxsə hz. Mehdi (ə.s)-ın mədinəni, yəni böyük bir şəhəri mənəvi fəth edəcəyini söyləyir. Rəvayətdə qeyd edilən şəxs də, çoxlu sayda mədinə (yəni böyük şəhər) olduğundan hz. Mehdi (ə.s)-ın hansı mədinəni, yəni hansı şəhəri mənəvi fəth edəcəyi barədə şübhəyə düşmüşdür. Buna görə, Peyğəmbərimiz (s.ə.v)-dən bu mədinənin (böyük şəhərin) hansı olduğu soruşmuşdur.

Peyğəmbərimiz (s.ə.v) də cavab olaraq bu mədinənin (yəni şəhərin) İstanbul olduğunu söyləmişdir.

Hz. İbni Əmr (r.ə)-dən rəvayət edilmişdir: Peyğəmbərimiz (s.ə.v) buyurdu ki: Ey Ümmət! Altı şey vardır ki, onlar olmadan qiyamət qopmaz, (altıncısı) mədinənin (şəhərin) fəthidir.

- "Hansı mədinə?(hansı şəhər)" –deyə soruşuldu.

-Buyurdu ki: Konstantinapol.

Hz. Mehdi (ə.s)-ın doğulduğu və İslam aləminin qərbində qalan şəhər ilə fəth edəcəyi şəhərin ayrı mədinələr, yəni ayrı şəhərlər olduğunu da yenə rəvayət edilən hədislərə baxaraq anlamağımız mümkündür. Yəni hz. Mehdi (ə.s) İslam aləminin qərbində olan böyük bir şəhərdə doğulacaqdır. Sonra da İslam aləminin bir başqa böyük şəhəri olan İstanbulu mənəvi fəth edəcəkdir.

## 15-PEYĞƏMBƏRİMİZ (S.Ə.V) HZ. MEHDİ (Ə.S)-IN ZÜHUR YERİNİN GÜZİDƏ, YƏNİ İNSANLARIN BƏYƏNDİYİ, SEÇİLMİŞ BİR SƏMT OLACAĞINI BİLDİRMİŞDİR.

**Əbu Naim Abdullah ibn Ömər (r.ə)-dan rəvayət edilmişdir. Allah Rəsulu (s.ə.v) belə buyurmuşdur: "HZ. MEHDİ (Ə.S.) KƏRİMƏ DEYİLƏN BİR KƏNDDƏN ÇIXAR."** ((Nurul ebsar, Ehl-i Beyt, Oniki imam, kutuplar ve mezhep imamlarının menkıbeleri, Şeblenci, səh. 590)

## 16-SOYU QAFQAZDAN GƏLİR

**Müsəlmanlardan bir şəxs (hz. Mehdi (ə.s)) gələcək, BU ŞƏXSİN ŞƏRƏFİ QAFQAZIN ƏN ULU DAĞINDAN ətrafa günəşin şüası (işıq şüaları) kimi şölənəcəkdir (ətrafa işıltılar saçacaq).** (Osman Yüksel Serdengeçti, Mabedsiz Şehir, Serdengeçti Neşriyatı: VI, səh.107)

## 17-MƏKKƏ VƏ MƏDİNƏDƏN DEYİL, "QAR" OLAN BİR YERDƏN ÇIXAR

Xorasan tərəfindən bayraqlar çıxdığını gördüyünüzdə, QAR ÜZƏRİNDƏ SÜRÜNƏRƏK DƏ OLSA, o bayraqlara qatılın, çünki içlərində Allahın xəlifəsi hz. Mehdi (ə.s) vardır. (El-Kavlu'l Muhtasar fi Alamet-il Mehdiyy-il Muntazar, Hadis no. 35)

Hədisdə Mehdi (ə.s)-a çatmaq üçün "qar üzərində sürünərək də olsa" ifadəsi istifadə edilir. Bu ifadə ilə Peyğəmbərimiz (s.ə.v) çox hikmətli bir şəkildə, bəzi kəslərin iddia etdiyi

kimi, Məkkə və ya Mədinə şəhərlərindən deyil, qar yağan, qar olan bir yerdən çıxacağını izah edir.

**18-DOĞULDUĞU BÖYÜK ŞƏHƏRDƏN ÇIXIB KÖRPÜNÜ KEÇƏRƏK İSTANBULA GƏLƏCƏKDİR**

**Konstantinapolun fəthi zamanı səhər namazı üçün dəstəmaz alarkən bir bayraq sancacaqdır. DƏNİZ İKİYƏ AYRILARAQ SU ÖZBAŞINA UZAQLAŞACAQ VƏ AÇILAN YOLLA GEDƏN HZ. MEHDİ QARŞI SAHİLƏ KEÇƏCƏKDİR. Sonra bir bayraq daha sancacaq və deyəcəkdir ki: "Ey insanlar, ibrət götürün. Dəniz Bəni İsrailə necə yol verdisə bizə də elə yol verdi...".** (El-Kavl-ül Muhtasar fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 57)

Hz. Mehdi (ə.s)-ın dənizdə quru bir yer açılacağı deyilərək bir körpüyə də işarə edilmişdir. Hz. Mehdi (ə.s)-ın bir körpüdən keçərək İstanbula gələcəyi xəbər verilmişdir.

**19-ŞƏRQ TƏRƏFİNDƏN ÇIXAR**

**HƏSƏNİN ÖVLADINDAN BİRİ (HZ. MEHDİ (Ə.S)) ŞƏRQ TƏRƏFİNDƏN ÇIXACAQ...** (Ali Bin Hüsamettin El Muttaki, Celaleddin Suyuti'nin Tasnifinden Hadisler–Ahir Zaman Mehdi'sinin Alametleri, səh. 22)

**20-TÜRK MİLLƏTİNDƏN ÇIXACAQ**

**HZ. MEHDİ (Ə.S) RUMDAN, TÜRKLƏRDƏN (çünki keçmişdə Türkiyəyə "Rum diyarı" deyilirdi) AYRILMAYACAQDIR.** (İş'afü'r-Rağıbîn'den naklen Tılsımlar Mecmuası, Bediüzzaman Said Nursi, səh. 212)

**21-MÜQƏDDƏS ƏMANƏTLƏRİN OLDUĞU YERDƏN, YƏNİ İSTANBULDAN ÇIXACAQ**

**Peyğəmbər (s.ə.v)-in "ipək bayrağı" ilə çıxacaqdır. Həmin bayraq dördbucaqlı olub, tikişsizdir və rəngi də qaradır. Onda bir hicr (dairə) olar. O Rəsulullah (s.ə.v)-in vəfatından bəri açılmamışdır, Mehdi çıxınca açılacaqdır.** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiy-il Ahir Zaman, səh. 23)

Əlamətlərə gəlincə ALLAH RƏSULU (S.Ə.V)-İN KÖYNƏYİ, QILINCI, BAYRAĞI OLACAQDIR. O bayraq ki, Peyğəmbər (s.ə.v)-in vəfatından  bu günə qədər heç açılmamışdır... (Kıyamet Alametleri, səh. 164)

**22-İSTANBULU MƏNƏVİ CƏHƏTDƏN, ELMLƏ FƏTH EDƏCƏKDİR**

Hz. İbni Əmr (r.ə)-dən rəvayət edilmişdir:

Peyğəmbərimiz (s.ə.v) buyurdu ki: **"Ey Ümmət! Altı şey vardır ki, onlar olmadan qiyamət qopmaz, (altıncısı) MƏDİNƏNİN (ŞƏHƏRİN) FƏTHİDİR".**

**Deyildi ki: "Hansı Mədinə? (Hansı şəhər?)"**

**Buyurdu ki: "Konstantinopol (İstanbul)".**

(Medineli Allâme Muhammed ibn Resul el-Hüseynî el-Berzencî, Kıyamet Alametleri, 204 Ramuz-el Ehadis, 296)

Nuaym ibn Hammad, Əbu Cəfərdən belə rəvayət etmişdir: **"... Zülmə və zalımlara mane olacaq, ölkələr düzələcək, CƏNABI HAQQ ONA İSTANBULU (MƏNƏVİ) FƏTH ETDİRƏCƏKDİR".** (Ukayli "En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali ibn Ebi Talib Ale't-Temam ve'l kamal")

**ALLAH KONSTANTİNOPOLU (İSTANBULU) ÇOX SEVDİYİ DOSTLARININ ƏLİ İLƏ FƏTH EDƏCƏK... Onlardan xəstəliyi və kədəri qaldıracaqdır.** (Kıyamet Alametleri, səh. 181)

**23-OLDUĞU YERDƏ ÇOXLU SAYDA BAYRAQ OLACAQDIR**

**Konstantinopolun fəthi ərəfəsində SƏHƏR NAMAZI ÜÇÜN DƏSTƏMAZ ALARKƏN BİR BAYRAQ SANCACAQDIR, dəniz ikiyə ayrılaraq su mənbəyindən uzaqlaşacaq və açılan yolla gedən hz. Mehdi qarşı sahilə keçəcəkdir. Sonra BİR BAYRAQ DAHA SANCACAQ və deyəcək ki, "Ey insanlar, ibrət götürün. Dəniz Bəni-İsrailə necə yol verdisə, bizə də eləcə yol verdi".** (El-Kavlü'l Muhtasar fi Alamatil Mehdiyy-il Muntazar, səh. 57)

**24-HZ. MEHDİ (Ə.S)-IN MÜQƏDDƏS ƏMANƏTLƏRLƏ ÇIXMASI İSTANBULDAN ÇIXACAĞINA İŞARƏDİR**

Abdullah ibn Surəfədən rəvayət edildi ki: **"HZ. MEHDİ (Ə.S) İLƏ BİRLİKDƏ, BƏZƏDİLMİŞ BİR HALDA PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN BAYRAĞI OLACAQDIR".** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 65)

**Əlamətlərə gəlincə, ONUNLA BİRLİKDƏ ALLAH RƏSULU (S.Ə.V)-İN KÖYNƏYİ, QILINCI VƏ BAYRAĞI OLACAQDIR. O bayraq ki, Peyğəmbər (s.ə.v)-in vəfatından bu günə qədər heç açılmamışdır...** (Kıyamet Alametleri, səh. 164)

## 25-BƏDİÜZZAMAN HƏZRƏTLƏRİ DƏ HZ. MEHDİ (Ə.S)-IN İSTANBULDAN ÇIXACAĞINI SÖYLƏMİŞDİR

Mehdi kimi şəxs haqqındakı rəvayətin anlaşılmazlığı və sirri budur ki: **Hədisi təfsir edənlər, hədis mətni təfsirlərindən və gizli mənalardan istifadə etmişlər. Məsələn: Mərkəzi səltənət o vaxt Şamda və ya Mədinədə olduğundan, hadisələri Mehdiyə və ya Süfyanilər mərkəzi səltənətinin ətrafında olan Bəsrə, Kufə, Şam kimi yerlərdə təsəvvür edərək təfsir etmişlər. Həm də o adamların şəxsi-mənəvisinə və ya təmsil etdikləri camaata aid böyük əsərlər o adamı təsəvvür edərək elə təfsir etmişdilər ki, O MÖCÜZƏLİ ŞƏXS çıxdığı vaxt bütün xalq onları tanıyacaq. Halbuki, demişdik: Bu dünya təcrübə meydanıdır. Ağıla qapı açılar, lakin ixtiyarı əlindən alınmaz. ELƏ İSƏ O ŞƏXS, hətta dəccal da çıxdığı zaman çoxları, hətta özü də əvvəl dəccal olduğunu bilməz. Bəlkə iman nurunun diqqəti cəlb etməsi ilə, O AXIRZAMAN TANINA**. (Sözler, səh. 344)

Bədiüzzaman Həzrətləri, sonuncu səltənət və xəlifəliyin mərkəzi İstanbulda olduğu üçün hz. Mehdi (ə.s) ilə əlaqədar hadisələrin də bu şəhərdə reallaşacağını bildirmişdir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərini açıqlayanlar, o dövrlərdə səltənətin mərkəzi Bəsrə, Şam, Kufə kimi yerlərdə olduğu üçün hz. Mehdi (ə.s) ilə əlaqədar hadisələrin bu ərazilərdə baş verəcəyini düşünmüşdürlər. Ancaq Bədiüzzaman, son səltənət və xəlifəliyin mərkəzi İstanbulda olduğu üçün hz. Mehdi (ə.s) ilə əlaqədar hadisələrin də bu şəhərdə baş verəcəyini bildirmişdir. Bu ifadələrlə Bədiüzzaman Axırzamanla əlaqədar rəvayət və şərhlərin daha yaxşı başa düşülməsini təmin edir.

# HZ. MEHDİ (Ə.S)-IN ÇIXIŞ ZAMANI

**26-HZ. MEHDİ (Ə.S)-IN GƏLİŞİ BÜTÜN İNSANLAR ÜÇÜN BİR MÜJDƏDİR.**

**HZ. MEHDİ İLƏ MÜJDƏLƏNİN. O Qüreyşdən və Əhli-Beytimdən olan bir kəsdir. O, insanların ixtilafda və ictimai sarsıntılar içində olduqları bir vaxtda çıxar...** (Hz. Ebu Said el Hudri (ra) / Ramuz El-Ehadis 1. cilt, Sayfa 7, No 7 - Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 13)

**27- PEYĞƏMBƏRİMİZ (S.Ə.V) HZ. MEHDİ (Ə.S)-IN MÜJDƏLƏNİLMƏLİ OLDUĞUNU BİLDİRMİŞDİR**

Əbul Hicaf da Peyğəmbər (s.ə.v)-in üç dəfə belə buyurduğunu rəvayət edir: **''HZ. MEHDİ (Ə.S) BARƏSİNDƏ MÜJDƏLƏR OLSUN SİZLƏRƏ. Xalqın dağıldığı və çətinliklərin baş verdiyi zaman hz. Mehdi (ə.s) zühur edəcəkdir...."** (Peygamberin Ehl-i Beytinden Olan Hz. Mehdi (as), səh. 16; Bihar-ül Envar, 51-ci cild, səh. 74)

**EY İNSANLAR, MEHDİNİN ÇIXIŞI İLƏ MÜJDƏLƏNİN. Çünki Allahın vədi həqiqətdir, boşa çıxmaz. Onun hökmü geri götürülməz. O, hər şeyi hikmətlə edər və hər şeyi bilər. Allahın qələbəsi yaxındır**. (Yenabiu'l-Mevedde, Süleyman el-Hüseynî el-Kunduzî, səh. 440)

**28-HZ. MEHDİ (Ə.S)-IN ÇIXIŞ ƏLAMƏTLƏRİ BİR-BİRİNİN ARDINCA HƏYATA KEÇƏR**

**Qiyamət əlamətləri bir-birini izləyərək meydana çıxar. BİR DÜZÜMDƏKİ MUNCUQLARIN ARD-ARDA QOPMASI KİMİ.** (Ramuz-El Ehadis, 2776; Camiü's Sagir, səh.3167)

**ƏLAMƏTLƏR, ÖDÜ QOPARILIB QAÇAN BALIQLARIN BİR-BİRİNİ QOVDUĞU KİMİ QOVALAYAR.** Ölüm, Kıyamet ve Diriliş, İmam Şarani, səh. 478)

**29-ZÜHURU BİRDƏN OLACAQDIR**

Kumeytdən, İmam Baqirin yanına gedib soruşdum: **"Qaim Məhəmməd Mehdi nə vaxt zühur edəcək?". Belə cavab verdi: "Eyni sual Allahın elçisinin qarşısında da soruşulmuşdu və o belə demişdi: "Onun çıxışı anidən olan yenidən diriliş anına bənzəyər".** (İmam Mehdi Hakkında Sorular ve Cevaplar, Seyid Hüseyin Hüseyni)

Hz. İmam Rza belə buyurdu: "...Atalarımdan nəql edilmişdir ki: **HZ. MEHDİ (Ə.S) GİZLİCƏ VƏ ANİDƏN ZÜHUR EDƏCƏKDİR".** (Yenabi-ul Mevedde, 2-ci cild, səh. 197)

**30-ZÜLMÜN ARTDIĞI BİR DÖVRDƏ ÇIXACAQ**

Mehdi barəsində sizlərə müjdələr olsun.

**XALQIN DAĞILDIĞI VƏ ÇƏTİNLİKLƏRİN BAŞ VERDİYİ BİR ZAMANDA MEHDİ ZÜHUR EDƏCƏKDİR. Zülm və şikayətlə dolmuş yer üzünü ədalətlə dolduracaqdır…** (Bihar-ul Envar, 51-ci cild, səh 74)

**KÜFR HƏR YANI ZƏBT EDİB, HÖKMÜNƏ CƏMİYYƏT İÇİNDƏ AŞKAR ŞƏKİLDƏ ƏMƏL EDİLMƏDİKCƏ, HZ. MEHDİ (Ə.S) ZÜHUR ETMƏZ. BU VAXTDA, BAŞ VERƏN İSƏ KÜFRÜN ZƏBTİDİR. ONUN QÜVVƏTİDİR. İSLAMIN VƏ MÜSƏLMANLARIN DA ZƏİFLİYİDİR. BU VAXT, RƏSULULLAH (S.Ə.V)-İN, İSLAM ƏHLİNİN ZƏİFLƏDİKLƏRİNİ İZAH ETDİYİ DÖVRDÜR….** (İmam-ı Rabbani, Mektubat-ı Rabbani, 2-ci cild, 381. Mektup, səh. 1184-1186)

**31-İNSANLAR HZ. MEHDİ (Ə.S)-I İLK DƏFƏ 30-40 YAŞLARINDA TANIMAĞA BAŞLAYARLAR**

**YAŞI 30 İLƏ 40 ARASINDA OLDUĞU HALDA GÖNDƏRİLƏCƏKDİR... Mehdi mənim övladlarımdandır. 40 yaşlarındadır.** (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar, səh. 41)

**32-HZ. MEHDİ (Ə.S)-IN GƏLİŞİNDƏN ÜMİD KƏSİLMƏSİ MEHDİ (Ə.S)-IN ÇIXIŞ ƏLAMƏTİDİR**

**İNSANLARIN ÜMİDSİZ OLDUĞU VƏ "HEÇ MEHDİ YOXMUŞ" DEDİYİ vaxtda Allah hz. Mehdi (ə.s)-ı göndərər.** (Kitab-ul Burhan fi-Alamet-il Mehdiyy-il Axır zaman, səh. 55)

**XALQ TAMAM ZÜHURDAN ÜMİDİNİ KƏSDİYİ ANDA O (HZ. MEHDİ (Ə.S)) ZÜHUR EDƏCƏKDİR! Onun zamanında yaşayıb ona kömək edənlər nə xoşbəxtdir! Ona düşmənlik bəsləyib, ona və onun əmrinə qarşı çıxanlara, onun düşmənlərindən olanlara ar olsun!** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 301)

**... HZ. MEHDİ (Ə.S) Rəsulullah (s.ə.v)-in bayrağı ilə, insanların başlarına bəla üzərinə bəla yağdığı və ÇIXIŞINDAN ÜMİD KƏSİLDİYİ BİR ANDA ÇIXAR...** (Ali Bin Husameddin el-Muttaki, Kitab-ul Burhan fi-Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)

## 33-ÜMİDSİZLİYİN VƏ AĞRILARIN ƏN SIX OLDUĞU DÖVRDƏ ÇIXAR

Davud ibn Kəsri Rıqqi deyir ki: İmam Əbu Abdullah əleyhissalama belə ifadə etdim: **"...Bu əmir (yəni qiyam, hz. Mehdi (ə.s)) çox uzandı belə ki, qəlblərimiz daraldı və dərin kədərdən artıq ölürük". Buyurdu ki: "BU ZÜHUR, DAHA ÜMİDSİZ VƏ HÜZNÜN DAHA ÇOX OLDUĞU BİR ZAMANDA BAŞ VERƏCƏKDİR".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 208)

**... ONUN (HZ. MEHDİ (Ə.S)-IN) ZÜHURU ÜMİDSİZLİK VƏ ÜZÜNTÜ ƏRƏFƏSİNDƏDİR.** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 274)

## 34-İNSANLARIN ƏKSƏRİYYƏTİNİN QƏRARSIZ QALDIĞI BİR DÖVR HZ. MEHDİ (Ə.S)-IN ÇIXIŞ VAXTIDIR

İmam Sadiqdən: **"Zühurundan əvvəlki dövr uzun olduğu üçün yalnız tək bir qrup qərarlı qalacaq və başqa bir qrup "Hələ doğulmadı!" deyəcəkdir. Digərləri isə deyəcəklər ki, "doğuldu və öldü". Başqa biriləri "İmam Mehdi başqasının bədənində yenidən gəldi və danışır" deyərək günaha girəcəklər".** (Kemal'ud-Din, 2-ci cild, bölüm 34:51)

# HZ. MEHDİ (Ə.S)-IN ZÜHURU VƏ TANINMASI

### 35-HZ. MEHDİ (Ə.S)-IN KİM OLDUĞU ALLAH QATINDA MÜƏYYƏNDİR

**... Ey Allahın qulları, Allahdan qorxun. MEHDİ (Ə.S) ZÜHUR EDİNCƏ, HƏR ŞEYİ BURAXIB MÜMKÜN OLAN HƏR VƏSİLƏ İLƏ ONA DOĞRU QAÇIN. ÇÜNKİ O ALLAHIN XƏLİFƏSİ VƏ MƏNİM QƏYYUMUMDUR. .** (Bihar-ul Envar, 51-ci cild, səh.65;

Isbat-ul Hüdat, 6-cı cild, səh. 382)

### 36- ALLAH HZ. MEHDİ (Ə.S)-I MÜTLƏQ İNSANLARA TANIDACAQDIR

Əbu Abdullah (İmam Cəfəri Sadiq) buyurdu ki: **"Ey Hişam! Mənə Əmir ibn Ubeydəyə nə etdiyini və ona necə bir sual verdiyini xəbər ver". Hişam (verilən bu sual əsasında Əmir ibn Ubeyd ilə aralarında keçən dialoqu izah etdi.) Dedi ki: "Yoxsa Allah, ürəyi, bədənin digər orqanlarının şübhələrini aradan qaldırmaq üçünmü var etmişdir?" (Əmir ibn Ubeyd) Dedi ki: "Bəli!". Hişam dedi ki: "Allah Təbarəkə və Təala sənin bədəninin orqanlarını özbaşına buraxmamış, onlara doğrunu aydınlaşdıran, şübhəli məsələlərlə əlaqədar qəti inancı bildirən bir imam yaratmışdır. BUNU EDƏN ALLAHDIR, BÜTÜN İNSANLARI, TƏƏCCÜB, ŞÜBHƏLƏR VƏ İXTİLAFLAR İÇƏRİSİNDƏ BURAXARMI? ONLAR ÜÇÜN MÜRACİƏT EDƏCƏKLƏRİ, ŞÜBHƏLƏRİNƏ CAVAB VERƏCƏK, TƏƏCCÜBLƏRİNİ ARADAN QALDIRMASI ÜÇÜN SIĞINACAQLARI BİR İMAM TƏYİN ETMƏZ Mİ? SƏNİN ORQANLARININ TƏƏCCÜBÜNÜ VƏ ŞÜBHƏLƏRİNİ ARADAN QALDIRMAQ ÜÇÜN MÜRACİƏT EDƏCƏYİ BİR İMAM TƏYİN EDƏRKƏN, BÜTÜN İNSANLARI TƏƏCCÜB VƏ ŞÜBHƏLƏR İÇƏRİSİNDƏ UNUDARMI?". Əbu Abdullah (İmam Cəfəri Sadiq) güldü və belə dedi: "Ey Hişam! Bunları sənə kim öyrətdi? Dedim ki: "Bunları səndən öyrənərək bir araya gətirdim". İmam buyurdu ki: "Allaha and içərəm ki, bu, İbrahim və Musanın səhifələrində olan həqiqətlərdir".** (Usul-i Kafi, Yakub ibn İshak El Kuleyni, 1-ci cild, səh. 229)

### 37-HZ. MEHDİ (Ə.S)-IN ZÜHURUNDA ŞÜBHƏ YOXDUR

Əbu Həmzə-i Somalidən: Bir gün İmam Məhəmməd Baqirin yanında oturmuşdum. Yanındakılar dağılıb getdikdən sonra mənə belə buyurdu: **"EY ƏBU HƏMZƏ! ALLAHIN YANINDA DƏYİŞMƏYƏCƏK OLAN QƏTİ HÖKMLƏRDƏN BİRİ MEHDİMİZİN QİYAMIDIR..."** (Şeyh Muhammed ibn. İbrahim-i Numani, Gaybet-i Numani səh. 90-91)

### 38-HZ. MEHDİ (Ə.S) SƏHABƏ ZAMANINDA BELƏ, ŞÖVQLƏ GÖZLƏNİLMİŞDİR

Hakem ibn Üyeynə: "Məhəmməd ibn Əliyə dedim ki: **"SİZİN ƏHLİ-BEYTDƏN BİRİNİN (HZ. MEHDİ (Ə.S)-IN) QİYAM EDƏCƏYİNİ VƏ HƏR YERİ ƏDALƏTLƏ DOLDURACAĞINI EŞİTDİK. GÖRƏSƏN DOĞRUDURMU?" BUNDAN SONRA, "BİZ DƏ ÜMİD İÇİNDƏ ONU GÖZLƏYİRİK" DEDİ.** (El-Havi, 2-ci cild, səh. 155)

## 39-İNSANLAR HZ. MEHDİ (Ə.S)-I GÖZLƏMƏKLƏ VƏ AXTARMAQLA MƏSULDURLAR

İmam Məhəmməd Taqi Əbdülazim Hasaniyə belə buyurdu: **"QAİM, VƏD EDİLMİŞ MEHDİDİR. GİZLİ ZAMANINDA ONU GÖZLƏMƏK, ZÜHUR ETDİKDƏ DƏ ONA İTAƏT ETMƏK LAZIMDIR... Allaha and olsun ki, əgər qiyamətin qopmasına bir gün belə qalsa, Allah Mehdi zühur etsin və yer üzünü zülmlə dolduğu kimi ədalətlə doldursun deyə o günü uzadar..."** (Bihar-ul Envar, 51-ci cild, səh.156; Isbat-ül Hüdat, 6-cı cild, səh. 420

## 40-ALLAH DÜNYANIN SON GÜNÜ BELƏ OLSA, HZ. MEHDİ (Ə.S)-IN ZÜHURU ÜÇÜN O GÜNÜ UZADACAQDIR

**Mənim Əhli-Beytimdən bir şəxs (hz. Mehdi (ə.s)) bütün dünyaya hakim olana qədər GÜNLƏR VƏ GECƏLƏR GETMƏZ.** (En-Necmu's Sakıb, Ukayli )

**ƏGƏR DÜNYADA BİR GECƏ BELƏ QALSA, ALLAH ONU UZADAR və Əhli-Beytimdən birini (hz. Mehdi (ə.s)-ı) məlik edərdi**. (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 10)

**DÜNYADA BİR GÜN QALSA BELƏ (QİYAMƏT QOPMADAN) ALLAH O GÜNÜ UZADACAQ, adı adıma, atasının adı da atamın adına uyğun ƏHLİ-BEYTİMDƏN MÜTLƏQ BİR KİMSƏ (HZ. MEHDİ (Ə.S)) GƏLƏCƏKDİR....** (Ebu Davud ve Tırmizi / Büyük Hadis Külliyatı, Rudani 5-ci cild, səh. 365)

## 41-İMAN EDƏNLƏRLƏ MÜNAFİQLƏRİN TAMAMİLƏ ORTAYA ÇIXMASINDAN SONRA HZ. MEHDİ (Ə.S) ZÜHUR EDƏR

Süleyman ibn Bilal deyir ki: "İmam Cəfəri Sadiq atasından, o da babasından nəql edir ki, hz. Hüseyn belə buyurdu: **Bir gün bir nəfər Əmir əl-möminin Əlinin yanına gələrək: "Ey Əmir əl-möminin! Bizə bu Mehdinizdən bəhs edərsənmi?"—deyə ifadə edincə belə buyurdu: "GETMƏSİ LAZIM OLANLAR GEDİB MÖMİNLƏR AZALDIĞINDA VƏ FİTNƏÇİLƏR GETDİYİNDƏ MƏHZ ORADA (YƏNİ UZAQ BİR YERDƏ ZÜHUR EDƏCƏKDİR)".**

(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh.250)

# XALQIN BÖYÜK QİSMİNİN ƏVVƏLDƏ ONU TANIYA BİLMƏMƏSİ

**42-XALQIN BÖYÜK ƏKSƏRİYYƏTİ İLK ƏVVƏL ONU TANIMAZ**

Hz. İmam Hüseynin belə buyurduğu rəvayət olunmuşdur: **"Hz. Mehdi (ə.s) QİYAM ETDİYİNDƏ XALQ ONU TANIMAYACAQDIR...".** (Ikd-üd Dürer, səh. 41)

**43-O, XALQI ÇOX YAXŞI TANIYAR, AMMA XALQIN ÇOXU ONU TANIMAZ**

**AMMA HÜCCƏT (HZ. MEHDİ (Ə..S)) XALQI TANIYAR, XALQ İSƏ ONU TANIYA BİLMƏZ. EYNİLƏ YUSİF KİMİ. YUSİF XALQI TANIDIĞI HALDA ONLAR YUSİFİ İNKAR EDƏRDİLƏR. Sonra hz. Əli bu ayəni oxudu: "Qullara ar olsun, Rəsul onlara gəldikcə onunla lağ edirdilər".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 162)

**44-HZ. MEHDİ (Ə.S) XALQDAN BİRİ KİMİ DAVRANACAĞI ÜÇÜN İLK ƏVVƏL TANINMAZ**

İmam Sadiq belə buyurur: **Bu işin sahibinin (hz. Mehdi (ə.s)-ın), Yusif (ə.s)-a bənzərliyidir. Çünki Yusif (ə.s) qardaşlarını tanımışdı, ancaq qardaşları onu gördükləri zaman, ÖZÜNÜ TANIDANA QƏDƏR ONU TANIMAMIŞDIRLAR... HALBUKİ O [HZ. MEHDİ(Ə.S)], ONLARIN BAZARLARINDA GƏZƏR, YIĞINCAQLARINDA XALÇALARININ ÜZƏRİNƏ AYAQ BASAR. Allahın icazəsi ilə özünü tanıdana qədər onlar onu (hz. Mehdi (ə.s)-ı) tanımayacaqlar.** (Mucem-ul Ehadisi İmam Mehdi, 3-cü cild)

**45-İLK ƏVVƏL İNSANLARIN BÖYÜK BİR HİSSƏSİ HZ. MEHDİ (Ə.S)-DAN UZAQ DAYANACAQDIR**

**QOYUNLARIN ÇOBANLARINDAN QAÇMASI KİMİ İNSANLAR ONDAN (HZ. MEHDİ (Ə.S)-DAN) QAÇACAQLAR... Daha sonra insanlar hər yerdə bir islahatçı axtarışına çıxarlar. Ancaq ondan başqa özlərinə kömək edəcək birini tapa bilmədiklərinə görə, ona doğru qaçmağa başlayarlar...** (Bihar ul-Envar, 52-ci cild, Səh. 326)

## ZAMANI GƏLDİYİNDƏ TANINAR

**46-HZ. MEHDİ (Ə.S) ALLAHIN İCAZƏ VERDİYİ ZAMANDA TANINAR**

**Bizdən olan Qaim (Hz. Mehdi (ə.s)) haqq əsasında qiyam etmədikcə əsla qiyamət qopmaz. BU DA ALLAHIN İCAZƏ VERDİYİ ZAMAN OLACAQDIR. Ona inanan xilas olar, ondan geri qalan isə həlak olar...** (Bihar-ul Ənvar, 51-ci cild, səh. 65; Isbat-ul Hüdat, 6-cı cild, səh. 382)

**...ALLAH DİLƏDİYİ ZAMANA QƏDƏR ONU (HZ. MEHDİ (Ə.S)-I) GÖZDƏN UZAQ TUTAR. DAHA SONRA ZÜHUR EDƏR və yer üzünü əvvəldən zülmlə dolduğu kimi ədalətlə doldurar.** (Bihar-ul Envar, 52-ci cild, səh. 32; İsbat-ul Hudat, 6-cı cild, səh. 19)

**47-İNSANLARIN HZ. MEHDİ (Ə.S) HAQQINDAKI FİKİRLƏRİ ƏVVƏLCƏ BİR-BİRİNDƏN FƏRQLİ OLAR, LAKİN SONRA BÜTÜN FİKİRLƏRİ ÜST-ÜSTƏ DÜŞƏR**

**ZAMANIN SAHİBİ ƏL-MEHDİ (HZ. MEHDİ (Ə.S)) HAQQINDA MÜXTƏLİF FİKİRLƏR CƏMLƏŞƏRƏK DOLANACAQ, MÜXTƏLİF DÜŞÜNCƏLƏR ARASINDA BUNLAR BİRLƏŞƏCƏK, onun vəsiləsi ilə ən yaxın dostlarınızın haqları bərpa olunacaq, onun vəsiləsi ilə düşmənlərinizin pisliklərinə etiraz edəcək və yer üzünü onun vəsiləsi ilə yaxşılıq və ədalətlə dolduracaqsınız...** (Seyyid Murtaza Müçtehidi Sistani, Nashr Almas Yayınları, səh. 343)

**48-ZAMANI GƏLDİYİNDƏ İNSANLAR HZ. MEHDİ (Ə.S)-IN ƏTRAFINDA CƏMLƏŞƏRLƏR**

**Onun (hz. Mehdi (ə.s)-ın) ZAMANI ÇATDIĞINDA... İNSANLAR PAYIZIN BULUD PARÇALARI KİMİ ONUN (HZ. MEHDİ (Ə.S)-IN) ƏTRAFINA TOPLANAR.** (Nech-ül Belağa, İlginç Sözler-1)

**49-HZ. MEHDİ (Ə.S)-A KÖMƏK EDƏNLƏR ONU ƏLAMƏTLƏRİNDƏN TANIYARLAR**

**Hz. Əli belə buyurur: "...ALLAH HZ. MEHDİ (Ə.S)-IN KÖMƏKÇİLƏRİNİ QORUYAR, ONLARA NİŞANƏ VƏ ƏLAMƏTLƏRLƏ KÖMƏK EDƏR VƏ ONLARI YER ÜZÜNÜN BÜTÜN İNSANLARINA QALİB ETDİRƏR".** (İsbat-ul Hudat,7-ci cild, səh. 49)

**50-HZ. MEHDİ (Ə.S) İNSANLARA ƏZİZ VƏ SEVGİLİ OLDUĞUNDA ZÜHUR EDƏR**

Sələmə ibn Züfər belə deyir: **"MEHDİ İNSANLARIN PİSLİK, CANİLİK VƏ ZÜLMDƏN BEZDİYİ VƏ HEÇ BİR GÖRÜNMƏYƏN ONUN QƏDƏR ƏZİZ VƏ SEVGİLİ OLMADIĞI BİR ZAMANDA QİYAM EDƏCƏKDİR".** (El-Havi, 2-ci cild , səh. 159 )

# HZ. MEHDİ (Ə.S)-IN ADI

**51-PEYĞƏMBƏRİMİZ (S.Ə.V), HZ. MEHDİ (Ə.S)-IN ADINI BİR HİKMƏTLƏ GİZLİ TUTMUŞDUR**

Cabir Əbu Cəfərdən nəql edir, **... iman edənlərin şəhzadəsi (hz. Əli) dedi ki: "Mənim sevimli və yaxın dostum (Peyğəmbərimiz (s.ə.v)) dedi ki, UCA ALLAH ONU ORTAYA ÇIXARANA QƏDƏR ONUN (HZ. MEHDİ (Ə.S)-IN ADINI KİMSƏYƏ SÖYLƏMƏMƏYİM ÜÇÜN MƏNDƏN SÖZ ALDI. ONUN (HZ. MEHDİ (Ə.S)-IN) ADI UCA ALLAHIN ELÇİSİNƏ ƏMANƏT ETDİYİ MƏLUMATLARDAN BİRİDİR.** (İkmal al Din) (Gaybet, Allame Muhammed Bakır El-Meclisi, Ansariyan Yayınları, İran, 2007)

**52- HZ. MEHDİ (Ə.S)-IN ADI PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN ADINA UYĞUNDUR**

Abdullah ibn Ömər (r.ə)-dən rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: **"Mənim Əhli-Beytimdən ADI ADIMA UYĞUN OLAN BİR ADAM (HZ. MEHDİ (Ə.S)) bütün ərəblər üzərində hakimiyyət qurana qədər dünya (yox olub) getməz".**

**Dünya həyatından yalnız bir gün qalsa belə, MƏNİM ƏHLİ-BEYTİMDƏN ADI ADIMA UYĞUN OLAN BİR ADAM (HZ. MEHDİ (Ə.S)) GÖNDƏRƏNƏ QƏDƏR ALLAH O GÜNÜ, ŞÜBHƏSİZ, UZADAR...** (Tirmizi, Ebu Davud, Nesai, Beyhaki ve Ebu Amr Ed-Dâni tahric etmişlerdir)

**53-ATASININ ADI PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN ATASININ ADINA UYĞUNDUR**

**Onun (hz. Mehdi (ə.s)-ın) adı adıma, ATASININ ADI DA ATAMIN ADINA UYĞUN OLACAQ...** (Kıyamet Alametleri, Genişletilmiş 9-cu nəşr, səh.159-160)

**54-PEYĞƏMBƏRİMİZ (S.Ə.V), BƏNİ-ADNANİDİR, YƏNİ RƏSULULLAH (S.Ə.V)-İN SOYADI ADNANDIR**

**"İbn İshaqa görə İsmayılın hz. Məhəmməd (s.ə.v)-ə qədər soyu belədir: Nabit, Yəşcub, Yarub, Təyrah, Nahor, Muqavvəm, Udəd, ADNAN. Peyğəmbər (s.ə.v) Adnanda dayanar başqasını xatırlamazdı..."**

Hz. Əli isə Peyğəmbərimiz (s.ə.v)-ə "MUSTAFA ADNAN" olaraq xitab edərdi:

Buna görə iki ad sahibi oldum. Bir də ləqəb ki, daha əvvəl heç eşitməmişdim. Əbu Turab mənə bu ləqəbi vermişdi: " **HADİ OLAN MUSTAFA (S.Ə.V) ADNAN PEYĞƏMBƏRİ..."** (Ercuzə)

## 55-HZ. MEHDİ (Ə.S) İLK ƏVVƏL ADININ YAYILMASINDAN VƏ TANINMASINDAN QAÇAR

Müfəzzəl ibn Ömər deyir ki: **İmam Əbu Abdullah Cəfəri Sadiqin hüzurunda idim və mənimlə birlikdə başqaları da vardı. İmam bizə belə buyurdu: "ƏSLA HZ. MEHDİ (Ə.S)-IN ADINI YAYMAYIN..."** (Şeyh Muhammed ibn. İbrahim-i Numani,

Gaybet-i Numani səh. 174)

## 56. İSLAM ƏXLAQI BÜTÜN DÜNYAYA HAKİM OLANA QƏDƏR HZ. MEHDİ (Ə.S) ADI İLƏ XATIRLANMAYACAQ

Ət-Tövhid əsərindən, Dəqqaq və əl-Vərrəq, Məhəmməd ibn Harun əs-Sufi, Rəvyani vasitəsilə Əbdüləzim əl-Hasənidən rəvayət edir: Əbul-Həsən əs-Salis [əleyhissalam] əl-Qaim [Mehdi əleyhissalam] haqqında belə buyurdu:

**Zühur edib zülm və haqsızlıqla dolub daşan DÜNYANI ƏDALƏTLƏ DOLDURANA QƏDƏR ONU (HZ. MEHDİ (Ə.S)-I), ADI İLƏ XATIRLAMAĞA İCAZƏ YOXDUR.** (Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 51-ci cild, səh.32)

## 57. PEYĞƏMBƏRİMİZ (S.Ə.V) BİR HİKMƏTLƏ HZ. MEHDİ (Ə.S)-IN ADINI AÇIQ SÖYLƏMƏMİŞDİR

İkmalüd-Din əsərindən: İbn İdris, atası, Əyyub ibn Nuh, Məhəmməd ibn Sinan, Səfvan ibn Mihrandan rəvayət edir: Cəfər Sadiq ibn Məhəmməd buyurdu ki: **"Əl-Mehdi mənim övladımdır. Onu ADI İLƏ XATIRLAMANIZA İCAZƏ VERİLMƏMİŞDİR. (**Hadisin benzeri ed-Dakkâk, el-Esedî, Sehl ibn. Mahbûb, Abdülaziz el-Abdî, İbn Ebû Ya'fur ve Ebû Abdullah [Cafer Sadık] senediyle İkmâlü'dDin eserinde zikredilmiştir.) (Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 51-ci cild, səh.32)

## 58-HZ. MEHDİ (Ə.S)-IN BİR ADI DA "ASLAN" DIR

**Məvvarənnəhrdən bir şəxs (hz. Mehdi (ə.s)) çıxar, ONA ƏL-HƏRİS İBN-UL HƏRRAS** deyilir.** (Ebu Davud, Mehdi 1, (2452)) Ravi: Hz. Hilal İbnu Amr (ra) (EtTac, Ali Nâsıf el-Hüseynî, 5-ci cild, səh. 617) (Sünen-i Ebu Davud Terceme ve Şerhi, Şamil Yayınevi: 14/410)

(** Həris aslan deməkdir. O şəxsin adı ilə eyni mənadadır. Buna görə də hədis kinayəli olaraq o şəxsdən bəhs edir)

**HZ. MEHDİ (Ə.S)-IN BİR ADI DA "ASLAN"DIR.** (Ebu Davud, Mehdi 1, (2452))

## 60-HZ. MEHDİ (Ə.S)-IN ADI PEYĞƏMBƏRLƏRƏ GƏLƏN MÜQƏDDƏS KİTABLARDA KEÇƏR

Nuaym buyurdu ki: **"MƏN MEHDİNİ PEYĞƏMBƏRLƏRİN SƏHİFƏLƏRİNDƏ BELƏ TAPARAM: "Mehdinin əməlində nə zülm, nə də eyib yoxdur".** (Kitab-ül Burhan Fi

Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 21)

**PEYĞƏMBƏRLƏRƏ DAİR OLAN KİTABLARDA, "Mehdinin işi zülm və pislik deyil" şəklində işarə edilmişdir.** (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il

Muntazar, səh.49)

## 61-HƏM ADI, HƏM DƏ LƏQƏBİ İLƏ TANINACAQ

Müfəddil dedi: **"Ey Mövlam! Hz. Mehdi (ə.s)-ın zühuru necədir?" (Sadiq) dedi: "Ey Müfəddill! ORTAYA ÇIXMAQ ÜÇÜN ŞÜBHƏLİ ZÜHUR EDƏR, ADI YAYILAR, ƏMRİ BİLİNƏR, ADI İLƏ VƏ LƏQƏBİ İLƏ XATIRLANAR, nəsəbi açıqlanar, qəbul edən və etməyən, təhqiq edib inkar edənlərin dilinə düşər ki, bəhs edilən isbatlara uyğun gəlsin və ona olan dəlillərimiz isbat edilsin, SOYUNU, ADINI VƏ LƏQƏBİNİ İFADƏ ETDİK Kİ, İNSANLAR ADINI, SOYUNU VƏ LƏQƏBİNİ BİLMİRİK DEMƏSİNLƏR..."** (Bihar-ül Envar, 53-cü cild)

## 62. HZ. MEHDİ (Ə.S)-IN ''ƏL-QAİM'' VƏ "ƏL-MEHDİ" OLARAQ ADLANDIRILMASININ HİKMƏTİ

Şeyx Tusinin Qaybət əsərindən: Fəzl, Musa ibn Sədan və Abdullah ibn Qasım əl-Hazrəmi vasitəsilə Əbu Səid əl-Xorasanidən rəvayət edir: Əbu Abdullahdan [Cəfər Sadiq] soruşdum:

"Əl-Mehdi və əl-Qaim eyni adamdırmı?"

—"Bəli!" dedi.

"Nə üçün əl-Mehdi olaraq adlandırılar?" —dedim.

—Buyurdu ki:

**"ÇÜNKİ ÖZÜNƏ BÜTÜN GİZLİ ŞEYLƏR GÖSTƏRİLMİŞDİR. ƏL-QAİM OLARAQ ADLANDIRILMASI DA ÖLDÜYÜ DEYİLDİKDƏN (YƏNİ ÇIXIŞINDAN ÜMİD KƏSİLDİKDƏN, ÇIXMAYACAĞI İDDİA EDİLDİKDƏN) SONRA BÖYÜK BİR ƏMRLƏ QİYAM EDƏCƏYİ ÜÇÜNDÜR".** (Meclisî, Bihârü'lEnvâr, Beyrut, 1404, 51-ci cild, səh.30)

# HZ. MEHDİ (Ə.S)-IN FİZİKİ XÜSUSİYYƏTLƏRİ

**ÜMUMİ GÖRÜNÜŞÜ**

**63-GÖZƏL SİMALIDIR**

Hz. İmam Hüseynin belə buyurduğu rəvayət olunmuşdur: **"... Çünki o (HZ. MEHDİ (Ə.S)) XALQA GÖZƏL SİMALI BİRİ OLARAQ GƏLƏCƏKDİR..."** (Ikd-üd Dürer, səh. 41)

Humran ibn Ayan deyir ki: İmam Məhəmməd Baqirə : **"... (HZ. MEHDİ (Ə.S)) ÜZÜ GÖZƏLLƏRİN ÖVLADIDIR. (Yəni üzü gözəldir)...".** (Şeyh Muhammed

Ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 252-253)

**64- PEYĞƏMBƏRLƏR KİMİ ƏZƏMƏTLİDİR**

Abdullah ibn Zamrə, İbn-i Matı-i Himyəri (Kab-ul Əhbar)-dan nəql edərək, belə dedi: **"... Qiyam edəcək (Qaim) olan hz. Mehdi (ə.s), .... ALLAH PEYĞƏMBƏRLƏRƏ VERDİYİ (ƏZƏMƏTİ) ONA DA VERƏCƏK..."** (Şeyh Muhammed ibn İbrahim-i

Numani, Gaybet-i Numani səh. 169)

**65-GÖRÜNÜŞ CƏHƏTDƏN HZ. İSA (Ə.S)-A BƏNZƏYƏR**

Abdullah ibn Zamrə, İbni Matı-i Himyəri (Kab-ul Əhbar)-dan nəql edərək dedi: **"... Qiyam edəcək (Qaim) olan hz. Mehdi (ə.s), ...Xeyirdə, GÖRÜNÜŞDƏ VƏ ƏXLAQDA ƏN ÇOX HZ. İSA (Ə.S)-A BƏNZƏYƏN ODUR. Allah peyğəmbərlərə verdiyi (əzəməti) ona da verəcək..."** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 169)

**66-ÜZÜ NURLUDUR**

**Üzü parlayan ULDUZ KİMİ NURLUDUR. (**El-Kavlu'l Muhtasar Fi Alamatil

Mehdiyy-il Muntazar, 33 Kitab-ül Burhan Fi Alamatil-il Mehdiyy-il Ahir Zaman,

səh.22)

**GÖZƏL ÜZLÜDÜR. ÜZÜNÜN NURLARI ONA ƏZƏMƏT VERƏR.**

(Mer’iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi’si “Feraidu Fevaidi’l Fikr Fi’l İmam El-Mehdi El-Muntazar”)

**67-ÇÖHRƏSİ HÜZUR VERİR.**

**(Hz. Mehdi (ə.s)-ın) GÖZƏLLİYİ TƏMİZ ÜZÜNDƏN YÜKSƏLƏR, SƏHƏR MƏLTƏMİ HÜZUR VERƏN ÇÖHRƏSİNDƏN YAYILAR.** (Minanur Rəhman, 2/237)

**68-ÜZÜ GÖRKƏMLİDİR**

Rəsullulah (s.ə.v) buyurdu: **"… Üzü iffət nuru ilə və görkəmlə doludur. Görkəmli lider görünüşü vardır…"** (İmam Mehdi Hakkında Sorular ve Cevaplar, Seyyid Hüseyin Hüseyni)

**69. HZ. MEHDİ (Ə.S)-IN HEYRANLIQ YARADAN BİR CAZİBƏDARLIĞA SAHİB OLMASI**

Əbdülvahid ibn Abdullah, Əhməd ibn Məhəmməd ibn Rabah əz-Zühri, Əhməd ibn Əli əl-Himəyri, Həsən ibn Əyyub, Əbdülkərim ibn Əmr əl-Əmr əl-Həsəmi, İshaq ibn Cərir və Hucr ibn Zaidə vasitəsilə Humran ibn Ayandan rəvayət edir: Əbu Cəfər [Məhəmməd Baqir]-dən soruşdum:

"Əl-Qaim [Mehdi əleyhissalam] sənsənmi?

"Mən Rəsulullah (s.ə.v)-in övladı və qanından bir kəsəm. Allah istədiyini edəndir"—deyə buyurdu.

Sualımı təkrarlayınca belə dedi:

**"Hara çatmaq istədiyini bilirəm. Sənin sahibin, geniş qarınlıdır VƏ HEYRANLIQ YARADAN BİR CAZİBƏDARLIĞA MALİKDİR".** (Muhammed ibn İbrahim Nu'mânî, Kitâbü'l-Gaybe (Tahran, 1397), səh.216. [İSAM demirbaş no: 016351])

**70-YAŞI ARTDIQCA DA GÖRÜNÜŞÜ GƏNCLƏR KİMİ OLACAQ**

**...Vəd edilmiş qaim (hz. Mehdi (ə.s)) ORTA YAŞLARDA, AMMA BİR GƏNC SURƏTİNDƏ ZÜHUR EDƏCƏK.** (Bihar-ul Envar, 52-ci cild, səh. 32; İsbat-ul Hudat, 6-cı cild, səh. 19)

**Uzunömürlü və GƏNC ÜZLÜDÜR. Onu görən 40 yaşında deyə düşünər və bir işarəsi də ALLAHIN ƏMRİ GƏLƏNƏ QƏDƏR YAŞLANMAYACAĞIDIR.** (Kemalüddin, səh. 625 ve Müntehabül Ezhar, 2-ci cild, səh. 284)

**Və onun (HZ. MEHDİ (Ə.S)-IN) İŞARƏLƏRİNDƏN BİRİ DƏ, GÜNLƏRİN VƏ GECƏLƏRİN KEÇMƏSİ İLƏ YAŞLANMAMASIDIR.** (Muntekab-ül Esar, Lütfullah Gülpaygani, səh. 285)

**71-GÖRÜNÜŞÜ İLƏ İSRAİLOĞULLARINA BƏNZƏYƏR**

Abdullah ibn Harris belə deyir: **"Hz. Mehdi (ə.s) qırx yaşında ikən qiyam edəcək və (görünüş baxımından) İSRAİLOĞULLARINA BƏNZƏYƏCƏK"**. (Kitab-ul Havi li'l Feteva, 2-ci cild, səh. 135)

**72-BƏNİ-İSRAİL VÜCUDLUDUR**

**Hz. Mehdi (ə.s)-ın boyu-buxunu ELƏ BİL BƏNİ-İSRAİLLİLƏRDƏNDİR .**

(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh.36, 29)

**73-ORTA BOYLUDUR**

**Mehdi ORTA BOYLU olacaq.** (Kıyamet Alametleri El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh.41)

**74-UZUN ÖMÜRLÜDÜR**

**UZUN ÖMÜRLÜ və gənc üzlüdür.... (Kemalüddin, səh. 625 ve Müntehabül Ezhar, 2-ci cild, səh. 284)**

**75. HZ. NUH KİMİ UZUN YAŞAYACAQ**

**İmam Zeynəl Abidin deyir ki: "İMAM MEHDİDƏ NUHUN MİZACI (ƏLAMƏTİ, oxşarlığı) VARDIR VƏ BU, HƏYATININ UZUN OLMASIDIR".** (Kamaluddin, səh. 322)

**76-DƏRİSİ PARLAQDIR**

**Hz. Mehdi (ə.s)-ın... DƏRİSİ ÇOX PARLAQDIR.** (Bihar-ül Envar, 13-cü cild, səh. 243) (Farscadan tərcümə)

**Hz. Mehdi (ə.s)-ın üzü QIZIL-BÜRÜNC BİR METAL KİMİ PARLAYAR. ELƏ PARLAQ Kİ, az qala dərisinin əsl rəngi görünməyəcək.** (Bihar-ül Envar, 13-cü cild, səh. 263)

**77-DƏRİSİNİN RƏNGİ, QIRMIZIYLA QARIŞIQ AĞDIR**

**Rəngi ƏRƏB RƏNGİDİR.** (Kitab-ül Burhan Fi Elamət-İl Mehdiyy-il Ahir Zaman, səh. 24)

Ərəb irqinin dəri rəngi qırmızıyla qarışıq ağdır. Hz. Peyğəmbər (s.ə.v)-in dəri rəngi də qırmızıya çalan ağ rəng idi. Lakin bədəninin görünən qisimləri günəş, külək kimi amillərlə əsmərə çalırdı. Rəvayətlərdən hz. Mehdi (ə.s)-ın dəri rənginin də Peyğəmbər (s.ə.v)-lə eyni rəngdə olacağı aydın olur:

**Əsmər deyilməklə məqsəd dümağ olmayıb az qırmızılığı isbat etməkdir. Çünki Rəsulu- Əkrəm həzrətlərinin rəngi, hamamdan hələ yeni çıxmış və ona qırmızılıq gəlmiş ağ insanın o andakı rəngi kimidir. Yəni Rəsulu-Əkrəm həzrətlərinin mübarək rəngi, QIRMIZI İLƏ QARIŞIQ NURANİ AĞ İDİ.** (İbni Kesir, Semail-ür -Resul, səh. 28)

**Rəsulumuz (s.ə.v) ağ ilə çəhrayının qarışıq rəngində idi...** (Hz. Ali (ra), G.Ahmed Ziyaüddin, Ramuz El Hadis, 2-ci cild, səh. 519/4)

## 78-DƏRİSİNİN RƏNGİ BƏZƏN AÇIQ, BƏZƏN DAHA TÜNDDÜR

(Hz. Mehdi (ə.s)-ın)... **ÜZÜ BƏZƏN AÇIQ RƏNG VƏ QIZIL KİMİ PARLAQ, BƏZƏN DAHA TÜND RƏNG VƏ AY KİMİ PARLAQDIR.** (Bihar-ül Ənvar, 13-cü cild)

## BURNUNUN GÖZƏLLİYİ

## 79-BURNU ÇOX MÜNTƏZƏMDİR

**O, açıq alınlı, KİÇİK BURUNLUDUR...**

(Muhammed İbn Resul Al-Hüseyni El Berzenci, "Kıyamet Alametleri" Pamuk Yayınları, Trc. Naim Erdoğan, səh. 163)

İmam Ahmə Əbu Yala, Səmuyəh, Ziya-ül-Makdisi əl-Muhtarədə Əbu Səid (r.ə)-dən rəvayət etdiklərinə görə, həzrəti Peyğəmbər (s.ə.v) belə buyurmuşdur: **"Əhli -beytimdən saçı düz, alnı açıq, BURNU MÜNTƏZƏM BİR KƏSDİR (HZ. MEHDİ (Ə.S)) ..." (**Muhammed ibn Salih ed-Dimaşki, Peygamber (sav) Külliyatı, səh. 202)

## 80-İNCƏ BURUNLUDUR

**Onun alnı geniş, BURNU İSƏ İNCƏ OLACAQ.**

(Tırmizi, Büyük Hadis Külliyatı, Rudani 5-cild, səh. 365)

## 81-BURNU KİÇİKDİR

**(Hz. Mehdi (ə.s)-ın) BURNU KİÇİKDİR...** (Bihar-ül Envar, 13-cü cild.)

**82- BURNUNUN ORTA HİSSƏSİNDƏ, MÜƏYYƏN NAMƏLUM ÇOX KİÇİK BİR ÇIXINTI VARDIR**

**(Hz. Mehdi (ə.s)-ın) burnu kiçikdir və tam KÖRPÜ HİSSƏSİNDƏ ÇOX KİÇİK BİR ÇIXINTISI (DİKLİK) VARDIR.** (Bihar-ül Envar, 13-cü cild)

**ALNININ XÜSUSİYYƏTLƏRİ**

**83-ALNI PARLAQDIR**

Əbu Səid əl-Hudri, Allahın Elçisi (s.ə.v)-dən nəql edir, **"Şübhəsiz Uca Allah mənim soyumdan və Əhli-Beytimdən... PARLAQ ALINLI BİRİNİ (hz. Mehdi (ə.s)-ı) çıxardacaq**..." (İkdüd Dürer fi Ekber-i Muntazar, səh. 101)

**84- ALNI GENİŞDİR**

**(Hz. Mehdi (ə.s)-ın)... ALNI GENİŞDİR...** (Bihar-ül Envar, 13-cü cild )

**ONUN ALNI GENİŞ, burnu isə incə olacaq.**

(Tırmizi, Büyük Hadis Külliyatı, Rudani, 5-ci cild, səh. 365)

**85-AÇIQ ALINLIDIR**

**Mehdi məndəndir... AÇIQ ALINLIDIR.** (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 21)

**O, AÇIQ ALINLIDIR.** (Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

**86-ALNINDA BİR İZ (YARA İZİ) VARDIR**

Humran ibn Ayan deyir ki: İmam Məhəmməd Baqirə belə ərz etdim: **"... ALNINDA İZ, üzündə isə xal vardır".**

(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 252)

**87-ALNINDA YÜNGÜL BİR BATIQ VARDIR**

**(Hz. Mehdi (ə.s)-ın) ... alnı genişdir və ALNINDA YÜNGÜL BATIQ VARDIR....** (Bihar-ül Envar, 13-cü cild)

**YANAĞINDAKI XALIN XÜSUSİYYƏTLƏRİ**

**88-YANAĞINDA XAL VARDIR**

**Üzündə BİR XAL olacaq.** (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 41)

**YANAĞINDA, İNCİNİ XATIRLADAN, BİR ULDUZ KİMİ ÜZÜNÜ İŞIQLANDIRAN BİR İŞARƏ VARDIR.** (Muhammed B. Resul Al-Hüseyni El Berzenci, "Kıyamet Alametleri" Pamuk Yayınları, Trc: Naim Erdoğan)

**89-BU XAL, AÇIQ RƏNGLİ VƏ PARLAQDIR**

**Hz. Mehdi (ə.s)-ın... YANAĞINDAKI XALI ...ULDUZ KİMİ PARLAQDIR.** (Bihar-ül Envar,13-cü cild, səhifə: 243 (Farsca tərcümə))

**90-XALI HZ. MUSA (Ə.S)-IN YANAĞINDAKI XAL KİMİDİR**

**Hz. Mehdi (ə.s)-ın.. YANAĞINDAKI XALI HZ. MUSA (Ə.S)-DA OLDUĞU KİMİ xaricə çıxıq və ulduz kimi parlaqdır...** (Bihar-ül Envar,13-cü cild, səh. 243 (Farsca tərcümə))

**91-YANAĞINDAKI XAL XARİCƏ ÇIXINTILIDIR**

**Hz. Mehdi (ə.s)-ın.. YANAĞINDAKI XALI XARİCƏ ÇIXINTILIDIR....** (Bihar-ül Envar,13-cü cild, səh. 243 (Farsca tərcümə))

**GÖZLƏRİNİN VƏ QAŞLARININ QURULUŞU**

**92- QIYIQ GÖZLÜDÜR**

Humran ibn Ayan deyir ki: İmam Məhəmməd Baqirə belə ərz etdim: **"... Mehdinin GÖZLƏRİ QIYIQDIR..."** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani Səh. 252)

**93-YAŞIL GÖZLÜDÜR**

**O (HZ. MEHDİ (Ə.S)) YAŞIL GÖZLÜ (ƏKHALUL AYNEYNİ) ... bir gəncdir...** (Mehdi ile ilgili gelen haberler, (Nurul Ebsar) Ehl-i Beyt & Oniki İmam, Kutuplar ve Mezhep İmamlarının Menkıbeleri Şeblenci (1250),Tercüme: Saim Güngör, (Pamuk Yayıncılık, Nisan 2004, cild: 628 77 93) səh. 588-589)

**"O (HZ. MEHDİ) YAŞIL GÖZLÜ (AYNUL HADRA), hilal qaşlı, dik burunlu, sıx saqqallı, sağ yanağına doğru saqqalsız bir gəncdir".**

(Mehdi ile ilgili gelen haberler, (Nurul Ebsar) Ehl-i Beyt & Oniki İmam, Kutuplar ve Mezhep İmamlarının Menkıbeleri Şeblenci (1250), Tercüme: Saim Güngör, (Pamuk Yayıncılık Nisan 2004 cild: 628, 77, 93)

**94-QAŞLARI QÖVSÜDÜR**

**Qaşı QÖVSÜDÜR.** (Muhammed B. Resul Al-Hüseyni El Berzenci, "Kıyamet Alametleri" Pamuk Yayınları, Trc. Naim Erdoğan, səh. 163)

**"O (HZ. MEHDİ) yaşıl gözlü (aynul hadra), AYPARA QAŞLI, dik burunlu, sıx saqqallı, sağ yanağına doğru saqqalsız bir gəncdir".**

(Mehdi ile ilgili gelen haberler, (Nurul Ebsar) Ehl-i Beyt & Oniki İmam, Kutuplar ve Mezhep İmamlarının Menkıbeleri Şeblenci (1250), Tercüme: Saim Güngör, (Pamuk Yayıncılık Nisan 2004 cild: 628, 77, 93)

**95-İKİ QAŞININ ARASINDA TƏK XƏTT KİMİ KİÇİK BİR ÇUXUR VARDIR**

**Hz. Mehdi (ə.s)-ın ... İKİ QAŞ ARASINDA KİÇİK BİR ÇUXUR VARDIR...** (Bihar-ül Envar, 13-cü cild, səh. 243 (Farsca tərcümə))

**SAÇININ VƏ SAQQALININ GÖZƏL XÜSUSİYYƏTLƏRİ**

**96-SAÇI GURDUR**

**(HZ. MEHDİ (Ə.S)-IN) SAÇI SIXDIR...** (Bihar-ül Envar, 13-cü cild)

**97-SAÇI QARADIR**

**"QARA SAÇLIDIR...".** (Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

**98-SAÇLARI GÖZƏLLİYİ İLƏ DİQQƏT ÇƏKƏR**

**<u>“O (HZ. MEHDİ (Ə.S)) ... GÖZƏL SAÇLIDIR...”</u>**

(Ahbar-ud Duvel, səh. 117-Hicri 1382 çapı)

**<u>“... O (HZ. MEHDİ (Ə.S))... GÖZƏL SAÇLI...</u> bir gəncdir”.**

(Simt-ul Nucum-il Avali, 4-cü cild, səh. 138) (Hz. Mehdi Aleyhisselam, Abdullah Turan, Al-i Taha, səh. 157)

**99-SAÇLARI QULAĞININ ÜSTÜNDƏ QIVRILAR**

Rəsullulah (s.ə.v) buyurdu: **"...Saçları qulağının üzərində qıvrılar**..." (İmam Mehdi Hakkında Sorular ve Cevaplar, Seyyid Hüseyin Hüseyni)

**100-SAQQALI SIXDIR**

**“Saqqalı <u>SIXDIR</u>”.** (Kiyamet Alametleri, səh. 163)

**“Saqqalı <u>BOL VƏ SIX</u> olacaq”.**

(El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh.23)

**101-SAQQALI QARADIR**

**<u>“QARA SAQQALLIDIR.”</u>**

(Mer'iy ibn. Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf elMakdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

**102-SAQQALI CƏZM EDİLMİŞ, YƏNİ DÜZƏLDİLMİŞDİR**

**... (Hz. Mehdi (ə.s)) <u>...MƏCZUM (CƏZM EDİLMİŞ, YƏNİ YANLARINA NƏZƏRƏN DAHA UZUN, AMMA DÜZƏLDİLMİŞ SAQQAL ŞƏKLİNƏ SAHİBDİR),...</u> Bir adam ki, ona Şuayb ibn Saleh deyilər. ...** (Fetava-i Hadîsiyye, Ebü'l-Abbas Şehabeddin Ahmed İbn Hacer el-Heytemi-41)

Bu hədisdə Peyğəmbərimiz (s.ə.v), hz. Mehdi (ə.s)-a Şuayb ibn Saleh deyə xitab edir. Hədisi izah edən böyük İslam alimi Həytəmi həzrətləri, hz. Mehdi (ə.s) üçün istifadə edilən Şuayb sözünün şöbəcik mənasında istifadə edildiyini ifadə etmiş, bu ifadə ilə hz. Mehdi (ə.s)-ın çoxlu sayda inkarçılara qarşı fikri mübarizə aparan dost qrupunun sayının son

dərəcə az olduğunun ifadə edildiyini söyləmişdir. Yenə İbn Saleh ifadəsi ilə də, hz. Mehdi (ə.s)-ın atasının da saleh bir insan olduğuna diqqət çəkildiyini açıqlamışdır.

**103-SAQQALI YANLARDA DAHA AZDIR**

**... (Hz. Mehdi (ə.s))..., KƏVSƏCDİR (SAQQALI YANLARDA AZDIR)...** (Fetava-i Hadîsiyye, Ebü'l-Abbas Şehabeddin Ahmed İbn Hacer el-Heytemi, səh.41)

**"O ... (hz. Mehdi (ə.s))... SAĞ YANAĞINA YAXIN SAQQALSIZ BİR GƏNCDİR".** (Mehdi ile ilgili gelen haberler, (Nurul Ebsar) Ehl-i Beyt & Oniki İmam, Kutuplar ve

Mezhep İmamlarının Menkıbeleri Şeblenci (1250),Tercüme: Saim Güngör, (Pamuk Yayıncılık, Nisan 2004, cild: 628, 77, 93) səh. 588-589)

Bir çox hədisdə hz. Mehdi (ə.s)-ın saqqallı olacağını xəbər verən Peyğəmbərimiz (s.ə.v) bu hədisində də bu saqqalın şəkli ilə bağlı xırdalıqları bildirmişdir. Hz. Mehdi (ə.s)-ın saqqalının incə quruluşlu olduğunu, şəkil olaraq da yanlardan az, yəni incə olaraq enən, aşağı qismi isə uzun olacaq bir şəklə sahib olduğunu ifadə etmişdir.

**104-HZ. MEHDİ (Ə.S)-IN SAQQALI İNCƏ TÜKLÜ, YANLARDA AZ, AŞAĞI TƏRƏFİ İSƏ UZUN OLACAQ**

**... (Hz. Mehdi (ə.s)) orta boylu, əsmər, MƏCZUM (CƏZM EDİLMİŞ, YƏNİ YANLARINA NƏZƏRƏN DAHA UZUN, AMMA DÜZƏLDİLMİŞ SAQQAL ŞƏKLİNƏ SAHİB), KƏVSƏCDİR (SAQQALI YANLARDA AZ)... Bir şəxsdir ki, ona Şuayb ibn saleh deyilər...** (Fetava-i Hadîsiyye, Ebü'l-Abbas Şehabeddin Ahmed İbn Hacer el-Heytemi-41)

Hədisdəki "məczum" yəni "cəzm edilmiş, yanlarına nəzərən daha uzun, amma düzəldilmiş saqqal" ifadəsi ilə hz. Mehdi (ə.s)-ın saqqalının şəkli, həmçinin kəvsəc ifadəsi ilə də saqqalının həm yanlardan seyrək olduğu, həm də incə tüklü bir quruluşa sahib olduğu aydın olur. Eyni zamanda hədisdəki kəvsəc ifadəsi ilə hz. Mehdi (ə.s)-ın saqqalının gur saqqal deyil, eynilə Peyğəmbərimiz (s.ə.v)-də olduğu kimi seyrək saqqal şəklində olduğu da aydın olur.

**BÜTÜN BƏDƏNİ GENİŞDİR**

**105-GENİŞ VÜCUDLUDUR**

**"İRİ GÖVDƏLİDİR..."** (Ukayli "En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali b. Ebi Talib Ale't-Temam ve'l kamal")

**O (hz. Mehdi (ə.s)), alnı açıqdır... <u>QARNI BÖYÜKDÜR,</u> iki uyluq (buddan dizə qədər olan nahiyə) arası açıqdır...** (Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar, səh. 13)

**<u>"İKİ BUD ARASI AÇIQDIR..."</u>**

(Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf elMakdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

**106-ÇİYİNLƏRİ GENİŞDİR**

**(Hz. Mehdi (ə.s)-ın) <u>KÖRPÜ SÜMÜYÜ MÜLAYİMDİR, İRİDİR... İKİ ÇİYNİNİN ARASI GENİŞDİR.</u>** (. (Bihar, Cilt 13, Sayfa 8,9,10,11,109,110,112,115,118,119,125,167; Mucem-i Melahim-i Fiten Cild: 1 səhifə: 203-214 ve cild:3 səhifə 76-80)

**107-ÇİYİNLƏRİ HEYBƏTLİDİR**

Rəsullulah (s.ə.v) buyurdu: **"İncə və gözəl bir burnu vardır. Alnı geniş və parlaqdır, çiyinləri bir qaya qədər möhkəmdir..."** (İmam Mehdi Hakkında Sorular ve Cevaplar, Seyid Hüseyin Hüseyni)

**108-BUDLARI GENİŞDİR**

Axırzamanda soyumdan bir adam (hz. Mehdi (ə.s)) çıxacaq, ... Açıq və geniş qarınlı olacaq, <u>BUD SÜMÜKLƏRİ GENİŞDİR...</u> Diqqətə çarpan olacaq... (İmam Mehdi'nin

Hayatı, Allame Bakır Şerif el-Kureyşi)

**109-QARINI GENİŞDİR**

**O (hz. Mehdi (ə.s)) ... <u>QARNI BÖYÜKDÜR,</u> iki bud arası açıqdır...**

(Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar, səh. 13)

**110- BAŞI BÖYÜKDÜR**

**"O (hz. Mehdi (ə.s)) <u>GENİŞ ÜZLÜ</u> bir gəncdir".**

. (Simt-ul Nucum-il Avali, 4-cü cild, səh. 138) (Hz. Mehdi Aleyhisselam, Abdullah Turan, Al-i Taha, səh. 157)

**Hz. Mehdi məndəndir (nəsilimdəndir).** **<u>ALNI GENİŞ VƏ AÇIQDIR.</u>** (İmam Şarani "Ölüm - Kıyamet - Ahiret ve Ahir zaman Alametleri", Bedir Yayınevi, səh. 432-448)

Hədislərdən də aydın olduğu kimi, hz. Mehdi (ə.s)-ın alnı və üzü genişdir, buna görə də başı böyükdür.

**<u>BƏDƏNİNDƏKİ XAL VƏ İZLƏR</u>**

**111-BƏDƏNİNDƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-KİLƏRLƏ EYNİ RƏNGDƏ OLAN İKİ XAL VARDIR**

Əbu Cəfər, İmam Məhəmməd Bəkir həzrətləri cədləri yolu ilə, Əhli-Beytin lideri, həzrətləri, möminlərin əmirinin minbərdən söylədiklərini nəql etmişdir: **"Axırzamanda soyumdan bir adam (hz. Mehdi (ə.s)) çıxacaq,... <u>PEYĞƏMBƏRİN RƏNGİNDƏ İKİ ƏT XALI OLACAQ.</u> O (hz. Mehdi (ə.s)) yüksələcək".** (İmam Mehdi'nin Hayatı, Allame Bakır Şerif el-Kureyşi)

**112- SAĞ AYAĞINDA QARA BİR İZ VARDIR**

**(Mehdi (ə.s)-ın) <u>SAĞ AYAĞINDA QARA BİR İZ VARDIR.</u>** (Şeyh Muhammed ibnİbrahim-i Numani, Gaybet-i Numani, səh. 251)

**113-SAĞ AYAĞINDAKI İZ BƏDƏN RƏNGİNDƏN FƏRQLİDİR**

**(Hz. Mehdi (ə.s)-ın)...sağ ayağında <u>BƏDƏN RƏNGİNDƏN FƏRQLƏNƏN BİR İZ</u> var.** (Mucem-ul Ehadis-i İmam Mehdi cild:4 səh.154 ve Kemal-ud Din cild:2 səh.376 ve Bihar, Cild:52, səh. 322)

**114-SAĞ BUDUNDA BİR XAL VARDIR**

Həzrəti Əli İmam Mehdi (ə.s)-dan bu sözlərlə bəhs edərdi: <u>"... SAĞ BUDUNDA BİR XAL VARDIR."</u> (Yenabi-ül Mevedde, səh. 423)

**115-KÜRƏYİNDƏ BİR XAL VARDIR**

Əbu Basar deyir ki: İmam Məhəmməd Baqir və ya Cəfəri Sadiq belə buyurdu: **"... İKİ KÜRƏK SÜMÜYÜNÜN ARASINDA BİR XAL VARDIR...."**

(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 253)

**116-SOL KÜRƏK SÜMÜYÜNÜN ALT TƏRƏFİNDƏ YARPAQ ŞƏKLİNDƏ BİR XAL VARDIR**

Əbu Basar deyir ki: İmam Məhəmməd Baqir və ya Cəfəri Sadiq belə buyurdu: **"... SOL KÜRƏK SÜMÜYÜNÜN SOL ALT TƏRƏFİNDƏ BİR YARPAQ VARDIR, eynilə mərsin yarpağı kimi".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 253)

**117-ÇİYNİNDƏ PEYĞƏMBƏRLİK MÖHÜRÜ VARDIR**

**Mehdi (ə.s)-ın çiynində PEYĞƏMBƏR ƏFƏNDİMİZ (S.Ə.V)-DƏKİ PEYĞƏMBƏRLİK MÖHÜRÜ olacaq.**

(El-Kavlu Fi Muhtasarr Fi Alamatil Mehdiyy-il Muntazar, səh.41)

**Çiynində PEYĞƏMBƏR (S.Ə.V)-İN NİŞANI vardır.** (Kıyamet Alametleri, səh.163)

**118-ALNINDA İZ VARDIR**

Humran ibn Ayan İmam Məhəmməd Baqirə belə deyir: **"... ALNINDA İZ VARDIR, üzündə isə xal..." (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 252-253)**

**BƏDƏN GÜCÜ**

**119-HEYBƏTLİ BİR ŞƏXSDİR**

**(Hz. Mehdi (ə.s)) HEYBƏTLİ BİR ŞƏXSDİR.** (İkdud dürer)

**Hz. Mehdi (ə.s) sanki BƏNİ-İSRAİLDƏN BİR ŞƏXSDİR. (Rəftarı onlara bənzəyər, yəni HEYBƏTLİ VƏ GÜCLÜDÜR)** (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 23-30)

**120-BƏDƏNİ ÇOX GÜCLÜDÜR**

**...Vəd edilmiş Qaim (hz. Mehdi (ə.s)) O QƏDƏR GÜCLÜDÜR Kİ, YER ÜZÜNÜN ƏN BÖYÜK AĞACINA DA ƏL UZATSA ONU KÖKÜNDƏN SÖKÜB ÇIXARAR..** (Bihar-ul Envar, 52-ci cild, səh. 32; İsbat-ul Hudat, 6-cı cild, səh. 19)

**121-SƏSİ ÇOX GÜCLÜDÜR**

...Vəd edilmiş Qaim (hz. Mehdi (ə.s) O qədər güclüdür ki; "**... DAĞLAR ARASINDA FƏRYAD EDƏCƏK OLSA SƏRT QAYALAR UN KİMİ OLAR. ...**" **(**Bihar-ul Envar,52-ci cild, səh. 32; İsbat-ul Hudat,6-cı cild, səh. 19)

**122-SƏSİ NƏFƏS KƏSİCİDİR**

Rəsullulah (s.ə.v) buyurdu: **"Görkəmli bir lider görünüşü vardır, baxışları fərqlidir, SƏSİ GÜCLÜ VƏ NƏFƏS KƏSİCİDİR".** (İmam Mehdi Hakkında Sorular ve

Cevaplar, Seyid Hüseyin Hüseyni)

**123-SÜMÜK QURULUŞU GƏNCDİR**

**(Hz. Mehdi (ə.s)-ın) KÖRPÜ UCU SÜMÜYÜ MÜLAYİMDİR ...** (Bihar, 13-cü cild, səhifə 8,9,10,11,109,110,112,115,118,119,125,167; Mucem-i Melahim-i Fiten Cild :1

Səhifə:203-214 ve Cild:3. Səhifə 76-80)

**124-BUDLARININ ARASI AÇIQDIR**

**(Hz. Mehdi),... qarnı böyükdür, İKİ BUD ARASI AÇIQDIR...** (Fevaidu Fevaidi'l Fikr Fi'l

İmam El-Mehdi El-Muntazar, səh. 13)

**İKİ BUD ARASI AÇIQDIR...** (Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf elMakdi'si "Fevaidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

**125-DİZ QAPAQLARI ÖNƏ ÇIXIQDIR**

**(HZ. MEHDİ (Ə.S)-IN) İKİ DİZ QAPAĞI DA ÖNƏ ÇIXIQDIR.** (Mucem-ul Ehadis-i

İmam Mehdi Cild:4.səhifə 154 ve Kemal-ud Din Cild:2. Səhifə 376 ve Bihar Cild:52 Səhifə 322)

**126-AYAQ QURULUŞU BÜTÜN BƏDƏNİ KİMİ GENİŞ QURULUŞLU OLACAQ**

**(HƏZRƏTİN) (HZ. MEHDİ (Ə.S)-IN) AYAQLARI GENİŞDİR, İRİ VƏ SAĞ AYAĞINDA BƏDƏN RƏNGİNDƏN FƏRQLƏNƏN BİR İZ VAR.** (Mucem-ul Ehadis-i İmam Mehdi cild:4. Səhifə 154 ve Kemal-ud Din cild:2 səhifə: 376

ve Bihar cild:52. Səhifə 322)

## DİGƏR BƏZİ BƏDƏN XÜSUSİYYƏTLƏRİ

### 127-BAXIŞLARI TƏSİRLİDİR

Rəsullulah (s.ə.v) buyurdu: "Görkəmli bir lider görünüşü vardır, BAXIŞLARI FƏRQLİDİR, səsi güclü və nəfəs kəsicidir". (İmam Mehdi Hakkında Sorular ve

Cevaplar, Seyid Hüseyin Hüseyni)

### 128-HEYRANLIQ YARADAN BİR CAZİBƏDARLIĞA MALİKDİR

Əbdülvahid ibn Abdullah, Əhməd ibn Məhəmməd ibn Rabah əz-Zühri, Əhməd ibn Əli əl-Himəyri, Həsən ibn Əyyub, Əbdülkərim ibn Əmr əl-Əmr əl-Hasamı, İshaq ibn Cərir və Hucr ibn Zaidə vasitəsilə Humran ibn Ayandan rəvayət edir:

Əbu Cəfər [Məhəmməd Baqirə]-dən soruşdum: **"Əl-Qaim [Mehdi əleyhissalam] sənsənmi? "Mən Rəsulullah [s.ə.v]-in övladı və qanından bir kəsəm. Allah istədiyini edəndir" —deyə buyurdu. Məsuliyyəti təkrarlayınca belə dedi: "Hara çatmaq istədiyini bilirəm. Sənin sahibin, geniş qarınlıdır VƏ HEYRANLIQ OYANDIRAN BİR CAZİBƏDARLIĞA MALİKDİR".** (Muhammed ibn İbrahim Nu’mânî, Kitâbü’l-Gaybe (Tahran, 1397),

səh. 216. [İSAM demirbaş no: 016351])

### 129-YANAQLARI DAHA AZ DOLĞUNDUR

Rəsullulah (s.ə.v) buyurdu: **"…YANAQLARI DAHA AZ DOLĞUN GÖRÜNƏR və (yuxusuz qaldığına görə) bəzən solğundur..."** (İmam Mehdi Hakkında Sorular ve

Cevaplar, Seyid Hüseyin Hüseyni)

### 130-DODAQLARI MÜKƏMMƏL GÖZƏLLİKDƏDİR

**Qaşları qövslü və güclüdür. Saçları qulağının üzərində qıvrılar. DODAQLARI MÜKƏMMƏL VƏ GÖZƏLDİR, görünüşü yaxşı və yaraşıqlıdır…** (İmam Mehdi

Hakkında Sorular ve Cevaplar, Seyid Hüseyin Hüseyni)

### 131-DİŞLƏRİ GÖZƏL VƏ PARLAQDIR

**DİŞLƏRİ PARLAQ olacaq**. (Nuaym ibn Hammad, vr. 52a; El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 41)

**... (Hz. Mehdi (ə.s)-ın) ÖN DİŞLƏRİ PARLAQDIR... (**Yenabi-ül Mevedde, səh. 423)

**132-YERİŞİ**

**... Bir xüsusiyyəti də GEDƏRKƏN BUDLARININ AÇIQ VƏ BİR-BİRİNDƏN ARALI OLMASIDIR.** (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 32)

**133-DANIŞARKƏN BƏZƏN DİLİNDƏ AĞIRLIQ MEYDANA GƏLƏR**

**DİLİNDƏ AĞIRLIQ VARDIR.... (İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh.1699, səh.174)**

**...YAVAŞ VƏ AĞIR DANIŞDIĞI ZAMAN sağ əlini sol dizinə vurar... (**İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh.1699, səh.174)

**134-DANIŞIĞINDA NƏYİSƏ VURĞULAMAQ ÜÇÜN SAĞ ƏLİNDƏN İSTİFADƏ EDƏR**

**...Yavaş və ağır danışdığı zaman SAĞ ƏLİNİ SOL DİZİNƏ VURAR...** İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, s.1699, səh.174)

**135- UZUNÖMÜRLÜDÜR**

Əbu Səiddən Həsən ibn Əli belə buyurdu: **"... ONUN (HZ. MEHDİ (Ə.S)-IN) QEYBƏTİNDƏ ALLAH ONUN ÖMRÜNÜ UZADACAQ ... və bu, Allahın hər şeyə Qadir olduğunun bilinməsi üçündür".** (Kemal-ud Din, 1-ci cild, səh. 315)

## HZ. MEHDİ (Ə.S)-IN ÇIXDIĞI DÖVRÜN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

**136-HƏQİQİ MÖMİNLƏR SAYCA ÇOX AZDIR**

***Elə bir zaman gələr ki, insanlar MƏSCİDLƏRİNDƏ TOPLANIB NAMAZ QILARLAR. LAKİN ARALARINDA MÖMİN OLMAZ.*** **.** (Hakim; Son Zamanlarla İlgili Hadisler, səh. 19)

**137-O ZAMANDA FİTNƏLƏR ÇOXALAR**

***Qiyamət yaxınlaşdığı zaman və MÖMİNLƏRİN ÜRƏYİ ÖLÜM, ACLIQ, FİTNƏLƏR, SÜNNƏLƏRİN İTMƏSİ, BİDƏTLƏRİN ORTAYA ÇIXMASI, ƏMRİ BİL MƏRUF VƏ NƏHYİ ANİL MÜNKƏR (YAXŞILIĞI ƏMR EDİB PİSLİKDƏN ÇƏKİNDİRMƏ) İMKANLARININ İTMƏSİ KİMİ SƏBƏBLƏRLƏ ZƏİFLƏDİYİ ZAMAN mənim övladlarımdan hz. Mehdi (ə.s) ilə Cənabı Haqq sünnələri canlandırar..."***

*(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 66)*

***MƏĞRİBDƏ (QƏRBDƏ) QARIŞIQLIQLAR, FİTNƏLƏR VƏ QORXU OLACAQ... FİTNƏLƏR ÇOXALACAQ.***

*(Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, Səh.440)*

**138-İSTİSNASIZ HƏR YERƏ ÇATAN FİTNƏLƏR GÖRÜLƏR**

***HEÇ BİR TƏRƏFİN ONDAN GİZLİ QALMAYACAĞI BİR FİTNƏ ZÜHUR EDƏCƏK... Və bu vəziyyət bir münadinin səmadan səslənərək: "Ey insanlar, əmriniz artıq Mehdidir" deməsinə qədər davam edəcək.*** **(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)**

**139-FİTNƏLƏR SÜRƏTLƏ YAYILAR**

***Heç bir tərəfin ondan gizli qalmayacağı bir fitnə zühur edəcək, bu FİTNƏ QALDIĞI YERDƏN DƏRHAL BAŞQA BİR TƏRƏFƏ YAYILACAQ...***

**(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 21-22)**

**140-FİTNƏLƏR HEÇ DURULMAZ**

*Bu şübhəsiz ki, (BİR-BİRİNİ İZLƏYƏN) BƏZİ FİTNƏLƏR OLACAQ. SONRA TƏKRAR FİTNƏLƏR OLACAQ. SONRA YENƏ FİTNƏLƏR OLACAQ.* **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 375,**

**no. 684)**

**141-İNSANLARI İMANDAN UZAQLAŞDIRAN FİTNƏLƏR OLAR**

***Qiyamətə yaxın qaranlıq gecələrin parçaları kimi qarışıqlıqlar olacaq. BU QARIŞIQLIQLAR İÇİNDƏ ADAM MÖMİN OLARAQ SƏHƏRİ AÇIB KAFİR OLARAQ GECƏLƏYƏCƏK, MÖMİN OLARAQ GECƏLƏYİB KAFİR OLARAQ SƏHƏRİ AÇACAQ.*** **(Kur'an ve Sünnette Kıyamet ve Ahiret, səh. 155)**

***Qiyamət əvvəli QARANLIQ GECƏLƏR KİMİ FİTNƏLƏR VARDIR.*** **(Ramuz-El**

**Ehadis, 121/5)**

**142-İNSANLARIN FİTNƏLƏRDƏN BEZDİYİ BİR DÖVRDƏ ÇIXAR**

Sələmə ibn Züfər belə deyir: ***"...MEHDİ İNSANLARIN PİSLİK CANİLIK VƏ ZÜLMDƏN BEZDİYİ və heç bir qərib onun qədər əziz və sevimli olmadığı bir zamanda qiyam edəcək". (El-Havi, 2-ci cild, səh.159)***

**143-SİSTEMLƏR DƏYİŞƏR, ZALIM REJİMLƏR YIXILAR**

***Zamanın ARXASININ KƏSİLDİYİ (SİSTEMLƏRİN DƏYİŞDİYİ) BİR DÖVRDƏ hz.Mehdi (ə.s) deyilən bir şəxs gələcək...***

***(Kitab-ül Burhan fi Alamet-il Mehdiyyil Ahir Zaman, səh. 14)***

**144-HƏR KƏSİN XİLASKAR İSTƏDİYİ BİR ZAMANDA ÇIXAR**

Cəfər Sadiq belə buyurur: ***"XALQ HƏR YERDƏ (XİLASKAR) AXTARAR. ONDAN BAŞQASINI TAPA BİLMƏYİNCƏ YENƏ ONA (HZ. MEHDİ (Ə.S)-A) DOĞRU QAÇARLAR"*** **(Bihar-ül Envar, 52-ci cild, səh. 326)**

**145-O DÖVRDƏ MÜSƏLMANLARIN MƏNƏVİ LİDERİ YOXDUR**

Əbu Səid, Peyğəmbər (s.ə.v)-in belə buyurduğunu rəvayət edir: ***"Axırzamanda sultanlar tərəfindən ümmətimə şiddətli bir bəla gələcəkdir. Elə bir bəla ki, ondan daha şiddətlisi eşidilməmişdir. Belə ki, geniş yer üzü onlara dar gələcək və zülmlə dolacaq.***

***MÖMİNLƏR BU ZÜLMDƏN XİLAS OLMAQ ÜÇÜN BİR SIĞINACAQ VƏ BİR XİLASKAR TAPA BİLMƏYƏCƏKLƏR..."*** **(El-Beyan, səh. 72, Es-Sevaik-ul Muhrika, səh. 161, Yenabi-ul Mevedde, 2-ci cild, səh. 177)**

***ONUN ÇIXACAĞI İL, İNSANLAR HƏCCƏ BAŞLARINDA BİR ƏMİR (müsəlmanların mənəvi lideri) OLMADAN GEDƏCƏKLƏR...*** **(Muhammed B. Resul Al-Hüseyni El Berzenci, Kıyamet Alametleri, Pamuk Yayınları, səh. 168-169)**

**146-O DÖVRDƏ HARAMLAR HALAL SAYILAR**

***... BUNDAN SONRA BÜTÜN HARAMLARIN HALAL SAYILACAĞI BİR FİTNƏ GƏLƏR.*** **(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 26)**

**147-DÖYÜŞLƏR VƏ ANARXİYA ÇOX OLAR**

***DÜNYA HƏRC-MƏRCLİK İÇİNDƏ QALDIĞINDA, fitnələr zühur etdiyində, YOLLAR KƏSİLDİYİNDƏ, bəziləri bəzilərinə HÜCUM ETDİYİNDƏ...*** **(Kıyamet Ahiret ve Ahirzaman Alametleri, səh. 454)**

"Hərc-mərclik" sözünün lüğətlərdəki qarşılığı "darmadağın, qarmaqarışıq" kimi izah olunur.

**148-İMANA VƏ ƏXLAQA DEYİL, PULA HÖRMƏT EDİLƏR**

***... PULLARINA GÖRƏ ZƏNGİNLƏRİN HÖRMƏT GÖRMƏSİ...*** **... (Kıyamet Alametleri, səh. 146)**

**149-SƏMİMİ İMAN EDƏNLƏRİN SAYI AZALAR**

***İnsanlar üçün elə bir zaman gələcəkdir ki, İslamın tək adı, Quranın isə rəsmi qalacaq. MƏSCİDLƏR XARİCİ GÖRÜNÜŞLƏRİ İLƏ XOŞ, LAKİN İÇLƏRİ HİDAYƏTDƏN MƏHRUM OLACAQ...*** **(Beyhaki) (Kıyamet ve Alametleri, Ömer Öngüt, səh. 54)**

***İNSANLAR MƏSCİDLƏRLƏ BİR-BİRİNƏ QARŞI ÖYÜNMƏDİKCƏ qiyamət qopmaz. (Nesai)***

**150-ALLAHIN AÇIQ ŞƏKİLDƏ İNKAR EDİLMƏSİ (Allahı tənzih edərik)**

***AÇIQ-AŞKAR ALLAH TƏALA İNKAR EDİLƏNƏ QƏDƏR hz. Mehdi (ə.s) gəlməz.*** **(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, s. 27)**

**151-İNSANLAR ALLAHA İMAN ETDİYİ ÜÇÜN TƏZYİQ GÖRƏR**

***Hz. Əlidən nəql edildiyinə görə bir adam ondan hz. Mehdi (ə.s)-ı soruşdu. Hz. Əli isə "O (hz. Mehdi (ə.s)) Axırzamanda çıxacaq. İNSANIN "ALLAH" DEDİYİ ÜÇÜN ÖLÜMƏ MƏHKUM EDİLƏCƏYİ BİR ZAMANDA GƏLƏCƏKDİR" deyə cavab vermişdir.*** **(Sıddık Rasan Han, el-İzan, səh.128)**

**152-QURAN ƏXLAQINI YAŞAYANLAR ÇOX AZ OLAR**

Rəsulullah (s.ə.v) hədisi-şəriflərində buyurur ki: ***"ÜMMƏTİMƏ ELƏ BİR ZAMAN GƏLƏCƏKDİR Kİ, İSLAMIN TƏK ADI, İMANIN RƏSMİ, QURANDAN İSƏ HƏRF VƏ XURAFAT QALACAQ..."*** **(Kıyamet ve Alametleri, Ömer Öngüt, səh. 50)**

**153-DÜNYA DAXİLİNDƏ ZALIM İDARƏÇİLƏR HAKİM OLAR**

Rəsulullah (s.ə.v) belə buyurmuşdur: ***"Ümmətimə elə bir zaman gələcək ki, İDARƏÇİLƏRİ ZALIM, alimləri tamahkar və təqvasız (imansız) olacaq..."*** **(Bihar'ulEnvar, 23-cü cild, səh. 22)**

**154-BİR ÇOX ÖLKƏDƏ ZALIM LİDERLƏRİ DİGƏR ZALIM LİDERLƏR İZLƏYƏR**

Şeyx Tusinin El-Emali kitabında: ***"ƏVVƏLKİNDƏN DAHA PİS OLMAYAN YENİ BİR İL GƏLMƏZ VƏ HƏR GƏLƏN İDARƏÇİ DƏ, ƏVVƏLKİNDƏN PİS OLAR... Bu vəziyyət insanlar fəsad və ədalətsizlik içində təbiətinə qədər və fəsad, haqsızlıq xaricində bir şey bilməyənə qədər davam edəcək".*** **(Kitab-ül Gaybet, [Bihar-ul Envar, 51-ci cild], Ansariyan Yayıncılık, derleyen: Muhammed Bakır elMeclisi, İran-Kum, 2003, səh. 120)**

**155-TİCARƏT HƏYATI ETİBARSIZ OLAR**

Rəsulullah (s.ə.v) belə buyurmuşdur: ***"Ümmətimə elə bir zaman gələcək ki ... TACİRLƏRİ SƏLƏMÇİ, AYIBLARI GİZLƏMƏLƏRİ DƏ YALNIZ ALVERDƏ OLACAQ..."*** **(Bihar'ul-Envar, 23-cü il, səh. 22)**

**156-HARAMLAR AÇIQ ŞƏKİLDƏ İŞLƏNƏN HALA GƏLƏR**

***KÜFR HƏR YANI ZƏBT EDİB HÖKMÜ CƏMİYYƏT İÇİNDƏ AŞKAR İŞLƏNMƏDİKCƏ hz. Mehdi (ə.s) zühur etməz. Bu vaxtda baş verən isə... küfrün zəbtidir. Onun qüvvətidir.*** **(Mektubat-ı Rabbani, 2-259)**

**157-OXUYUB YAZANLAR ÇOXALAR**

***QİYAMƏTİN YAXINLAŞMASINA DOĞRU... OXUCU-YAZAR ÇOXALAR.*** **(Müslim, Ahmed bin Hanbel; Son Zamanlarla İlgili Hadisler, səh. 98; Ramuz-El Ehadis, 1/121)**

**158-BÖYÜK HADİSƏLƏR VƏ HEYRƏTLƏNDİRİCİ HALLAR MEYDANA GƏLƏR**

***Onun zamanında, ÇOXLU HEYRƏTLƏNDİRİCİ HALLAR ZÜHUR EDƏCƏK (meydana gələcəkdir).*** **(Mektubat-ı Rabbani, 2/258)**

**159-ALLAHIN VARLIĞINI İNKAR EDƏN MATERİALİST VƏ DARVİNİST FƏLSƏFƏ YAYILAR**

***BİSMİLLAH HƏRFLƏRİN DƏYƏRİ İTİRDİRİLDİYİ ZAMAN Mehdi (ə.s) zühur edər.*** **(Risalet-ül huruc-ül Mehdi, səh. 29)**

**160-BƏZİ İNSANLARIN ÜZLƏRİNDƏ POZULMA VƏ ÇİRKİNLƏŞMƏ OLAR**

Hz. Aişə (r.ə)-dən: ***"BU ÜMMƏTİN SONUNDA, hasf (yerə batma), MESH (SURƏT DƏYİŞMƏSİ)... olacaq..."*** **(Muhammed İbn Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 111)**

***Axırzamanda yerə batmaq, daş yağma zühur edəcək və İNSAN CİLDİNDƏN ÇIXMA OLACAQDIR.*** **(Hz. Sehl İbni Saad, Ramuz El Ehadis, 2-ci cild, səh. 302/8)**

**161-TƏKAMÜL İLƏ MEYMUNLA ORTAQ ATADAN GƏLDİKLƏRİNƏ İNANAN BƏZİ İNSANLAR, MEYMUN VƏ DONUZ XARAKTERİNDƏ OLACAQLAR**

***Məhəmməd (s.ə.v)-in nəfsi yəd-i qüdrətində olana and içirəm ki, ÜMMƏTİMDƏN BİR CAMAAT...SƏHƏR QALXDIQLARINDA DONUZ VƏ MEYMUN SURƏTİNDƏ QALXACAQLAR...*** **(Hz. Ubade RA) (Kıyamet Alametleri, Râmûz el-Ehàdîs'ten Dersler, 459/2)**

***Nəfsim yeddi qüdrətində olana and içirəm ki, ÜMMƏTİMDƏN BİR QİSİM İNSANLAR... BİR MEYMUN VƏ HINZIR (DONUZ) HALINA DÖNƏCƏKLƏR.***

**Râmûzu'l-Ehadîs, Hadîs no: 5711)**

**162-HƏCC FƏRZİ ALLAHIN RAZILIĞINI QAZANMAQ ÜÇÜN DEYİL, BAŞQA MƏQSƏDLƏR ÜÇÜN EDİLƏN HALA GƏLƏR**

***İnsanlara elə zaman gələr ki, ZƏNGİNLƏR TƏNƏZZÜH (SƏYAHƏT) ÜÇÜN, ORTA SƏVİYYƏLİLƏR TİCARƏT ÜÇÜN, ONLARIN QURRALARI (ALİMLƏRİ) RİYAKARLIQ VƏ***

***NÜMAYİŞ ÜÇÜN, KASIBLAR İSƏ DİLƏNMƏK ÜÇÜN HƏCC EDƏRLƏR.*** *(Ramuz-El Ehedis, 503/8)*

**163-QİYAMLAR ÇOX OLAR**

***... (O sırada) fitnələr, qarışıqlıqlar, QİYAMLAR ÇOX OLAR, İNSANLAR BİR-BİRLƏRİNİ ÖLDÜRƏRLƏR...*** **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri,**

**səh. 482, no. 901; Kitabü'n-Nihaye, İbn-i Kesir, 1/131)**

**164- DÜNYANI QARIŞIQLIQ VƏ QAYĞILAR BÜRÜYƏR**

***DÜNYA HƏRC-MƏRCLİK İÇİNDƏ QALDIĞINDA, FİTNƏLƏR ZÜHUR ETDİYİNDƏ, YOLLAR KƏSİLDİYİNDƏ, BƏZİLƏRİ BƏZİSİNƏ HÜCUM ETDİYİNDƏ, BÖYÜYÜN KİÇİYƏ MƏRHƏMƏT ETMƏDİYİ, BÖYÜYƏ HÖRMƏT OLUNMADIĞI DÖVRDƏ Allah onlardan ədəvətin (düşmənliyin) kökünü kəsərək dələlət (iman və İslamiyyətdən ayrılmaq, azğınlıq) qalalarını fəth edəcək və əvvəlcə mənim diriltdiyim kimi, Axırzamanda dini yüksəkliyə qaldıracaq, əvvəldən zülmlə dolu olan dünyanı ədalətlə dolduran birini (Mehdi) göndərəcək.***

**(Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh.12)**

**165-MƏŞHUR QIRĞINLAR OLAR**

***Hz. Mehdi (ə.s)-dan əvvəl, MƏŞHUR QIRĞINLARIN BAŞ VERƏCƏYİ BÖYÜK BİR FİTNƏ GÖRÜLƏCƏK.***

**(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)**

**166-KASIBLIQ ARTAR**

***"KASIBLAR ÇOXALACAQ".*** **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh.455)**

**167- ACLIQ ARTAR**

***ACLIQ VƏ HƏYAT BAHALIĞI OLDUQCA ÇOX YAYILACAQ.*** **(ÖlümKıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 440)**

**168-İQTİSADİ VƏZİYYƏT PİSLƏŞƏR**

***(Hz. Mehdi (ə.s)-ın zühurundan əvvəl) BAZARIN DURĞUN OLMASI, QAZANCLARIN AZALMASI OLACAQ.*** **(Kıyamet Alametleri, səh. 148)**

*Hər kəsin AZ QAZANCDAN ŞİKAYƏTLƏNMƏSİ, pulları üçün zənginlərin hörmət görməsi olacaq.* (**Kıyamet Alametleri, səh. 146)**

**169-MALIN DƏYƏRİ QALMAYACAQ**

***İnsanlar 1995-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 1997 və ya 1999-cu ildə MÜLKLƏRİ YOX OLACAQ...*** **... (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il**

**Muntazar, səh. 54)**

**170-ALLAHDAN BAŞQA, SAXTA İLAHLAR YARADILAR**

(Allahı tənzih edirik)

***LAT-UZZAYA, YENİDƏN ALLAHDAN BAŞQA İLAH ƏLDƏ EDİLƏRƏK TAPINILMADIQCA qiyamət qopmaz.*** **(Kıyamet Alametleri, səh.281)**

**171-İNSANLARIN BİR-BİRLƏRİNƏ GÜVƏNMƏDİKLƏRİ, SANKİ BİR-BİRİNDƏN ÇƏKİNDİKLƏRİ BİR MÜHİT MEYDANA GƏLƏR.**

***"Ey Allahın Elçisi, Ahlas fitnəsi nədir?". "ÇƏKİNMƏK"-YƏNİ İNSANLAR ARASINDA HƏDDİNDƏN ARTIQ DÜŞMƏNLİKLƏRİN YARANMASINA GÖRƏ BİR-BİRLƏRİNƏ GÜVƏNƏ BİLMƏDİKLƏRİ ÜÇÜN BİR-BİRLƏRİNDƏN ÇƏKİNMƏLƏRİ- və insanların mallarının talan edilməsidir" buyurdu.*** **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman**

**Alametleri, səh. 386, no.714)**

**172-CƏMİYYƏTDƏ BÖYÜK QARIŞIQLIQ VƏ FİTNƏLƏR BAŞ VERƏR**

***...SONRA FİTNƏ DOĞULACAQ VƏ BƏLALAR ENƏCƏK, MİLLƏTÇİLİK TƏƏSSÜBÜ DİRİLƏCƏK (etnik, milliyətçilik fanatikliyi), XALQ DİNİNDƏ YOLUNU İTİRƏCƏK.*** **(Şeyh**

**Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 163)**

**MÜSƏLMANLARIN VƏZİYYƏTİ**

**173-MÜSƏLMANLAR TƏZYİQ GÖRƏR**

***Axırzamanda ümmətimin başına sultanlarından şiddətli bəlalar gələr, belə ki, YERLƏRİ MÜSƏLMANLARA DAR GƏLƏR.*** **(Kitab-ül Burhan fi Alamet-il**

**Mehdiyy-il Ahir Zaman, səh. 12)**

**174-MÜSƏLMANLAR ARASINDA DÖYÜŞLƏR OLAR**

*“Bəli nəfsim əlində olan Allaha and içirəm ki, SİZ O FİTNƏ ZAMANINDA YÜKSƏLİB BİR-BİRİNİZİN BOYUNLARINI BURAN İLANLAR HALINA GƏLƏCƏKSİNİZ” buyurdu.* **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 368, no. 672)**

***İKİ BÖYÜK İSLAM ORDUSU BİR-BİRLƏRİ İLƏ MÜHARİBƏ ETMƏDİKCƏ qiyamət qopmayacaq.*** **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 454,**

**no.831)**

**175-BƏZİ MÜSƏLMANLAR BİR-BİRLƏRİNİ İTTİHAM EDƏR (İNKARÇI ELAN EDƏR), LƏNƏTLƏYƏRLƏR**

Amirə binti Nufəyl İmam Hüseynin belə buyurduğunu deyir: ***"SİZLƏR BİR-BİRİNİZDƏN UZAQ OLDUĞUNUZU SÖYLƏMƏDİKCƏ, BİR-BİRİNİZİN ÜZÜNƏ TÜPÜRMƏDİKCƏ, BİR-BİRİNİZƏ KAFİR DEMƏDİKCƏ VƏ BİR-BİRİNİZƏ LƏNƏT OXUMADIQCA gözlədiyiniz (hz. Mehdi (ə.s)-ın zühuru) baş verməyəcək. Qeyd etdim ki: “Elə isə o zamanda heç bir xeyr yoxdur”. Buyurdu ki: "Xeyirin hamısı o zamandadır. Qaimimiz (HZ. MEHDİ (Ə.S)) QİYAM EDƏCƏK (ZÜHUR EDƏCƏK) VƏ BUNLARIN HAMISINI ORTADAN QALDIRACAQ"*** **(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 240)**

**176-İSLAM DÜNYASININ BİR QİSMİ QURAN ƏXLAQINDAN UZAQLAŞAR**

***Allaha and içirəm ki, məndən sonra ümmətimin içində böhran dövrü olacaq. O dövrdə HƏR KƏS HALALI AXTARMADAN MAL TƏLƏBİNDƏ OLACAQ, QANLAR AXIDILACAQ VƏ ŞEİR QURANA ƏVƏZ TUTULACAQ.*** **(Deylemi; Geleceğin Tarihi I, səh.50)**

**177-BƏZİ İNSANLAR İMANLARINI MÜHAFİZƏ EDƏ BİLMƏYƏCƏKLƏR**

Hz. Ənəs (r.ə) Rəsulullah (s.ə.v) belə buyurduğunu izah edir:

***"Qiyamət qopmamışdan əvvəl gecə qaranlığının parçaları kimi fitnələr olacaq. (O VAXT) ADAM MÖMİN OLARAQ SƏHƏRƏ ÇIXAR, KAFİR OLARAQ AXŞAMA QOVUŞAR. MÖMİN OLARAQ AXŞAMA ÇATAR, KAFİR OLARAQ SƏHƏRƏ QOVUŞAR. BİR ÇOXLARI AZACIQ DÜNYA MÜQABİLİNDƏ DİNLƏRİNİ SATARLAR".*** **(Tirmizi, Fiten 30, (2196))**

**178-ELƏ ÇƏTİN BİR MÜHİT OLAR Kİ, BİR SƏMİMİ MÖMİN ƏLLİ ADAMIN SAVABINI QAZANAR**

Əbu Üməyyə eş-Şabani belə izah edir: ***"...Nə vaxt bir əməl edilən xəsislik, izlənilən bir həva-istək, (dinə, axirətə) seçilən dünyalıq görər, rəy sahiblərinin (sələfi dinləmədən) öz rəylərini bəyəndiklərini müşahidə etsən, o zaman özünə bax. İnsanlarla məşğul olmaqdan əl çək. Çünki (bu mərhələyə gəlincə) arxanızda səbirli günlər var deməkdir. O GÜNLƏR ƏLDƏ KÖZ TUTMAQ KİMİ ÇƏTİNDİR. O GÜNLƏRDƏ, SİZİN QƏDƏR ƏMƏL EDƏ***

***BİLƏN BİR KİMSƏYƏ ƏLLİ ADAMIN XİDMƏTİ VERİLƏCƏK".*** **(Ebu Davud, Melahim 17, (4341); Tirmizî, Tefsir, Mâide, (3060); İbnu Mace, Fiten 21, (401)**

**179-BİR ÇOX İNSAN ALLAHIN VƏ AXİRƏTİN VARLIĞINDAN QAFİLDİR**

***DÜNYA XALQI, YATDIQLARI HALDA İCRA EDİLƏN KARVAN ƏHLİNƏ BƏNZƏR.*** **(Nech-ül Belağa, Hikmetli Sözler, səh. 64)**

**180-QURAN AYƏLƏRİ LAZIMİ QƏDƏR DÜŞÜNÜLMƏZ**

Peyğəmbər (s.ə.v) belə dedi:***"Elm insanlardan alınacaq".***

Ziyad belə dedi: ***"EY ALLAHIN ELÇİSİ, BİZ QURANI OXUDUQ VƏ OXUYURUQ, XANIMLARIMIZA VƏ UŞAQLARIMIZA DA OXUDURUQ. BU ELM BİZDƏN NECƏ ALINACAQ?" PEYĞƏMBƏR BELƏ BUYURDU: "YƏHUDİLƏRİN TÖVRATI VƏ XRİSTİANLARIN İNCİLİ HAQQINDA MƏLUMATIN YOXDURMU? ONLAR O QƏDƏR TÖVRAT VƏ İNCİL OXUDULAR, BƏS, ONLARDA BUNDAN BİR ŞEY QALDIMI?"*** **(Ölüm Kıyamet ve Diriliş, səh. 483)**

**181-BƏZİ MÜSƏLMANLAR, MÜSƏLMAN OLMAYANLARA DİQQƏT EDƏR**

***(Axırzamanda) SİZDƏN ƏVVƏLKİ MİLLƏTLƏRİ QARIŞ-QARIŞ, ARŞIN-ARŞIN İZLƏYƏCƏKSİNİZ, HƏTTA ONLAR KƏRTƏNKƏLƏ DƏLİYİNƏ GİRSƏLƏR, SİZ DƏ ARXALARINCA GİRƏCƏKSİNİZ.*** **(Ölüm Kıyamet ve Diriliş, səh. 470)**

**182-İSLAM ƏXLAQINDAN UZAQ BİR HƏYATIN TƏBLİĞATINI EDƏN, İNSANLARI ƏXLAQDAN KƏNAR BİR HƏYATA TƏŞVİQ EDƏN KƏSLƏR ORTAYA ÇIXAR**

***"O DÖVRDƏ XALQI CƏHƏNNƏM QAPILARINA ÇAĞIRAN BƏZİ DƏVƏTÇİLƏR OLACAQ. HƏR KİM O TƏBLİĞATÇILARIN DƏVƏTİNƏ RAZILIQ VERSƏ, ONU CƏHƏNNƏMƏ ATACAQLAR". "Ya Rəsulullah, o dəvətçilər zümrəsinin xüsusiyyətlərini bizə bəyan edin". "Yaxşı, onlar bizim millətimizdən olub bizim dilimizdə danışan bir zümrədir" —buyurdu.*** **Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 382, no. 698)**

**183-BƏZİ DİN ADAMLARININ BELƏ ƏXLAQI POZULAR**

***AXIRZAMANDA QURD OXUCULAR OLACAQ. KİM O ZAMANA YETİŞSƏ, ŞƏRLƏRİNDƏN ALLAHA SIĞINSIN. Onlar çox çirkli insanlardır. Riyakarlıq (ikiüzlülük) hakim olacaq, riya (ikiüzlülük) və göstərişdən utanılmayacaq.*** **(Ölüm Kıyamet ve Diriliş, səh. 470)**

**184- ƏKSƏRİYYƏT NAMAZ QILMAZ, İSLAMDA ŞƏRABIN HARAM BUYRULDUĞUNU BİLMƏZ**

Hz. Huzəyfənin izah etdiyinə görə Rəsulullah belə buyurmuşdur:

***"Ey Huzəyfə! O gündə (hz. Mehdi (ə.s) zühur etdiyində) onlar riddə (dindən çıxmaq) üzrə olacaqlar. ŞƏRABIN HALAL OLDUĞUNU ZƏNN EDƏCƏKLƏR VƏ NAMAZ DA QILMAYACAQLAR".*** **(Ukayli "En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali ibn Ebi Talib Ale't-Temam ve'l kamal)**

**185-"YAXŞILIĞI ƏMR ETMƏK, PİSLİKDƏN ÇƏKİNDİRMƏK" İBADƏTİ TƏRK EDİLƏR**

***YAXŞILIQ TƏRK EDİLİB ƏMR EDİLMƏDİKDƏ, PİSLİK İŞLƏNİB ÇƏKİNDİRİLMƏDİKDƏ qiyamət yaxınlaşmış olacaq.*** **(Ölüm Kıyamet ve Diriliş, səh.**

**480)**

**186-QURAN ƏXLAQI TƏRK EDİLƏR**

***İnsanlara elə zaman gələr ki, QURANİ KƏRİM BİR VADİDƏ İNSANLAR BAŞQA BİR VADİDƏ (yerdə) OLARLAR.*** **(Hakim, Tirmizi; Son Zamanlarla İlgili Hadisler, səh.25)**

**187-FƏRDİ MƏNFƏƏTLƏRƏ İSLAM VƏ MÜQƏDDƏSATIN MƏNFƏƏTLƏRİNDƏN DAHA ÇOX ÜSTÜNLÜK VERİLƏR**

***Marufa sarılın, münkərdən də çəkinin! NƏ VAXT ƏMƏL OLUNAN XƏSİSLİK, BİR İSTƏK, (DİNƏ, AXİRƏTƏ) ÜSTÜNLÜK VERİLƏN DÜNYA HƏYATI GÖRƏR, RƏY SAHİBLƏRİNİN (MÜCTƏHİDLƏRİ DİNLƏMƏDƏN) ÖZ FİKİRLƏRİNİ BƏYƏNDİKLƏRİNİ MÜŞAHİDƏ ETSƏN, O ZAMAN ÖZÜNƏ BAX. İnsanlarla məşğul olmaqdan əl çək. Çünki (bu mərhələyə gəlincə) qarşıda səbir günləri var deməkdir. O günlər ovucda köz tutmaq kimi çətindir. O günlərdə, sizin qədər əməl edə bilən bir kimsəyə əlli adamın mükafatı veriləcək.*** **(Ebu Davud, Melahim 17, (4341); Tirmizî, Tefsir, Mâide, (3060); İbnu Mace, Fiten 21, (4014))**

**188-DİNİ DƏYƏRLƏRİ GÖSTƏRİŞ ÜÇÜN İSTİFADƏ EDƏNLƏR OLAR**

***Ümmətimin son zamanlarında MƏSCİDLƏRİNİ BƏZƏYİB ÜRƏKLƏRİNİ XARAB EDƏN,, PALTARINI QORUDUĞU QƏDƏR DİNİNİ QORUMAYAN, DÜNYA İŞLƏRİNİN YOLUNDA GETMƏSİ ÜÇÜN DİNİNİ VASİTƏ ETMƏYƏ DİQQƏT VERMƏYƏN bəzi insanlar törəyəcək.*** **(Hakim; Son Zamanlarla İlgili Hadisler, səh. 27)**

**189-DİNDƏ QADAĞAN OLANLARI EDƏNLƏR MÜSƏLMANLARA QALİB GƏLƏR**

*Məscidlərin içində* ***FISKI-FÜCUR ƏHLİNİN (ALLAHA ÜSYAN EDƏNLƏR, GÜNAH İŞLƏYƏNLƏR) SƏSLƏRİNİN YÜKSƏLMƏSİ, QADAĞAN OLAN ŞEYLƏRİ EDƏNLƏRİN, DİNİN ƏMR ETDİKLƏRİNİ YERİNƏ YETİRƏN SƏMİMİ MÖMİNLƏR ÜZƏRİNDƏ QALİB GƏLİB ONLARA HÖKMRANLIQ (TƏZYİQ, HÖKM) ETMƏLƏRİDİR,*** ***buyurdu.*** **(Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 450, no. 828)**

**190-SAXTA MƏSİHLƏR VƏ MEHDİLƏR ORTAYA ÇIXAR**

***Hər biri Allahın elçisi olduğunu iddia edən OTUZA YAXIN YALANÇI GÖNDƏRİLMƏDİKCƏ qiyamət qopmayacaq.*** **(Tirmizi, Fiten: 43; Ebu Davud, Melahim: 16)**

**191-ALLAH MÜSƏLMANLARIN ÜZƏRİNDƏN ÇƏTİNLİKLƏRİ MEHDİ (Ə.S) VƏSİLƏSİ İLƏ QALDIRACAQ**

***Allah Konstantinopolu (İstanbulu) çox sevdiyi dostlarının əhlinə fəth edəcək... ONLARDAN XƏSTƏLİYİ VƏ KƏDƏRİ QALDIRACAQ.*** **(Kıyamet Alametleri, Berzenci, səh. 181)**

**192-İCTİMAİ NİZAM POZULAR**

... İnsanların İXTİLAF VƏ İCTİMAİ (SOSİAL) SARSINTILAR İÇİNDƏ OLDUQLARI ZAMAN. (Ramuz-El Ehadis, 7/7)

**193-ŞİRK SIX ŞƏKİLDƏ HAKİM OLAR**

İman edənlərin Əfəndisi belə buyurur***: "... Bundan əmin olun ki, HZ. MEHDİ (Ə.S)-I QARŞILAYAN, SİZİN ŞİRK (CAHİLİYYƏ) NİZAMINIZIN TƏSİRİ OLACAQ. Çünki o gün -İLAHİ RƏHMƏT GÖSTƏRİLƏNLƏR İSTİSNA OLMAQLA-BÜTÜN ÜMMƏT ŞİRK QOŞANLAR OLACAQ..."*** **(Kitab-ül Gaybet, [Biharul Envar, cild 51], Ansariyan Yayıncılık, derleyen: Muhammed Bakır el-Meclisi, İranKum, 2003, səh. 182)**

**194-PİS ƏXLAQ İNSANLAR ARASINDA YAYILACAQ**

Mufazzal ibn Ömər, İmam Əbu Abdullah Cəfəri Sadiqin belə buyurduğuu deyir: ***"...VƏ XALQDAN SAVAŞ ÇIXARANLAR, ƏDƏBSİZLƏR OLDUĞUNDA, ZÜHUR BAŞ VERƏCƏK (HZ. MEHDİ (Ə.S) ORTAYA ÇIXACAQ)".*** **(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 187)**

**195-NARKOTİK VƏ CİNAYƏTLƏRLƏ BAĞLI ÖLÜMLƏR ARTAR**

Hz. Əli belə buyurmuşdur: ***"MEHDİNİN QİYAMININ ƏVVƏLİNDƏ QIRMIZI ÖLÜM VƏ AĞ ÖLÜM OLACAQ..."*** **(Ikdü'd-Dürer, səh. 98, Gaybet-i Numani, səh. 397, Gaybet-i Şeyh Tusi, səh. 267, Biharü'l-Envar, 52-ci cild, səh. 211)**

Hədisdə, Axırzamanda hz. Mehdi (ə.s)-ın çıxışından əvvəl cəmiyyətlərdə cinayət hadisələrinin çoxalacağına diqqət çəkilmişdir. Hədisdən açıq şəkildə aydın olduğu kimi, indiki vaxtda AĞ ZƏHƏR (hər cür narkotik maddə) olaraq adlandırılan narkotiklər ilə hədisdə ifadə edildiyi kimi AĞ ÖLÜM reallaşacaq və insanları maddi və mənəvi olaraq öldürəcək. **Həmçinin, hədisdə ifadə edilən (qan rəngində) QIRMIZI ÖLÜMLƏ də hz. Mehdi (ə.s)-ın çıxışının əvvəlində QANLI CİNAYƏTLƏR OLACAĞINA diqqət çəkilmişdir.** QIRMIZI VƏ AĞ ÖLÜMLƏRİN sayındakı bu artım hz. Mehdi (ə.s)-ın zühurunun əlamətlərindəndir.

**196-HZ. MEHDİ (Ə.S)-DAN ƏVVƏL BÜTÜN RƏHBƏRLİK ŞƏKİLLƏRİ SINANACAQ**

Hişam ibn Salam İmam Sadiqin belə buyurduğunu rəvayət edir:

***"XALQIN BÜTÜN TƏBƏQƏLƏRİ İQTİDARA ÇATMADIQCA HZ. MEHDİ (Ə.S) ZÜHUR ETMƏYƏCƏK." Beləcə heç kim "ƏGƏR BİZ SUVEREN OLUB HÖKUMƏT QURSAYDIQ ƏDALƏTLİ DAVRANARDIQ" deyə bilməyəcək***. *(Bihar-ül Envar, 52-ci cild, səh. 244)*

**197-BƏZİ SİYASƏT ADAMLARINDA ƏXLAQİ KORLANMA ÇOX ŞİDDƏTLƏNƏR**

***Axırzamanda, ZALIM ƏMRLƏR, FASİQ NAZİRLƏR, XAİN QAZILAR, YALANÇI MÜƏLLİMLƏR OLACAQ. Bunlara hər hansı biri yetişsə onların yanında müttəfiq olmasın, köməkçi, istiqamətləndirici olmasın...*** **(Risalet-ül huruc-ül Mehdi, səh. 182)**

**198 -MARUF (YAXŞILIQ, DÜZGÜNLÜK) İLƏ MÜNKƏR (PİSLİK) BİR-BİRİ İLƏ QARIŞDIRILAR**

(Peyğəmbər (s.ə.v):)***"Əmri bil-marufa (yaxşılığı əmr etmə) olmadığınız, nəhyi anıl-münkər (pislikdən çəkindirmə) etmədiyiniz vaxt halınız nə olar?" —deyə soruşdu. "Yəni bu olacaqmı?" dedilər. "Bəli, hətta daha betəri!" buyurdular və soruşmağa davam etdilər: "Münkəri (pisliyi) əmr edib, marufu (yaxşılığı) qadağan etdiyiniz zaman halınız nə olar?" (Yanında olanlar heyrətə düşərək): "Ey Allahın Elçisi! Bu mütləq olacaqmı?" dedilər. "Bəli, hətta daha betəri!" buyurdu və davam etdi:"MARUFU MÜNKƏR, MÜNKƏRİ DƏ MARUF HESAB ETDİYİNİZ ZAMAN HALINIZ NƏ OLAR?" (Yanındakı səhabələr:) "Ey Allahın Elçisi! Bu mütləq olacaqmı?" deyə soruşdular.*** *"Bəli, olacaq!"*

*buyurdu.* (Ebu Ya'lâ, Müsned; Taberâni, elMu'cemu'l-Evsat; Heysemi, Mecma'u'z-Zevaid, 7, 281)

**199-ULDUZ FALINA İNANILAR VƏ QƏDƏR (ALIN YAZISI) İNKAR EDİLƏR**

***Axırzamanda ümmətim haqqında ən çox narahatlıq duyduğum ULDUZLARA (İNANMAQ), QƏDƏRİ YALANLAMAQDIR.*** **(Ramuz-El Ehadis, 1/1540)**

**200-İNSANLARIN ÇOXU EQOİST EHTİRASLARINA ÜSTÜNLÜK VERƏRLƏR**

***İnsanlara elə bir zaman gələcək, QAYĞILARI, ŞƏRƏFLƏRİ, MALLARI, QİBLƏLƏRİ, QADINLARI OLACAQ. DİNLƏRİ DƏ QIZIL VƏ GÜMÜŞ OLACAQ. Bunlar xalqın şərliləridir və Allah yanında onların nəsibləri yoxdur.*** (Sülemi; Geleceğin Tarihi 1, səh.19)

**201-XAİNƏ ETİMAD EDİLƏR, DOĞRULAR XAİN SAYILAR**

***İnsanlar üçün aldadıcı illər gələcək. O illərdə XAİNƏ ETİMAD EDİLƏCƏK, DOĞRU ADAM XAİN SAYILACAQ.*** (Ölüm Kıyamet ve Diriliş, səh. 476)

**202-ETİBARLI İNSANLARIN SAYI AZALAR**

***Axırzamanda ümmətim içərisində ƏN AZ OLACAQ ŞEY HALAL PUL VƏ ETİBARLI YOLDAŞDIR.*** *(Suyuti, Camiü`s-Sagir, 2/71)*

**203-ƏMANƏT ƏHLİ OLAN İNSANLAR AZALAR**

***Qənimət müəyyən kəslərin inhisarında (idarəsində) olduğu, ƏMANƏT QƏNİMƏT SAYILDIĞI, zəkat ağır bir yük qəbul edildiyi zaman...*** **(**Kıyamet Alametleri, səh. 114)

**204- SƏLAHİYYƏTİ OLMAYAN KƏSLƏRƏ MƏSULİYYƏT VERİLƏR**

***İŞLƏR MƏSULİYYƏTLİ OLMAYANA VERİLİNCƏ, artıq qiyaməti gözlə!*** *(Zebidi, Tecridi Sarih, 12/201)*

**205-YALANÇI ŞAHİDLİK VƏ BÖHTAN YAYILAR**

***Qiyamətdən dərhal əvvəl. YALANÇI ŞAHİDLİK YAYILAR, HAQQA ŞAHİDLİK İSƏ GİZLƏNƏR.*** *(Ramuz-El Ehedis, 1/121)*

**206-ÜSTÜNLÜK TƏQVADA DEYİL ZƏNGİNLİKDƏ AXTARILAR**

***ZƏNGİNƏ ETİBAR EDİLİB ÖZÜNDƏN DAHA ÜSTÜN ADAMLAR ONUN ÜÇÜN AYAĞA QALXDIQLARINDA** **və ona salam verdiklərində, qiyamət yaxınlaşmış deməkdir.*** (Ölüm Kıyamet ve Diriliş, səh. 480-481)

**207-HEYVANLARA İNSANLARDAN ÇOX DƏYƏR VERİLƏR**

***Qiyamət yaxınlaşdıqda ADAM İT BALASI BƏSLƏYƏCƏK. BU İŞ ONA ÖZ UŞAĞINI YETİŞDİRMƏKDƏN DAHA YAXŞI GƏLƏCƏK.*** (Taberani, Hakim)

**208-AİLƏVİ ƏLAQƏLƏR POZULAR**

***İnsanın ANASINA ÜSYAN ETMƏSİ, ATASINA ÇƏTİNLİK YARATMASI.*** (Tirmizi,

Fiten: 38)

**209-İNSANİ ƏLAQƏLƏR POZULAR**

***ÜRƏKLƏR BİR-BİRİNƏ YAD OLMADAN, sözlər bir-birindən ayrılmadan, ana-ata bir, qardaşlar fərqli dinlərdən olmadan qiyamət qopmaz.*** (Deylemi; Geleceğin

Tarihi 1, səh. 32)

***ADAMIN TƏKCƏ TANIŞLARINA SALAM VERMƏSİ qiyamət əlamətlərindəndir.*** *(Ramuz-El Eedis, 121/4)*

**210-İNSANLAR ARASINDA SEVGİ VƏ HÖRMƏT AZALAR**

***BÖYÜKLƏR KİÇİKLƏRƏ MƏRHƏMƏT ETMƏDİKLƏRİNDƏ, KİÇİKLƏR DƏ BÖYÜKLƏRİNƏ HÖRMƏT GÖSTƏRMƏDİKLƏRİNDƏ, UŞAQ ƏSƏBİ OLDUĞUNDA qiyamət yaxınlaşmış olacaq.*** (Ölüm Kıyamet ve Diriliş, səh. 480)

***BÖYÜYƏ HÖRMƏT, KİÇİYƏ MƏRHƏMƏT ARADAN QALXACAQ.*** *(Kıyamet Alametleri, səh. 140)*

**211-DÜNYA EHTİRASI ARTAR**

***İnsanlarda XƏSİSLİK VƏ EHTİRAS ARTACAQ.*** **(Müslim, İmare: 176)**

**212-İNTİHAR HADİSƏLƏRİ ARTAR**

***İNSANLAR ÖZ CANLARINA QƏSD EDƏRLƏR və yer üzünü bəlalar örtər.*** *(* Kitabü'n-Nihaye, İbn-i Kesir, 1/131)

**213-CİNAYƏTLƏR ARTAR**

***CİNAYƏTLƏR ARTMADIQCA...* qiyamət qopmaz.** *(Ölüm Kıyamet ve Diriliş, səh. 468)*

***... Fitnələr, qorxulu vəziyyətlər və CİNAYƏTLƏRİN GÖRÜNMƏSİ***. *(Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 39)*

**214-AİLƏ İÇİ ŞİDDƏTLƏR ARTAR**

**426-İNSANLAR ÜÇÜN ƏN YAXŞI DOSTDUR**

Sonra hz. Mehdi (ə.s)-ın sifətlərini sayaraq buyurdu ki: **"İÇİNİZDƏKİ ƏN GENİŞ SIĞINACAQDIR, İÇİNİZDƏ ELMİ ƏN ÇOX OLANDIR VƏ DOSTLARINI, SEVDİKLƏRİNİ ƏN ÇOX AXTARIB SORUŞANDIR.** Allahım! Onun zühurunu hüznlərin aradan qaldırılmasına vəsilə et və ümmətin dağınıqlığını onunla topla! Əgər Allah səni uğurlu etsə **ONUN BEYƏTİNƏ QAÇ (ONA TABE OL) VƏ ONDAN ƏSLA İMTİNA ETMƏ. ƏGƏR BAŞARSAN, ONA ÇATIB VƏ HİDAYƏTƏ QOVUŞSAN ONDAN ƏSLA İMTİNA ETMƏ.** Ah - və Əli ilə sinəsini

göstərərək - onu çox görmək istəyərdim" (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 252)

### 427-ÜSLUBU VƏ RƏFTARI ÇOX SƏMİMİDİR

**Hz. Mehdi (ə.s)-ın təbliğ üsulu insanların ürəklərinin dərinliklərinə işləyən və Allaha ən səmimi qəlblə yönələn tərzdə olacaq.** Dindən uzaqlaşanlar ibadətlərinə, qənaətbəxşliyə və təhlükəsizliyə geri dönəcəklər. (İkdud Durar, səhifə.156, Bihar- ül Envar, 53-cü cild, səh. 36 ve 280)

Hədisdə hz. Mehdi (ə.s)-ın İslam əxlaqını izah edərkən son dərəcə səmimi bir üsul istifadə edəcəyi izah edilmişdir. Allah hz. Mehdi (ə.s)-ın səmimiyyətini də vəsilə edərək "Hadi" sifəti ilə təcəlli edəcək və insanları hidayətə çatdıracaq. Hz. Mehdi (ə.s)-ın dövründə insanlar xalis bir ürəklə Allaha iman edəcəklər və imanı zəifləmiş kəslərin də yenidən imanları güclənəcək. Hz. Mehdi (ə.s)-ın İslam əxlaqını anlatma üslubundakı səmimiyyətin xüsusilə diqqət çəkməsinin səbəblərindən biri də, hz. Mehdi (ə.s)-ın yaşadığı dövrdə insanların ümumiyyətlə səmimiyyətdən uzaq bir rəftar göstərməlidir. Hədisdə həmçinin iman edənlərin ürəklərinin rahatlıq tapacağına və təhlükəsizliyin meydana gələcəyinə də diqqət çəkilmişdir.

## Hz. Mehdi (ə.s)-ın elmi

**428-HƏR MÖVZUDA ÇOX BİLİKLİDİR**

Hakim səhihdir qeydi ilə Əbu Hüreyrədən bu xəbəri nəql etmişdir: Peyğəmbər (s.ə.v) buyurdu: "İnsanların MƏDİNƏ ALİMİNƏ (HZ. MEHDİ (Ə.S)) çatmaq üçün dəvələrini minərək yollara çıxacağı günlər yaxındır. Məhz o zaman ONLAR, MƏDİNƏ ALİMİNDƏN (HZ. MEHDİ (Ə.S)-DAN) DAHA MƏLUMATLI BİRİNİ TAPA BİLMƏYƏCƏKLƏR". **(Celaleddin es-Suyuti, Peygamberimizin Mucizeleri ve Büyük Özellikleri, Uysal Kitabevi: 2/265)**

**429-ELMİ VƏ YUMŞAQLIĞI DÖVRÜNDƏKİ HƏR KƏSDƏN ÜSTÜNDÜR**

HZ. MEHDİ (Ə.S)-IN ELM VƏ ANADANGƏLMƏ YUMŞAQLIĞI HƏR KƏSDƏN DAHA ÇOXDUR. Hz. Mehdi (ə.s) Peyğəmbər (s.ə.v)-in adını daşıyır və əxlaqı da Məhəmmədi (s.ə.v) əxlaqıdır. **(El-Mehdiyy-il Mev'ud, 1-ci cild, səh. 281-282 ve 266 ve 300)**

**430-HƏR MÖVZUNU DƏLİLLƏRİ İLƏ İSBAT EDƏR, BELƏ Kİ, KİMSƏ ONA QARŞI DƏLİL GƏTİRƏ BİLMƏZ**

Şeyx Tusinin Qaybəti: "HZ. MEHDİ (Ə.S)-IN HAKİMİYYƏTİ (mənəvi liderliyi) ALLAHIN BÜTÜN YARATDIQLARI HAQQINDAKI DƏLİLLƏRİNDƏDİR; bunlar elə çoxdur ki, ONUN (HZ. MEHDİ (Ə.S)-IN) DƏLİLLƏRİ BÜTÜN İNSANLAR ÜZƏRİNDƏ QALİB GƏLƏCƏK (TƏSİRLİ OLACAQ, HAKİM OLACAQ) VƏ KİMİNSƏ ONA QARŞI GƏTİRƏCƏYİ SƏBƏBİ OLMAYACAQ". **(Kitab-ül Gaybet, [Bihar-ul Envar, 51-ci cild], Ansariyan Yayıncılık, Derleyen: Muhammed Bakır el-Meclisi, İran-Kum, 2003, səh. 70)**

**431-ONA YÖNƏLDİLƏN SUALLARA ÇOX AĞILLI CAVABLAR VERƏR**

... HZ. MEHDİ (Ə.S) ŞƏRQ İLƏ QƏRB ARASINDAKI ŞEYLƏR HAQQINDAKI BÜTÜN SUALLARA CAVAB VERƏR. **(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybeti Numani səh. 283)**

**432-ELMİ HZ. DAVUDUN ELMİNƏ BƏNZƏYƏCƏK, BATİNİ ELMLƏRƏ SAHİB OLACAQ**

"Əl-Qaim Mehdi [əleyhissalam] haqqında soruşmusan; QİYAM ETDİYİ ZAMAN İNSANLAR ARASINDA DAVUD [ƏLEYHİSSALAM]-IN HÖKMÜNƏ BƏNZƏR ŞƏKİLDƏ ÖZ ELMİ

İLƏ HÖKM VERƏCƏK və hər hansı bir dəlilə ehtiyac duymayacaq". **(Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 50-ci cild, səh.264-265)**

**433-HZ. MEHDİNİN HƏR HANSI BİR DƏLİLƏ EHTİYACI QALMAYACAQ**

İbn Şəhraşubun həyatından və əl-Həraic vəl-Cəraih əsərindən, Həsən ibn Zarif rəvayət edir:

Könlümü iki mövzu narahat edirdi və onlarla əlaqədar Əbu Məhəmmədə yazmaq istədim. Beləcə ona bir məktub yazıb əl-Qaim Mehdi [əleyhissalamı], onun nə ilə hökm edəcəyini və məclisinin harada olacağını soruşdum.

Belə bir cavab gəldi:

"Əl-Qaim Mehdi [əleyhissalam] haqqında soruşmusan; qiyam etdiyi zaman insanlar arasında Davud [əleyhissalam]-ın hökmünə bənzər şəkildə ÖZ ELMİ İLƏ HÖKM VERƏCƏK VƏ HƏR HANSI BİR DƏLİLƏ EHTİYACI QALMAYACAQ".

"İlamu'l-Vəra" və "Əl-İrşad" əsərlərində İbn Quluya, Qüleyni, Əli ibn Məhəmməd və Həsən ibn Zarif sənədi ilə bənzər hadisəyə yer verilmişdir. (Meclisî, Bihârü'l-Envâr,

Beyrut, 1404, 50-ci cild, səh.264-265)

**434-BAŞ VERƏCƏK HADİSƏLƏRİ ƏN UZAQGÖRƏN ŞƏKİLDƏ TƏSBİT EDƏR**

Əbu Basar belə rəvayət etmişdir: Əbul Həsən (Musa ibn Cəfər)-ə dedim ki: "Səni yaradan Allaha qurban olum! İmam Mehdi hansı işarəsi ilə tanınar?" Buyurdu ki: "İmam Mehdinin tanınmasını təmin edən bir neçə xüsusiyyəti vardır. İNSANLAR ONA SUAL VERDİKLƏRİNDƏ DƏRHAL CAVAB VERƏR; ƏGƏR HÜZURUNDA SUSSALAR, O ÖZÜNDƏN DANIŞMAĞA BAŞLAYAR VƏ SABAH BAŞ VERƏCƏKLƏRİ (yaşanacaq hadisələri) İZAH EDƏR. İNSANLARLA HƏR DİLDƏ DANIŞAR". **(İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / ElKuleyni, 1-ci cild. səh. 402)**

**435-HZ. MEHDİ (Ə.S)-IN TƏBLİĞİ İNSANLARA ÇOX TƏSİR EDƏR**

HZ. MEHDİ (Ə.S) QURU BİR AĞACI ƏKDİYİNDƏ DƏ AĞAC DƏRHAL YAŞILLAŞIB YARPAQLANACAQ. **(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 43)**

Əsrində CAHİL, XƏSİS VƏ QORXAQ OLAN BİR ADAM DƏRHAL ALİM, SƏXAVƏTLİ VƏ CƏSUR OLACAQ. (Kıyamet Alametleri, səh. 186)

**436-ƏDALƏTİN TAM HAKİM OLMASINA VƏSİLƏ OLAR**

Hz. Mehdi (ə.s) YENİ BİR MÜHAKİMƏ VƏ QƏZAVƏT (HAKİMLİK) SİSTEMİ gətirəcək.

(El-Gaybet (Nümani) Bihar'ül Envar,  52-ci cild, səh. 349, 354)

Hz. Mehdi (ə.s) dürüst və ədalətli mühakimə sistemini təşviq edib mühakimədə və hakimlik əxlaqında mükəmməlliyi təmin edəcək.

Hz. Mehdi (ə.s) dövründə, İslam aləmindəki dövlətləri narahat edən qarşıdurmalar nəticəsində məhkəmə işlərinə müdaxilələr olacaq; ədalət sistemində pozulma və degenerasiya meydana gələcəkdir. Məhz hz. Mehdi (ə.s) bu dövrdə ortaya çıxacaq və yaranan bu pozulma ancaq hz. Mehdi (ə.s) vəsiləsi ilə düzələcək.

## 437-MEHDİ (Ə.S) ELMİN QAYNAĞIDIR

... Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir:

"İMAM MEHDİ ALİMDİR, ÖNDƏRDİR... MÜQƏDDƏSLİYİN, TƏMİZLİYİN, İBADƏTİN, ZAHİDLİYİN, ELMİN VƏ QULLUĞUN QAYNAĞIDIR. Rəsulullah (s.ə.v)-in dəvəti, xüsusilə ona (İmam Mehdiyə) təqdim edilmiş, çağırış vəzifəsi ona verilmişdir. Fatimə Betülün tərtəmiz soyundan gəlir. Qureyş xanədanından, Haşimoğulları zirvəsindən və Peyğəmbərin pak nəsilindən gəlmiş, Allah Azze və Cellenin razılığına malikdir". **(İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min ElKafi) / El-Kuleyni,  1-ci cild)**

## 438-DİNİ MƏSƏLƏLƏR HAQQINDA YÜKSƏK ELM SAHİBİDİR

... HZ. MEHDİ (Ə.S) DİNİ MƏSƏLƏLƏRDƏ ZAMANINDAKI MÜCTƏHİDLƏRİN ƏN FƏZİLƏTLİSİ VƏ ƏN MÜKƏMMƏLİDİR. Bu da onun böyüklüyünü, mərtəbəsinin yüksəkliyini, mövqeyinin ucalığını göstərər. **(Ali b. Sultan Muhammed el-Kari el-Hanefi, “Risaletül Meşreb elverdi fi mezhebil Mehdi)**

Onun (hz. Mehdi (ə.s)-ın) dövründə DİN TAMAMİLƏ ŞƏRHLƏRDƏN TƏMİZLƏNƏRƏK OLARAQ ƏSL MAHİYYƏTİNİ QAZANACAQ. **(Muhyiddin Arabi, "Futuhat-El**

**Mekkiye", 66. bab, 3-cü cild, səh. 327- 328)**

## 439-QIZIL MÖHÜRLÜ KİTABI İNSANLARA SƏSLİ OXUYACAQ

İmam Sadiq deyir ki: Qaim (hz. Mehdi (ə.s)) müəyyən geyim geyinəndə Peyğəmbər (s.ə.v)-in QIZIL MÖHÜRLƏ MÖHÜRLƏNİLMİŞ MƏKTUBUNUN (KİTABININ) MÖHÜRÜNÜ ÇIXARARAQ (QAPAĞINI AÇARAQ), İNSANLARA YÜKSƏK SƏSLƏ OXUYACAQ. **(Bihar'ül Envar,52-ci cild, səh. 326)**

## 440-HƏDİSLƏR MÖVZUSUNDA ÇOX MƏLUMATLIDIR

Əbu Basar deyir ki, İmam Məhəmməd Baqirin belə buyurduğunu eşitdim: ... Buyurdu ki: "Hz. Mehdi (ə.s) qiyam etdiyində Rəsulullah (s.ə.v)-in yolu ilə gedəcək. TƏK O (HZ. MEHDİ (Ə.S)) RƏSULULLAH (S.Ə.V)-İN ƏSƏRLƏRİNİ AÇIQLAYACAQ...". **(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 191)**

**441-ALLAH HZ. MEHDİ (Ə.S)-I VƏSİLƏ EDƏRƏK, HƏM ŞİDDƏTİ HƏM DƏ ŞİDDƏTİN FƏLSƏFƏSİNİ YOX EDƏCƏK**

Şeyx Tusinin Qaybəti: "Sonra hz. Mehdi (ə.s)-ın yüksəlişi olacaq... ALLAH ONUN (HZ. MEHDİ (Ə.S)-IN) VASİTƏSİ İLƏ YALANLARI ORTADAN QALDIRACAQ. ONUN (HZ. MEHDİ (Ə,S) VASİTƏSİ İLƏ, ŞİDDƏTİ ORTADAN QALDIRACAQ. O (hz. Mehdi (ə.s)) boyunlarınızdakı əsarət eyibini qaldıracaq". **(Kitab-ül Gaybet, [Bihar-ul Envar, 51-ci cild], Ansariyan Yayıncılık, Derleyen: Muhammed Bakır el-Meclisi, İran-Kum, 2003, səh. 132)**

**442-ALLAHIN XƏLİFƏSİDİR**

... Mehdi (ə.s) zühur edincə, hər şeyi buraxıb mümkün olan hər vəsiləylə ona doğru qaçın. Çünki O ALLAHIN XƏLİFƏSİ (mənəvi lider) VƏ MƏNİM QƏYYUMUMDUR. **(Bihar-ul Envar, 51-ci cild, səh.65; Isbat-ul Hüdat, 6-cı cild, səh.382)**

**443-CİFR (ƏBCƏD) ELMİNİ BİLƏR**

Bəziləri dedilər ki, BU KİTABI KAMALI-VÜQÜF (yetkinliyə çatmış) AXIRZAMANDA HURUCU MÜNTƏZƏR (çıxışı gözlənilən) HZ. MEHDİ (Ə.S)-IN HURUCUNA MEVKUFDUR (çıxışına məhkumdur) Kİ, ONLAR ƏBCƏD ELMİNƏ VƏQF VƏ SİRLƏRİNƏ ARİF OLARLAR (bilərlər). Kitabı-ənbiyanı salifədən də bu elm varid olmuşdur. (Bu elm keçmiş peyğəmbərlərə verilən kitablardan çatmış bir elmdir). **(Mehdilik ve İmamiye, İbrahim Süleymanoğlu, səh.252) (Taşköprülüzade Ahmet Efendi "Mevzuatu'l-Ulum", (11/246))**

**444-BATİN ELMİNDƏN XƏBƏRDARDIR**

Kab: "Qiyam edənin Mehdi olaraq adlandırılmasının səbəbi GİZLİ İŞLƏRƏ HİDAYƏT EDİLMƏSİNƏ GÖRƏDİR" deyər. (El Havi, 2-ci cild, səh.148)

Kabdan rəvayət edildi ki:

O, HEÇ KİMİN BİLMƏDİYİ GİZLİ BİR GÜCÜN SAHİBİ OLDUĞU ÜÇÜN ONA MEHDİ DEYİLMİŞDİR. **(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman)**

O (Mehdi) təsdiqlənmiş, QUŞ VƏ BÜTÜN HEYVANLARIN DİLLƏRİNİ BİLƏN BİRİDİR. Ona görə ədaləti bütün insanlar və cinlər tərəfindən qəbul ediləcək. **(Muhammed**

**ibn Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 188)**

**445 -ELMİ ƏSKİKSİZ VƏ MÜKƏMMƏLDİR**

Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir: (İmam Mehdinin) ELMİ İNKİŞAF ETMİŞ VƏ ELMİ ƏKSİKSİZDİR. İmanlıqda güclü, siyasətdə müdrikdir. Ona (İmam Mehdiyə) itaət etmək fərzdir. Allah Azzə və Cəllənin əmri ilə bu vəzifəyə gəlmişdir. Allahın qullarına nəsihət verər. Allahın dininin qoruyucusudur. (İman Ve Küfür Kitabı / UsulU Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

**446-HADİSƏLƏRİN ZAHİRİNƏ DEYİL, BATİNİNƏ GÖRƏ HƏRƏKƏT EDƏR**

Şeyx Müfid belə deyir: "Qaim Ali Məhəmməd (HZ. MEHDİ (Ə.S)) QİYAM ETDİYİNDƏ EYNİ HZ. DAVUD (Ə.S) KİMİ, YƏNİ QƏRBİN HASƏBİYLƏ (QƏRBİN MƏLUMATIYLA) HÖKM VERƏCƏK, ŞAHİDƏ EHTİYAC DUYMADAN HÖKM VERƏCƏK. ALLAH HÖKMÜ ONA İLHAM EDƏCƏK VƏ O DA İLAHİ İLHAMA GÖRƏ HÖKM VERƏCƏK. (İrşad (Şeyh Müfid), səh. 365-366)

BU HZ. MEHDİ (Ə.S); SÜLEYMAN (Ə.S) İLƏ DAVUD (Ə.S) KİMİ HÖKM VERƏCƏK. VERDİYİ HÖKMDƏ DƏLİL VƏ ŞAHİD İSTƏMƏYƏCƏK. (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 374)

**447-KİMİN DOST KİMİN DÜŞMƏN OLDUĞUNU DƏRHAL ANLAYAR**

Hz. Mehdi (ə.s) HƏR QRUPUN GİZLİ PLANLARINDAN XƏBƏRDAR OLACAQ VƏ PLANLARINI ÖZLƏRİNƏ SÖYLƏYƏCƏK. HZ. MEHDİ (Ə.S) DOST VƏ DÜŞMƏNİNİ BAXARAQ TANIYACAQ. (İrşad (Şeyh Müfid), səh. 365-366)

**448-YALNIZ İNSANLARA DEYİL, CİNLƏRƏ DƏ GÖNDƏRİLMİŞDİR**

O (Mehdi), təsdiqlənmiş, ... ədaləti, bütün insanlar və CİNLƏR TƏRƏFİNDƏN QƏBUL EDİLƏCƏK. (Muhammed İBN Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri,

səh. 188)

**449-PEYĞƏMBƏRLİK YOLUNDADIR**

Hz. Huzeyfədən rəvayət edilmişdir: Aranızda "Peyğəmbərlik" Allahın istədiyi qədərdavam edər, sonra onu qaldırmağı istədiyi zaman da qaldırar. Allahın arzu etdiyi qədər davam edən "şiddətli bir məliklik" idarəsi gəlir. Sonra onu qaldırmağı istədiyi zaman qaldırar. Sonra zorba bir idarə gəlir. Sonra da "PEYĞƏMBƏRLİK YOLU ÜZRƏ BİR XİLAFƏT" (mənəvi liderlik) (HZ. MEHDİ (Ə.S)) GƏLƏR. (Ramuz El-Ehadis, 1/257

(Ebu Davud "Tayalisi" -Ahmet ibn Hanbel "Müsned"inden))

... Birinci yolda, yəni (yaxın peyğəmbərlik) deyilən yolda, bolluq və hidayət, vasitə ilə gəlməz. BU YOLDA YÜKSƏLƏN, ARADA VASİTƏ VƏ PƏRDƏ OLMADAN VASİL OLAR. HEÇ KİM VASİTƏ VƏ PƏRDƏ OLMADAN BOLLUQLARA VƏ BƏRƏKƏTLƏRƏ QOVUŞMAZ. Vasitə olmaq və pərdə olmaq (vilayət yaxınlığı) deyilən yoldadır. Bu iki yolu bir-birinə qarışdırmamalı. HƏZRƏTİ İSA (Ə.S) VƏ HƏZRƏTİ MEHDİ (Ə.S) PEYĞƏMBƏRLİK YOLU İLƏ HAQQA ÇATARLAR. Seyhayn, yəni həzrəti Əbu Bəkr ilə həzrəti Ömər (r.ə)-də, peyğəmbərlik yolu ilə qovuşmuşlar. Rəsulullah (s.ə.v)-in himayəsi altındadırlar. Şanları çox yüksəkdir. **(Saadet-i Ebediye, H. Hilmi Işık, səh. 836 (Mektubat-i Rabbani'den 123. Mektup))**

**450-QURANIN DOĞRU ŞƏRH EDİLMƏSİ ÜÇÜN ELMİ MÜBARİZƏ APARAR**

Rəsulullah (s.ə.v) Ammar İbn Yasirə belə buyurmuşdur: "Onun (hz. Mehdi (ə.s)-ın) uzun bir qaybəti olacaq ki, bir sıra insanlar bu dövrdə imanlarını itirəcək, digər bir qrupu isə imanlarını qoruyacaqlar. O (hz. Mehdi (ə.s)), Axırzamanda çıxıb yer üzünü ədalətlə dolduracaq. O (hz. Mehdi (ə.s)), ALLAHIN KƏLAMININ ŞƏRHİ ÜÇÜN (FİKİRLƏ) MÜBARİZƏ APARACAQ, necə ki, mən Allahın kəlamının endirmə (nazil olması) üçün mübarizə apardım. Ey Ammar... (o (hz. Mehdi (ə.s)) xalqın mənə ən çox bənzəyəni olacaq". (Kifayet'ül Eser, İlzam-ün Nasib, 1-ci cild, səh. 98)

**451-SİYASƏTDƏ MÜDRİKDİR**

… Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir:

"(İmam Mehdinin) elmi inkişaf etmiş və helmi əskiksizdir. İmanlıqda güclü, SİYASƏTDƏ MÜDRİKDİR. Ona (İmam Mehdiyə) itaət etmək fərzdir. Allah Azzə və Cəllənin əmri ilə bu vəzifəyə gəlmişdir. Allahın qullarına nəsihət verər. Allahın dininin qoruyucusudur". (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / ElKuleyni, 1-ci cild)

**452-QURANI İNSANLARA HİKMƏTLƏ AÇIQLAYAR**

İmam Sadiqdən:

"Qaimimiz çıxdığında, hər kəs Allahın kitabından səbəblər qarşıya qoyar. MEHDİ, İZAH EDƏRƏK ALLAHIN KİTABINI (QURANI) AÇIQLAYAR. (Gaybeti

Numani, səh. 297)

**453-İNSANLARIN ƏXLAQININ GÖZƏLLƏŞMƏSİNƏ VƏSİLƏ OLAR**

Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir: İmam Mehdi, Allahın yaratdığı varlıqlar arasındakı əmin təmsilçisidir. Allahın qullarına təqdim etdiyi hüccətidir. Allahın ərşində Onun xəlifəsidir. Allaha çağıran dəvətçidir. Allahın qoyduğu haramların müdafiəçisidir. İMAM MEHDİ, İNSANLARI (ƏXLAQLARININ GÖZƏLLƏŞMƏSİNƏ VƏSİLƏ OLARAQ) GÜNAHLARDAN, EYİBLƏRDƏN TƏMİZLƏYƏR. Elmindəki özəlliyi ilə diqqətə çarpması, mülayimliyi onun xarakterik xüsusiyyətidir. (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

**454-MEHDİ (Ə.S)-IN SAHİB OLDUĞU XÜSUSİYYƏTLƏR ÇALIŞILARAQ ƏLDƏ EDİLƏ BİLMƏZ**

Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir: İMAM MEHDİ, DİNİN NİZAMI, MÜSƏLMANLARIN QÜRURUDUR. Münafiqlərin kinini üzərinə çəkər, kafirlərin həlak olmasının vəsiləsidir. İMAM MEHDİ, ZAMANININ TƏK ŞƏXSİDİR. HEÇ KİM ONUN SƏVİYYƏSİNƏ ÇATA BİLMƏZ VƏ HEÇ BİR ALİM ONUNLA MÜQAYİSƏ EDİLƏ BİLMƏZ. Onun bənzəri və tayı-bərabəri olmaz. İman sifəti ilə diqqətə çarpar, bütün imani dəyərlər onda toplaşar. AMMA O (İMAM MEHDİ), BUNLARI İSTƏYƏRƏK VƏ ÇALIŞARAQ ƏLDƏ ETMƏYİB. Əksinə bu dəyərləri verən, Uca bəxşedici olan Allah tərəfindən ona (İmam Mehdiyə) xas olan xüsusiyyətlərdir. (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

**455-HALALLARI VƏ HARAMLARI BİLƏR**

Hz. Hüseyn (r.ə)-dən soruşuldu:

"İmam hz. Mehdi (ə.s) hansı əlamətlərlə tanınar?" Belə cavab verdi: "Könül rahatlığı və ciddiyət sahibi olması ilə, **halal və haramı çox yaxşı bilməsi** ilə tanınar.

*(Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdisi*

*"Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")*

**456-ALLAHIN İLHAMIYLA İNSANLARI ÇOX YAXŞI TANIYACAQ, ALDIĞI QƏRARLARDA ŞAHİD LAZIM OLMAYACAQ**

İmam Mehdi (ə.s) **İLAHİ MƏLUMATA UYĞUN OLARAQ** hökm verəcək. İnsanları **ÖZ HƏQİQƏTLƏRİ İLƏ VƏ ƏSLİNDƏ OLDUQLARI KİMİ** tanıyacaq. Davud Peyğəmbər (ə.s) və Süleyman peyğəmbər (ə.s)-ın qərarları kimi **ONUN HÖKMLƏRİNƏ DƏ ŞAHİD LAZIM OLMAYACAQ.** (Bihar-ül Envar, 18-ci cild, səhifə 341; 52-ci cild, səhifə 325; Mikyaal alMakaarem, 1-ci cild, səh. 6, 83-84 ve 145)

Hədisdə Allahın doğru qərarları hz. Mehdi (ə.s)-ın ürəyinə ilham edəcəyinə işarə edilir. Hz. Davud (ə.s)-ın və hz. Süleyman (ə.s)-ın ədalətli hökmləri kimi hz. Mehdi (ə.s)-ın da bütün hökmləri ədalətli olacaq. Hz. Mehdi (ə.s)-ın ürəyinə insanların xarakterləri və əsl

üzləri ilham olunacaq və insanlar haqqında qərar verərkən hz. Mehdi (ə.s)-ın dəlilə və ya şahidə ehtiyacı olmayacaq. Hadisələrin iç üzünün hz. Mehdi (ə.s)-a Allah tərəfindən hiss etdiriləcəyinə hədisdə işarə edilmişdir.

**457-ÜSTÜN FƏRASƏT SAHİBİ OLACAQ VƏ ALLAHIN DİLƏMƏSİ İLƏ QEYB ELMLƏRİNƏ YİYƏLƏNƏCƏKDİR**

İmam Sadiq (ə.s) buyurmuşdur ki: "Hz. Mehdi (ə.s) **hər qövmün işlərinin əslindən (saxladıqları şeydən) xəbər verər və dostunu düşmənini fərasətlə tanıyar".** *(Sırat'ulMustakim, 2-ci cild, səh. 254)*

**458-ALLAH HZ. MEHDİ (Ə.S)-I HİKMƏTİ İLƏ, ELMİ İLƏ, HİDAYƏTİ İLƏ İSTİQAMƏTLƏNDİRƏCƏK**

Allah Təalanın hz. Mehdi (ə.s)-a necə kömək edəcəyini İmam Rıza (ə.s) belə açıqlamışdır:

Allah hz. Mehdi (ə.s)-a **ürək genişliyi verəcək. Qəlbini həqiqət və hikmətlərin çeşməsi edəcək, ona elmini daim ilham edəcək.**

**Ondan sonra heç bir problemin cavabından aciz qalmayacaq, doğru yol göstərməkdə və həqiqətləri bəyan etmədə heç vaxt pozğunluğa düşməyəcək: (Allahın diləməsi ilə) xətadan məsumdur. Daima Allahın yol göstərməsinə, yardımı və qüvvəsinə çatmışdır. Səhv və dolaşıqlardan amandadır.** Qullarına nümunə və şahid olması üçün onu bu mövqeyə Allah seçmişdir. Allah bu İlahi lütfkarlığını istədiyinə verər və Allah böyük lütf sahibidir. **(Usul-u Kafi, 1-ci cild, səh. 390)**

**459-HZ. MEHDİ (Ə.S) ''HEÇ KİMDƏ OLMAYAN ELMLƏRİN'' SAHİBİ OLACAQ**

"(Hz. Mehdi (ə.s)-ın) Onun fiqh məlumatı **ON ALİMİNKİNƏ ƏVƏZDİR".** (Nuaym bin Hammad, Kitab-ül Fiten)

İmam Sadiq (ə.s) belə buyurdular:

**"ELM İYİRMİ YEDDİ HİSSƏYƏ AYRILMIŞDIR.** İnsan övladı indiyə qədər bunun yalnız İKİ QİSMİNİ əldə edə bilmişdir. Qaimimiz **(HZ. MEHDİ (Ə.S)) QİYAM EDİNCƏ DİGƏR İYİRMİ BEŞ QİSMİ DƏ ORTAYA ÇIXACAQ** və insanlar arasında yayılacaq". (Bihar, *52-ci cild, səh. 336)*

Allah insanların hidayətinə vəsilə olması üçün vəzifələndirdiyi bütün peyğəmbər və elçilərini elmi və fiziki olaraq qüvvətləndirmişdir. Allahın, Axırzamanın hidayət öndəri olaraq seçdiyi hz. Mehdi (ə.s) da yaşadığı dövrdə bu xüsusiyyəti ilə çox diqqət çəkəcək. Hz. Mehdi (ə.s) Allahın lütf etməsi ilə, çox üstün elmlərə sahib olacaq. Ancaq hədis və rəvayətlərdəki məlumatlardan bu elmin, klassik mədəni məlumatlardan çox, hikmət, dərinlik, ağıl, fərasət və bəsirət olacağı aydın olur.

Sahib olduğu bu hikmət, fərasət, bəsirət, hadisələri şərh etmək və nəticə çıxarmaq qabiliyyətinə görə insanlar hz. Mehdi (ə.s)-a verdikləri hər sualda, həll axtardıqları hər mövzuda, bənzərsiz bir ağılla qarşılaşacaqlar. Daha əvvəl heç düşünə bilmədikləri yolları, heç görmədikləri həlləri, heç fikirləşmədikləri dünyagörüşlərini hz. Mehdi (ə.s) vəsiləsi ilə öyrənəcək və tətbiq edəcəklər.

**460-HZ. MEHDİ (Ə.S) BÜTÜN PEYĞƏMBƏRLƏRİN ELMLƏRİNƏ SAHİB OLACAQ**

İmam Mehdi (ə.s) **ELM SANDIĞININ QORUYUCUSUDUR, BÜTÜN PEYĞƏMBƏR (Ə.S)-LARIN ELMLƏRİNİN VARİSİDİR VƏ HƏR ŞEYDƏN XƏBƏRDARDIR.** (Bihar-ül Envar, 95-ci cild,

Səhifə 378; 102-ci cild, səhifə 67 ve 117; Mikyaal al-Makaarem,

1-ci cild, səh. 49)

## MEHDİYYƏTİN MƏNASI VƏ ƏHƏMİYYƏTİ HZ. MEHDİ (Ə.S) TƏRƏFİNDƏN AÇIQLANANACAQDIR

### 461-HZ. MEHDİ (Ə.S) "MƏN HZ. MEHDİ (Ə.S)-AM" DEMƏYƏCƏK; ANCAQ İNSANLARIN GÖZLƏRİNDƏKİ QƏFLƏT PƏRDƏSİNİ QALDIRARAQ, "MEHDİ HƏQİQƏTİNİ" ANLAMALARINI TƏMİN EDƏCƏK

Hz. Mehdi (ə.s) heç vaxt insanlara "Mən Mehdiyəm" deməyəcək. Allah Peyğəmbərimiz (s.ə.v)-in dili ilə xəbər verdiyi əlamətlərlə, onu insanlara tanıdacaq. **Bu əlamətlərdən biri də, "HZ. MEHDİ (Ə.S)-I İNSANLARA ƏN YAXŞI İZAH EDƏN ADAMIN YENƏ YALNIZ HZ. MEHDİ (Ə.S)** olması"dır. Hz. Mehdi (ə.s) gördüyü işlərlə; Peyğəmbərimiz (s.ə.v)-in hədislərini və İslam alimlərinin hz. Mehdi (ə.s) haqqındakı şərhlərini ən doğru və ən hikmətli şəkildə şərh etməsi ilə, insanlara hz. Mehdi (ə.s)-ı ən mükəmməl şəkildə tanıdacaq. Bir hədisdə hz. Mehdi (ə.s)-ın, Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanla əlaqədar verdiyi məlumatların əslini şəxsən bilən adam olacağı, bu səbəblə də Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanla əlaqədar hədislərini ən doğru şəkildə açıqlayacaq adamın da yenə yalnız hz. Mehdi (ə.s) olacağı belə bildirilmişdir:

Əbu Basir deyir ki: İmam Məhəmməd Baqir belə buyurduğunu eşitdim: "... Buyurdu ki: Hz. Mehdi (ə.s) qiyam etdiyində Rəsulullahın yolundan gedəcək. **YALNIZ O (HZ. MEHDİ (Ə.S)), RƏSULULLAH (S.Ə.V)-İN ƏSƏRLƏRİNİ AÇIQLAYACAQ..."** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 191)

Hz. Mehdi (ə.s) bu hikmətli izahatları ilə insanların fərasət və bəsirətlərini açacaq. Açıq şəkildə "Mən hz. Mehdi (ə.s)-am deməyəcək; lakin mənəvi cəhətdən hz. Mehdi (ə.s)-ın varlığına və gücünə işarə edərək insanların gözlərindəki qəflət pərdəsini qaldırıb "Mehdi həqiqətini" anlamalarını təmin edəcək. Hz. Mehdi (ə.s) hz. Mehdi (ə.s)-dan bəhs etdikcə, insanlar onun hz. Mehdi (ə.s) olduğuna səmimi olaraq qərar verəcək və ona mənəvi cəhətdən tabe olmaq istəyəcəklər.

### 462-MEHDİYYƏTİ İZAH ETMƏK ÜÇÜN XALQIN ARASINDA FƏALİYYƏT GÖSTƏRƏR

İmam Sadiq belə buyurur: "...Halbuki, o [HZ. MEHDİ (Ə.S)], ONLARIN BAZARLARINA GEDİB-GƏLƏR. YIĞINCAQLARINDA XALÇALARININ ÜZƏRİNƏ AYAQ BASAR. ALLAHIN İZNİ İLƏ ÖZÜNÜ TANIDANA QƏDƏR onlar onu (hz. Mehdi (ə.s)-ı) tanımayacaqlar". (Mucem-ul Ehadisi İmam Mehdi, 3-cü cild)

### 463-HZ. MEHDİ (Ə.S) AÇIQ ŞƏKİLDƏ ZÜHUR ETMƏDİYİ DÖVRDƏ DƏ İNSANLAR ONDAN FAYDALANACAQ

Hz. Rəsulullah (s.ə.v) "zühurundan əvvəlki dövrdə (qaybət dövründə) hz. Mehdinin varlığının nə kimi bir faydası olacaq?" şəklində soruşulan bir suala belə cavab verdilər:

"Bəni-peyğəmbər olaraq göndərən Allaha and olsun ki, insanlar qaybət dövründə, BULUDLARIN ARXASINDA QALAN GÜNƏŞDƏN FAYDALANDIQLARI KİMİ ONDAN (HZ. MEHDİDƏN) FAYDALANARLAR". (Bihar'ul-Envar, 52-ci cild, səh. 93)

# HZ. MEHDİ (Ə.S) VƏ ƏHLİ-KİTAB

**464-HZ. MEHDİ (Ə.S) YƏHUDİLƏRİN GÖZLƏDİYİ KRAL MƏSİHDİR**

Hz. Əli ibn Əbu Talib belə buyurur: "Vəd edilmiş Mehdi bizdən olacaq və Axırzamanda zühur edəcək. HƏR HANSI MİLLƏT ARASINDA ONDAN BAŞQA GÖZLƏNİLƏN BİR MEHDİ YOXDUR". (Isbat-ül Hüdat, 7-ci cild, səh. 148)

Əbu Abdullah (İmam Cəfəri Sadiq) güldü və belə dedi: "Ey Hişam! Bunları sənə kim öyrətdi?".

Dedim ki: "Bunları səndən öyrənərək bir yerə gətirdim". İmam buyurdu ki: "ALLAHA AND İÇƏRƏM Kİ, BU (HZ. MEHDİ (Ə.S)), İBRAHİM VƏ MUSANIN SƏHİFƏLƏRİNDƏ YER ALAN HƏQİQƏTLƏRDİR". (Usul-i Kafi, Yakub bin İshak El Kuleyni, 1-ci cild, səh. 229)

**465-TÖVRATI VƏ İNCİLİ TƏHRİF EDİLMİŞ QİSİMLƏRİNDƏN TƏMİZLƏYƏR VƏ QURANA UYĞUN HİSSƏLƏRİNİ ORTAYA ÇIXARAR**

İmamı Zaman (hz. Mehdi (ə.s)-ın ədalətli hökumətində, BÜTÜN İLAHİ KİTABLAR İNSANLARIN ÖNÜNƏ ORİJİNAL FORMALARI İLƏ, HEÇ BİR DƏYİŞİKLİK OLMADAN TƏQDİM EDİLƏCƏK. İmam Mehdi (ə.s) Tövrat əhlinə Tövratla, İncil əhlinə İncillə, Zəbur əhlinə Zəburla, Quran əhlinə Quranla hökm verəcək. (Bihar-ül Envar, 52-ci cild, səhifə 351)

**466-YƏHUDİLƏRLƏ ORTAQ İŞLƏR GÖRƏCƏK**

Əhməd ibn Məhəmməd ibn Səid Əl Ukdəh dedi ki: Əli ibn Əl-Həsən Ət-Taymali dediyini köçürdü: Əli ibnu Yusif oğlu Əl-Həsən və Məhəmməd, Sadaan ibni Müslimdən, rəcaldan, Əl-Mufəzəəl ibn Ömərdən dedi: Əbu Abdullah bildirdi: "İMAM MEHDİ ÇAĞIRDIQDA ALLAHDAN İBRANİ DİLİNDƏ KÖMƏK DİLƏYƏCƏK". (El-Gaybet-i Numani, səh.326)

**467-YƏHUDİLƏRƏ TÖVRATIN ƏSLİ İLƏ HÖKM EDƏR**

Ona hz. Mehdi (ə.s) deyilməsinin səbəbi, Şamda olan dağlardan birinə yönəlməsidir. Oradan (ƏSL) TÖVRAT KİTABLARINI ÇIXARACAQ, YƏHUDİLƏRƏ QARŞI DƏLİL GƏTİRƏCƏK. (Suyuti, el-Havi li'l Feteva, II. 81)

Cabir ibn Yezid Əl-Cofi, İmam Məhəmməd Baqirdən rəvayət edir: "...Hz. Mehdi (ə.s)-ın hz. Mehdi (ə.s) deyə adlandırılmasının səbəbi budur ki, gizli işə doğru istiqamətləndiriləcək, TÖVRAT VƏ DİGƏR SƏMAVİ KİTABLARI ANTAKYADA BİR MAĞARADAN ÇIXARACAQ VƏ YƏHUDİLƏR ARASINDA TÖVRATLA ... HÖKM VERƏCƏK". (El-Mehdiyy-il Mev'ud, 1-ci cild, səh. 254-255)

**468-ƏSL TÖVRATI TAPAR VƏ YƏHUDİLƏRDƏN BİR QRUP ONUN VƏSİLƏSİ İLƏ MÜSƏLMAN OLAR**

Ona Mehdi deyilməsinin səbəbi budur. O, yəhudilərin həcc etdiyi Şam dağlarından bir dağın içindəki TÖVRATA DAİR KİTABLARI ÇIXARAR VƏ YƏHUDİLƏRDƏN BİR CAMAAT ONUN ƏLİNDƏ MÜSƏLMAN OLAR. (İmam-ı Suyuti)

**469-XRİSTİANLARA İNCİLİN ƏSLİ İLƏ HÖKM EDƏR**

Cabir ibn Yezid əl-Cofi, İmam Məhəmməd Baqirdən rəvayət edir: "...Hz. Mehdi (ə.s)-ın hz. Mehdi (ə.s) deyə adlandırılmasının səbəbi budur ki, gizli bir işə doğru istiqamətləndiriləcək, Tövrat və digər Səmavi kitabları Antakyada bir mağaradan çıxaracaq və... XRİSTİANLAR ARASINDA İNCİLLƏ HÖKM EDƏCƏK". (El-Mehdiyy-il Mev'ud, 1-ci cild, səh. 254-255)

Hz. Mehdi (ə.s)… Yəhudilər arasında Tövratla, XRİSTİANLAR ARASINDA İNCİLLƏ HÖKM EDƏCƏK. (Cabir ibn Yezid əl-Cofi İmam Məhəmməd Baqirdən rəvayət edir.)

**470-MEHDİYYƏT DÖVRÜNDƏ MÜSƏLMANLAR, YƏHUDİLƏR VƏ XRİSTİANLAR BİRLİKDƏ HÜZUR İÇİNDƏ YAŞAYACAQLAR**

Qab su ilə dolduğu kimi YER ÜZÜ SÜLHLƏ DOLACAQ. İnsanlar arasında bir DÜŞMƏNLİK QALMAYACAQ VƏ BÜTÜN DÜŞMƏNÇİLİKLƏR, QARŞIDURMALAR, QISQANCLIQLAR, ŞÜBHƏSİZ, İTİB GEDƏCƏK. (Sahih-i Müslim, 1/136)

... Cənabı Haqq İslamı necə Bizimlə başlatmışsa onunla (hz. Mehdi (ə.s) ilə) sona çatdıracaq. Necə Bizimlə onlar arasındakı ŞİRK VƏ ƏDAVƏTTƏN (HÜSUMƏT VƏ DÜŞMƏNÇİLİKDƏN) XİLAS OLMUŞ VƏ ÜRƏKLƏRİNƏ ÜLFƏT (DOSTLUQ) VƏ MƏHƏBBƏT (SEVGİ) YERLƏŞMİŞSƏ, (HZ. MEHDİ (Ə.S) GƏLİŞİ İLƏ) YENƏ ELƏ OLACAQ. (Ahir Zaman Mehdisi'nin Alametleri, Celalettin Suyuti, səh. 20)

# HZ. MEHDİ (Ə.S) DÖVRÜNDƏ DİN PEYĞƏMBƏRİMİZ (S.Ə.V) DÖVRÜNDƏKİ KİMİ YAŞANACAQ

**471-İSLAMI PEYĞƏMBƏRİMİZ DÖVRÜNDƏKİ KİMİ ƏSLİ İLƏ YAŞAYACAQ**

**Hz. Peyğəmbər (s.ə.v) ilk öncə İslama necə dəstək oldusa, hz. Mehdi (ə.s) da ən sonda eyni şəkildə İslamı yaşadacaq. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il**

**Muntazar, səh. 27)**

**472-ONUN DÖVRÜNDƏ MƏZHƏBLƏR ARADAN QALXACAQ**

... Dini Peyğəmbər (s.ə.v)-in zamanında olduğu kimi eynilə tətbiq edəcək. **Yer üzündə məzhəbləri qaldıracaq. Xalis, həqiqi dindən başqa heç bir məzhəb qalmayacaq.**

*(Muhammed İBN Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh.186-187)*

**<u>MUHYİDDİN ƏRƏBİ "FÜTÜHAT-ÜL MEKKİYE" ADLI ƏSƏRİNDƏ BU MÖVZUDA BELƏ MƏLUMAT VERMİŞDİR:</u>**

... HZ. MEHDİ (Ə.S) DİNİ PEYĞƏMBƏRİN ZAMANINDA OLDUĞU KİMİ EYNİLƏ TƏTBİQ EDƏCƏK. **YER ÜZÜNDƏ MƏZHƏBLƏRİ QALDIRACAQ. XALİS HƏQİQİ DİNDƏN BAŞQA HEÇ BİR MƏZHƏB QALMAYACAQ.** (Muhammed İBN Rəsul El Hüseyn El Berzenci, Kıyamet Alametleri, səh. 186-187)

**<u>HÜSEYN HELMİ İŞIQ İSƏ "SƏADƏTİ ƏBƏDİYƏ" ADLI ƏSƏRİNDƏ HZ. MEHDİ (Ə.S)-IN BU XÜSUSİYYƏTİNİ BELƏ XƏBƏR VERMİŞDİR:</u>**

HƏZRƏTİ MEHDİ (Ə.S), AXIRZAMANDA DÜNYAYA GƏLƏCƏKDİR. Rəsullulah (s.ə.v)-in soyundan olacaq. İsa əleyhissalamla görüşəcək, **MƏZHƏBLƏRİ QALDIRACAQ, TƏK ONUN MƏZHƏBİ QALACAQ.** (Hüseyin Hilmi Işık, Saadet-i Ebediye, səh. 35)

**473-RƏSULULLAH (S.Ə.V)-İN YOLUNA TAM UYACAQ**

**Rəsulullah (s.ə.v)-in hər etdiyini o da (hz. Mehdi (ə.s)) edəcək: RƏSULULLAH (S.Ə.V) CAHİLİYYƏ TƏMƏLLƏRİNİ YIXDIĞI KİMİ O DA (HZ. MEHDİ (Ə.S) DA) ƏVVƏLKİ TƏMƏLLƏRİ YIXACAQ. O (HZ. MEHDİ (Ə.S)), İslamı yenidən başlayacaqdır.** *(Mikyalu'l Mekarim, 1-ci cild, səh. 57)*

**474-BÜTÜN BİDƏTLƏRİ ORTADAN QALDIRACAQ**

İmam Sadiqdən: **"Mehdi (ə.s) Allahın Peyğəmbərinin etdiyi şeyi edəcək, yəni Peyğəmbər (s.ə.v)-in bütpərəstliyi yox etməsi kimi o da eyni şəkildə mövcud bidətləri yox edəcək və sonra İslamı yenidən quracaq".** (Biharul Envar,  52-ci cild, səh. 352)

**Hz. Mehdi (ə.s) heç bir bidəti saxlamayacaq.**

(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)

**Hz. Mehdi (ə.s)-ın ləğv etmədiyi bidət qalmayacaq.** Axırzamanda eyni Peyğəmbər (s.ə.v) kimi dinin zərurətlərini yerinə yetirəcək".

(Muhammed İBN Resul Al-Hüseyni El Berzenci, Kıyamet Alametleri, səh. 163)

**Bidət**: Dində əslində olmadığı halda, dinə daxil edilən batil adətlərdir.

**475-İNSANLARIN HAQQI İLƏ İBADƏT ETMƏSİNƏ VƏSİLƏ OLAR**

İmam Sadiqdən İmam Zeynəl-Abidin (ə.s)-ın belə buyurduğu nəql edilmişdir: **"ƏGƏR İMAM MEHDİ OLMASA ALLAHA (HAQQI İLƏ) İBADƏT EDİLMƏZ".** (Yenabi'ul- Mevedde, 2-ci cild, səh.217.)

# AXIRZAMANDAKI BƏZİ CAHİL MÜSƏLMANLARIN VƏZİYYƏTİ

**476-AXIRAMANDA ƏSİL ELM ORTADAN QALXIB ONUN YERİNİ CƏHALƏT TUTAR**

Allahu Təala elmi sizə lütfkarlıq etdikdən sonra (yaddaşınızdan) zorla çəkib almaz. LAKİN ALİMLƏRİ, ELMLƏRİ İLƏ BİRGƏ CƏMİYYƏTDƏN GÖTÜRƏR, RUHLARINI ALAR. ARTIQ QURU CAHİL BİR ZÜMRƏ QALAR. XALQ BUNLARDAN DİNİ EHTİYACLARINI SORUŞAR, ONLAR DA (AYƏ, HƏDİSƏ ƏSASLANMADAN) ÖZ DÜŞÜNCƏ VƏ ARZULARINA GÖRƏ FƏTVA VERİB, HƏM ÖZLƏRİ AZAR, HƏM DƏ BAŞQALARINI AZDIRARLAR. (Buhari, Tecrid-i sarih: 2174)

**477-PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN HƏDİSLƏRİNİ GİZLƏTMƏYƏ ÇALIŞARLAR**

Hz. Cabir (r.ə) izah edir: Rəsulullah (s.ə.v) buyurdu ki: "Bu ümmətin SONRADAN GƏLƏNLƏRİ ƏVVƏL GƏLƏNLƏRİNƏ LƏNƏT ETDİYİ VAXT, KİM BİR HƏDİSİ SÖYLƏMƏZ KETMEDERSE (GİZLƏTSƏ) ALLAHIN ENDİRDİYİNİ KETMETMİŞ (GİZLƏTMİŞ) OLAR". (Buhari, İlm 34, 6034)

Əbu Saidil-Hudri izah edir: Rəsulullah (s.ə.v) buyurdu ki: Kim İNSANLARIN DİNİ İŞLƏRİNDƏ ALLAHIN FAYDALI ETDİYİ BİR ELMİ GİZLƏTSƏ, Allah qiyamət günü onu atəşdən parça-parça edər. (Buhari, İlm 34, 6034)

**478-BAŞI TƏRAŞLI, SARIQLI VƏ CÜBBƏLİ BƏZİ ALİMLƏR DƏCCALA UYARLAR**

ÜMMƏTİMDƏN BAŞI SARIQLI YETMİŞ MİN ALİM DƏCCALA TABE OLACAQLAR. (Mevsuatu's sunne, El-kütüb’s-sitte ve Şüruhuha 22, Müsnedu, Ahmed İBN Hanbel 3-4, Tunus: Daru Sahnun, 1992, 22-ci cild, səh. 224)

ŞƏRQDƏN BAŞLARI TƏRAŞLI QÖVMLƏR ÇIXACAQ; DİLLƏRİ İLƏ QURAN OXUYACAQLAR (LAKİN) BOĞAZLARINDAN AŞAĞI KEÇMƏYƏCƏK. ONLAR DİNDƏN YAYDAN OXUN ÇIXDIĞI KİMİ ÇIXACAQLAR. (Râmûz-ul Ehâdîs, Hadîs No: 6294)

**479-SÖYLƏDİKLƏRİNƏ ÖZLƏRİ UYMAYAN ALİMLƏR ÇIXAR**

Qiyamətdə bir din adamı cəhənnəmə atılır. Tanışları ona: "sən dünyada dinin əmrlərini bildirərdin. Nə üçün bu əzaba düşdün?"—deyərlər. O DA: "İNSANLARA “GÜNAHDIR, ETMƏYİN" DEYİB, ÖZÜM EDƏRDİM. "EDİN" DEDİKLƏRİMİ DƏ ETMƏZDİM. BUNUN CƏZASINI ÇƏKİRƏM"—deyər. (Buhari)

Elə bir zaman gəlir ki, ALİMLƏR FİTNƏ ÜNSÜRÜ OLAR. (Ebu Nuaym)

**480-QURANI İZAH EDƏCƏK, AMMA QURANA UYMAYACAQLAR**

Süveyd ibn Qafələ (r.ə)-dən: AXIRZAMANDA TÖRƏMƏLƏR ÇIXACAQ: BEYİNLƏRİ İŞLƏMƏYƏCƏK. DANIŞARKƏN ÇOX GÖZƏL DANIŞACAQLAR. QURAN OXUYACAQLAR, LAKİN İMANLARI QIRTLAQLARINDAN AŞAĞI KEÇMƏYƏCƏK.... **(Buhari, Sahih 3611, 5057,**

**6930, Müslim, 1066, Ebu Davud 4767, Ahmed bin Hanbel, Müsned 1, 81, 113, 131)**

**481-BİDƏTLƏR (DİNƏ SONRADAN ƏLAVƏ OLUNAN XURAFATLAR, HÖKMLƏR) ÇIXARACAQLAR**

BİDƏT SAHİBİ, MƏNƏVİ CƏHƏTDƏN ALÇAQ ŞƏXSLƏRİN YANINDA ELM AXTARMAQ, qiyamət əlamətlərindəndir. (Camiu’s-sağir: 2475) (Kıyamet ve Alametleri, Ömer

Öngüt, səh. 53)

**482-AYƏLƏRƏ VƏ HƏDİSLƏRƏ GÖRƏ DEYİL, ÖZ DÜŞÜNCƏLƏRİNƏ GÖRƏ FƏTVA VERƏRLƏR**

... QURU CAHİL BİR ZÜMRƏ QALAR... ONLAR DA (AYƏ, HƏDİS ARAŞDIRMADAN) ÖZ DÜŞÜNCƏ VƏ ARZULARINA GÖRƏ FƏTVA VERİB, HƏM ÖZLƏRİ AZARLAR, HƏM DƏ BAŞQALARINI AZDIRARLAR. **(Buhari, Tecrid-i sarih: 2174)**

**483-SƏHV FƏTVALARLA BAŞQALARININ DA AZMASINA SƏBƏB OLARLAR**

... Quru cahil bir zümrə qalar. Xalq bunlardan dini ehtiyaclarını soruşar, ONLAR DA (AYƏ, HƏDİS ARAŞDIRMADAN) ÖZ DÜŞÜNCƏ VƏ ARZULARINA GÖRƏ FƏTVA VERİB, HƏM ÖZLƏRİ AZARLAR, HƏM DƏ BAŞQALARINI AZDIRARLAR. (Buhari, Tecrid-i sarih: 2174)

**484-DÜNYƏVİ İŞLƏRİ DAHA ƏHƏMİYYƏTLİ SAYARLAR**

DÜNYAYA QARŞI ZAHİDLİK (DÜNYAYA RƏĞBƏT BƏSLƏMƏMƏK, NƏFSANİ ZÖVQ VƏ ARZUDAN ÖZÜNÜ ÇƏKİNDİRƏRƏK İBADƏTƏ VERMƏK) DİLDƏ QALMADIQCA, TƏQVA DA SÜNİ HALA GƏLMƏDİKCƏ qiyamət qopmaz. (Camiu’s-sağir: 9856) (Kıyamet ve Alametleri, Ömer Öngüt, səh. 53)

**485-HZ. MEHDİ (Ə.S)-IN ZÜHUR ETDİYİNİ QƏBUL ETMƏZLƏR**

Onun (hz. Mehdi (ə.s)-ın) dövründə... Verəcəyi bir çox hökmlərdə sarıqlı din adamlarının məzhəblərinə müxalif çıxacaq. Buna görə ondan (hz. Mehdi (ə.s)-dan) uzaq dayanacaqlar. Çünki ZƏNLƏRİNƏ GÖRƏ, HƏQİQƏTƏN ALLAHIN İMAMLARINDAN SONRA BİR MÜCTƏHİD BURAXMADIĞINI QƏBUL EDƏCƏKLƏR... (Muhyiddin Arabi, "Futuhat-El Mekkiye", 66. Bab, 3-cü cild, səh. 327- 328)

**486-HZ. MEHDİ (Ə.S)-DAN UZAQ DAYANARLAR**

Onun (hz. Mehdi (ə.s)-ın) dövründə din tamamilə şərhlərdən təmizlənmiş olaraq əsil mahiyyətini qazanacaq. VERƏCƏYİ BİR ÇOX HÖKMLƏRDƏ DİN ALİMLƏRİNİN MƏZHƏBLƏRİNƏ MÜXALİF ÇIXACAQ. BUNA GÖRƏ ONDAN (HZ. MEHDİ (Ə.S)-DAN) UZAQ DAYANACAQLAR. Çünki zənnlərinə görə, həqiqətən Allah imamlarından sonra bir müctəhid buraxmadığını qəbul edəcəklər... (Muhyiddin Arabi, "Futuhat-El Mekkiye", 66. bab, 3-cü cild, səh. 327- 328)

**487-İÇLƏRİNDƏ HZ. MEHDİ (Ə.S)-A TƏLƏ QURANLAR OLAR**

İmamı Mehdi (ə.s) çıxdığı zaman ...onun (hz. Mehdi (ə.s)-ın) qılıncı qardaşlarıdır. Əlində qılınc olmasaydı, -YƏNİ QARDAŞLARI OLMASAYDI- ZAMANIN FUKAHASI (FİQH ALİMLƏRİ) ONUN (HZ. MEHDİ (Ə.S)) QƏTLİ İLƏ FƏTVA VERƏRDİLƏR. Lakin Cənabı Haqq onu (hz. Mehdi (ə.s)-ı) kərəmi ilə və qılınc (qardaşları ilə) ilə tathir (təmizləmək, yuyub pak etmək) edəcək, onlar ona (hz. Mehdi (ə.s)-a) etimad edəcəklər. ... (Ramuz el-Hadis, səh. 56,73)

**488-HZ. MEHDİ (Ə.S)-A QARŞI OLARLAR**

**"Fütühat-ül Mekkiye"** adlı əsərində **Muhyiddin Ərəbi əl-Əndülüsi** belə bildirir:

... Mehdi dini Peyğəmbər (s.ə.v)-in zamanında olduğu kimi eynilə tətbiq edəcək. Yer üzündən məzhəbləri qaldıracaq. Xalis və həqiqi dindən başqa heç bir məzhəb qalmayacaq. **ONUN DÜŞMƏNLƏRİ İCTİHAD ALİMLƏRİNİN TƏQLİD EDƏNLƏRİ OLACAQ. Çünki onlar Mehdinin məzhəb imamlarının əksinə hökm etdiyini gördüklərində əyənməyəcəklər, lakin qarşı da çıxa bilməyəcəklər... Onun qılıncı (elmi, mənəvi gücü) qardaşlarıdır.** Qılıncından (elmindən) qorxduqları üçün istər-istəməz hakimiyyətinə boyun əyəcəklər.

**ONUN AÇIQ DÜŞMƏNLƏRİ FUKUHA (FİQH ALİMLƏRİ) OLACAQ. ÇÜNKİ XALQ ARASINDA İMTİYAZLARI QALMAYACAQ. HƏTTA HÖKMLƏRDƏ DƏ ELMLƏRİ AZALACAQ.** Bu imamın gəlişi ilə alimlərin hökmlərdəki anlaşılmazlıqları da aradan qaldırılacaq.. **ƏGƏR ƏLİNDƏ QILINC (ELM) OLMASAYDI FAKİHLƏR ONUN ÖLÜMÜNƏ FƏTVA VERƏRDİLƏR.** Lakin Cənabı Haqq, onu kərəmi ilə və qılınc (elmi) ilə tathir edəcək (təmizləyəcək), onlar ona itaət edəcəklər. Çünki xalq arasında imtiyazları qalmayacaq, hətta ehkam (hökmlər) barəsində də elmləri azalacaq. Mehdinin gəlişiylə alimlərin hökmlərindəki ixtilaflar da

aradan qaldırılacaq. Ondan həm qorxacaqlar, həm də ümid edəcəklər. **ONA ÜRƏKDƏN NİFRƏT EDƏRLƏR. LAKİN BUNA BAXMAYARAQ İSTƏR-İSTƏMƏZ HÖKMÜNÜ QƏBUL EDƏCƏKƏR.** (Muhammed İBN Resul El Hüseyin El Berzenci,Kıyamet Alametleri, 186-187)

**489-ŞİDDƏTLİ FİTNƏLƏRƏ SƏBƏB OLARLAR**

... Onların alimləri göy qübbəsi altındakıların ən şərliləridir. FİTNƏ ONLARDAN ÇIXDI VƏ YENƏ ONLARA dönəcək. (Beyhaki) (Kıyamet ve Alametleri,

Ömer Öngüt, səh. 54)

**490-İÇLƏRİNDƏ PİSLİKDƏ QABAQCILLARI VARDIR**

... ONLARIN ALİMLƏRİ GÖY QÜBBƏSİ ALTINDAKILARIN ƏN ŞƏRLİLƏRİDİR. (Beyhaki) (Kıyamet ve Alametleri, Ömer Öngüt, səh. 54)

**491-İKİÜZLÜ VƏ SAXTAKAR DİN ADAMLARI TÖRƏYƏCƏK**

AXIRZAMANDA QURD OXUCULAR OLACAQ. Kim o zamana yetişsə, şərlərindən Allaha sığınsın. ONLAR ÇOX ÇİRKLİ İNSANLARDIR. RİYAKARLIQ (İKİÜZLÜLÜK) HAKİM OLACAQ, RİYA (İKİÜZLÜLÜK) VƏ NÜMAYİŞDƏN UTANILMAYACAQ. **(Ölüm Kıyamet ve Diriliş, səh. 470)**

**492-QURANI MƏNFƏƏTLƏRİ ÜÇÜN OXUYAN, DİNDƏN MƏNFƏƏT ƏLDƏ ETMƏYƏ ÇALIŞANLAR OLAR**

Kim Quran oxusa (mükafatını) Allahdan istəsin. Çünki SON ZAMANLARDA QURAN OXUYUB (MÜKAFATINI) İNSANLARDAN İSTƏYƏN BƏZİ İNSANLAR TÖRƏYƏCƏK. (Tirmizi; Son Zamanlarla İlgili Hadisler, səh. 12)

İnsanlara elə bir zaman gələcək ki, avam xalq Quran oxuyacaq, özünü ibadətə həsr edəcək, (lakin) bidət əhlinin işləri ilə məşğul olacaqlar; hiss etmədikləri yerdən şirkə düşəcəklər. SÖZ VƏ ELMLƏRİ VASİTƏSİ İLƏ RUZİ ƏLDƏ EDƏCƏKLƏR, DİNİ ALƏT EDƏRƏK DÜNYALIQ ƏLDƏ EDƏCƏKLƏR. MƏHZ BİR GÖZÜ KOR DƏCCALIN PEYKLƏRİ BUNLARDIR. **(Râmûz-ul Ehâdîs, Hadîs No: 6255)**

**493-MEHDİYYƏTİ MÜDAFİƏ EDİRMİŞ KİMİ GÖRÜNMƏLƏRİNƏ BAXMAYARAQ ƏSLİNDƏ HZ. MEHDİ (Ə.S)-A QARŞIDIRLAR**

Əmr ibn Saddan: XALQI (ZAHİRDƏ) MƏNİM ÖVLADIMA DƏVƏT ETSƏLƏR DƏ, MƏNİM ÖVLADIMDAN  UZAQ OLARLAR. BU ELƏ PİS BİR BİRLİKDİR Kİ, ƏXLAQLARI YOXDUR. Zorakılara dəstək olarlar, qəddarlara fitnəni öyrədərlər, hakimlərə qan tökdürərlər. (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 170)

**494-HZ. MEHDİ (Ə.S)-A BÖHTANLAR ATARLAR**

"Əmr ibn Saddan: ... Bu elə pis bir birlikdir ki, əxlaqları yoxdur. Zorakılara dəstəkdirlər, QƏDDARLARA FİTNƏNİ ÖYRƏDƏRLƏR, HAKİMLƏRƏ QAN TÖKDÜRƏRLƏR". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 170)

# HZ. MEHDİ (Ə.S)-I BİZƏ TANIDAN DİGƏR HƏDİSLƏR

**495-HZ. MEHDİ (Ə.S) ƏRƏBCƏ BİLMƏYƏCƏK**

"... O (HZ. MEHDİ (Ə.S)) ƏRƏBCƏ ÇOX YAXŞI DANIŞA BİLMƏZ, lakin əxlaqında ondan fərqli də olmaz. (El-cevabü'l-müstakim amma seele anhü et-türmizi

el-hakim, bayezid, no: 3750, 242b yaprağı) (Kıyamet ve Alametleri, Ömer öngüt,

Hakikat Yayıncılık, səh. 288)

**496-AİLƏSİNDƏN AYRILACAQDIR**

Peyğəmbərimiz (s.ə.v) belə buyurdu: **"Fatimənin soyundan sizə gözəl xəbərlər var!** Mehdi qərbdə çıxacaq və dünyanı ədalətlə dolduracaqdır". "Ya Rəsulullah! Çıxışı nə vaxt olacaqdır?"—deyə soruşuldu. Dedi ki: **"Hakimlərin rüşvət aldığı, insanların əxlaqsız olduğu bir zamanda". "Mehdinin xüsusiyyəti nə olacaqdır?"—deyə soruşuldu.** Dedi ki: **"Ailəsindən və qohumlarından ayrılacaqdır; məmləkətindən uzağa gedəcək və evindən uzaqda yaşayacaqdır".** (Ihqāq al-Haqq, vol. 19, p. 679)

**497-HZ. MEHDİ (Ə.S)-IN BİR ƏLAMƏTİ DƏ, ''SUBAY OLMASI"DIR**

Məsudi belə nəql edir: "Əli ibn Həzmə, İbni Sirac və İbni Əbi Səid İmam Rza (ə.s)-ın hüzuruna çıxdıqlarında Əli İbn Həzmə İmama belə dedi: "Ey Rəsulullahın oğulu, biz, sizdən (Əhli-Beyt imamlarından) belə nəql etmişisiz ki; HƏR İMAM ÖLMƏDƏN ƏVVƏL MÜTLƏQ ÖVLADINI GÖRƏR. (Görəsən bu doğrudurmu?) İmam (ə.s) cavabında belə buyurdu: "Bunu da hədisə əlavə etdinizmi? Qaim (HZ. MEHDİ) XARİC?"

(İsbât-ül Vasiye (Mes'udî), səh. 201)

...Allah ona (HZ. MEHDİYƏ) Rumu, Deyləmi, Sindi, Hindistanı, Qabilşahı və Xəzəri fəth etdirəcəkdir.

(Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 274)

**498-HZ. MEHDİ (Ə.S)-IN QARDAŞI AZ OLACAQDIR**

QARDAŞ-BACISI AZ OLANDIR... *(Risalet ül Mehdi səh.* **161)**

**499-MƏLƏKLƏR HZ. MEHDİ (Ə.S)-A KÖMƏK EDƏCƏKDİR**

İmam Məhəmməd Baqir əleyhissalam belə buyurarkən eşitdim: "Əli Mühəmmədin Qaimi-əleyhimussalam (hz. Mehdi) zühur etdiyində Allah ona müsəvvim (varlıqları nizama qoyan), mürdif (bir-birinin ardınca, bir-birinə tabe), münzəl (endirilmiş, nazil edilmiş) və kərrüb (Allaha ən yaxın olan) MƏLƏKLƏRLƏ KÖMƏK EDƏCƏKDİR. CƏBRAYIL, ONUN

QARŞISINDA OLACAQDIR, MİKAYIL SAĞINDA VƏ İSRAFİL İSƏ SOLUNDA GƏLƏCƏKDİR. Qorxu bir aylıq yoldan onun qarşısından, arxasından, sağından və solundan irəliləyəcəkdir. (Allaha) yaxın mələklər də onun yanında olacaqlar... (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 274)

Allah (c. c) ona (Mehdiyə) ÜÇ MƏLƏKLƏ KÖMƏK EDƏCƏKDİR. Onlar, (Mehdiyə) müxalif çıxanların üzlərinə və arxalarına vuracaqlar. (Ikdu'd Dürer, səh. 12)

**500-ALLAH HZ. MEHDİ (Ə.S)-I CƏBRAYIL VƏ MİKAYIL İLƏ DƏSTƏKLƏYƏCƏKDİR**

**HƏZRƏTİ CƏBRAYIL (Ə.S) VƏ HƏZRƏTİ MİKAYIL (Ə.S) QIRX ALTI MİN (46,000) MƏLƏK İmam Mehdi (hz. Mehdi (ə.s))-ın KÖMƏKÇİLƏRİ VƏ YOLDAŞLARI arasında olacaqdır.** *(Bihar-ül Envar, 19-ci cild, səhifə 284)*

**501-HZ. MEHDİ ÜÇÜN 9313 MƏLƏK ENƏCƏKDİR, BU MƏLƏKLƏR HZ. İSA GÖYƏ YÜKSƏLƏRKƏN YANINDA OLAN MƏLƏKLƏRDİR**

Əbu Abdullah [Cəfər Sadiq] belə buyurdu:

"Əl-Qaim [Mehdi əleyhissalam] üçün DOQQUZ MİN ÜÇ YÜZ ON ÜÇ MƏLƏK ENƏCƏKDİR Kİ, BUNLAR ALLAH İSANI GÖYƏ YÜKSƏLTDİYİNDƏ ONUN YANINDA idilər". (Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 14-cü cild, səh.339)

**502-ALLAHIN HZ. MEHDİ (Ə.S)-A OLAN SEVGİSİ VƏSİLƏSİ İLƏ ZƏLZƏLƏLƏR DAYANACAQDIR**

ONUN (HZ. MEHDİ (Ə.S)-IN) XƏTRİNƏ ZƏLZƏLƏLƏRİ DAYANDIRARAM. (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 70)

**503-HZ. MEHDİ (Ə.S)-IN YEMƏYİ SADƏDİR**

İmam Sadiq (ə.s) buyurmuşdur ki: "... Allaha and olsun ki, HZ. MEHDİ (Ə.S)-IN... YEMƏYİ SADƏDİR". (Bihar-ul Envar, 52-ci cild, səh. 279)

Hz. Mehdi (ə.s)-ın Əmir-ül Möminin Əli əleyhissalam kimi YEMƏYİ SADƏDİR... (Bihar-ul Envar, 52-ci cild, səh. 279)

**504-HZ. MEHDİ (Ə.S)-IN PALTARLARI PARLAQ OLACAQDIR**

Hz. Mehdi (ə.s)-ın) PALTARLARI ALOV KİMİDİR. Üzü bəzən açıq rəng və qızıl kimi parlaq, bəzən daha tünd və ay kimi parlaqdır.

(Bihar-ül Envar, 13-cü cild)

Həsən ibn Məhbubu Zərrad deyər ki: İmam Rza əleyhissalam mənə belə buyurdu: ... (HZ. MEHDİ (Ə.S)-IN) ÜZƏRİNDƏ NURDAN PALTARLAR VARDIR. (Şeyh

Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 207)

**505-HZ. MEHDİ (Ə.S) PEYĞƏMBƏRİMİZ (S.Ə.V) KİMİ AĞ PARLAQ VƏ TƏMİZ PALTARLAR GEYİNƏCƏKDİR**

Aban ibn Tağlib deyir ki: imam Cəfəri Sadiq (ə.s.)-ın belə buyurduğunu eşitdim, mən Qaimi (hz. **Mehdi (ə.s)) görür kimiyəm, Nəcəfin arxasında Rəsulullahın ağ zirehini geyinəcək və zirehi geyindikdən sonra bədəni eynilə Rəsullahın bədəni kimi genişlənəcək. Cənnət ipəklərindən bir paltar zirehi örtəcəkdir...** (İmam Mehdi, Ali İrfan, Velayet Yayıncılık, səh. 94)

Hz. Əlinin nəvələrindən olan İmam Cəfəri Sadiq (ə.s) Peyğəmbərimiz (s.ə.v)-dən köçürdüyü bir hədisdə Axırzamanda zühur edəcək hz. Mehdi (ə.s) ilə əlaqədar olaraq onun Peyğəmbərimiz (s.ə.v) kimi ağ, təmiz və parlaq paltarlar geyinəcəyi bildirilmişdir. Burada cənnət ipəyi təmiz və parlaq görünüşlü olmasını göstərir. “Cənnət ipəyindən” ifadəsinin istifadə edilməsindəki səbəb hz. Mehdi (ə.s)-dakı nuranilik və təmizliyi vurğulamaq üçündür. Yoxsa cənnət ipəyi cənnətə xas bir parçadır. Həmçinin bu hədisdə də hz. Mehdi (ə.s)-ın bədəninin eyni Peyğəmbərimiz (s.ə.v) kimi geniş və heybətli olacağına diqqət çəkilmişdir.

**506-HZ. MUSA (Ə.S)-IN ƏSASI VƏ HZ. SÜLEYMAN (Ə.S)-IN ÜZÜYÜ HZ. MEHDİ (Ə.S)-DA OLACAQDIR**

Abdullah ibn Sinandan, İmam Cəfəri Sadiq əleyhissalamın belə buyurduğunu eşitdim: "Musanın əsası cənnət ağaclarından birinin budağı idi və o Mədyən şəhərinə doğru getmək istəyərkən Cəbrayıl əleyhissalam onu Musaya verdi. O ƏSA ADƏMİN TABUTU İLƏ BİRLİKDƏ TƏBƏRİYYƏ GÖLÜNDƏDİR. NƏ ÇÜRÜYƏRLƏR, NƏ DƏ DƏYİŞƏRLƏR. SONDA QAİM ƏLEYHİSSALAM (HZ. MEHDİ (Ə.S)) QİYAM ETDİYİNDƏ O İKİSİNİ ORTAYA ÇIXARACAQDIR". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 278)

**507-HZ. MEHDİ (Ə.S)-IN AVTOMOBİLİNİN XÜSUSİYYƏTLƏRİ**

Hz. Mehdi (ə.s) mülayim əxlaqlı, gözəl yaradılışlıdır... ONUN ATI, QARANLIQLARDA ON DÖRDLÜK AY KİMİ PARLAYAR. O, ən xeyirli birliyin qarşısında gedər. Onlar Allahın dinindən bərk-bərk tutmuş; onunla Allaha yaxınlaşmağa çalışarlar... (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 171)

İmam Cəfəri Sadiq əleyhissalamın belə buyurduğunu eşitdim: "Mən Qaimi (hz. Mehdi (ə.s)-ı) Kufənin Nəcəfində görür kimiyəm ... DAHA SONRA (HZ. MEHDİ (Ə.S)) AĞ-QARA RƏNGLİ, İKİ GÖZÜNÜN ARASI İŞIQ KİMİ PARLAYAN BİR ATA MİNƏCƏKDİR..." (Abân bin Tağlib)

**508-XARAB OLMUŞ YERLƏRİN ABADLIĞI, ABADLIQ EDİLMİŞ YERLƏRİN DAĞILMASI**

DÜNYANIN XARAB OLMUŞ YERLƏRİNİN ABADLIĞI, ABADLIQ EDİLMİŞ YERLƏRİNİN DAĞILMASI qiyamətin şərt və əlamətlərindəndir.

(Kıyamet Alametleri, səh. 138)

**509-HZ. MEHDİ (Ə.S), İNSANLARI DOSTLUĞA VƏ BİRLİK OLMAĞA ÇAĞIRACAQDIR**

HZ. MEHDİ (Ə.S)-IN ZÜHUR VƏ QİYAMINDA HƏR ŞEY DOSTLUQ VƏ BƏRABƏRLİK OLACAQDIR... *(El-İhtisas (Şeyx Müfid), səh.* 24)

(HZ. MEHDİ (Ə.S) ZAMANINDA) ÜRƏKLƏRDƏKİ KİNLƏR ATILACAQDIR, HƏR YERİ DİNCLİK VƏ TƏHLÜKƏSİZLİK ƏHATƏ EDƏCƏKDİR. (Bihar`ül Envar, 10-cu cild)

**510-HZ. MEHDİ (Ə.S) İNSANLIQ ÜÇÜN BÖYÜK BİR NEMƏTDİR**

HƏZRƏTLƏRİNİN (HZ. MEHDİ (Ə.S)-IN) VARLIĞI BİR NEMƏTDİR; ONUN RƏHBƏRLİYİ BİR BAŞQA NEMƏTDİR. [Şerh-i Tecrid, Tusi, səh. 389 (İran Baskısı)]

**511-HZ. MEHDİ (Ə.S) İSTİ BİR DOST VƏ YOLDAŞDIR**

**… Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir:**

"İmam Mehdi, yağış yağdıran bir buluddur. Çiskinləyən bir yağışdır. **İşıq saçan bir Günəşdir.** İti bir göz, budaqları və yarpaqları bir-birinə sarmaşan bir bağça, gülüstandır. İmam Mehdi, isti bir yoldaş və dost, şəfqətli bir ata, xüsusi bir qardaş, övladlarına bağlı bir ana, fəlakətlərin dörd bir yandan hücum etdiyi zamanlarda Allah qullarının sığınacağıdır" (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

**512-NURU İLƏ BÜTÜN DÜNYANI İŞIQLANDIRAR**

Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir: **"İmam Mehdi üfüqdə doğan bir Günəş kimi nuru ilə bütün aləmi işıqlandırar.** İmam Mehdi parıldayan bütöv aydır, parlaq bir

çıraq, işıq saçan bir nur, zülmət qaranlıqda, şəhərlərin küçələrində, çöllərin düzənliklərində və dənizlərin fırtınasında yol göstərən bir ulduzdur". (İman Ve

Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

## 513-MEHDİ (Ə.S) DÜNYANIN DİRİLİYİ, MÜSƏLMANLARIN QÜRURUDUR

Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir: **"İmam Mehdi ümmətin düzümü, müsəlmanların nizamı, dünyanın diriliyi və möminlərin qürurudur. O (İmam Mehdi), Allahın qoyduğu həddləri müstəqil edər.** Allahın dinini qoruyar. Hikmət, gözəl öyüd və qəti dəlillə insanları Rəbbinin dininə dəvət edər". (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

## 514-HZ. MEHDİ (Ə.S) MEHDİLİK İDDİALARINI QƏBUL ETMƏYƏCƏK; ONA İSTƏMƏDİYİ HALDA BEYƏT EDİLƏCƏKDİR

Hədisi-şəriflərdə hz. Mehdi (ə.s)-a özü istəmədiyi halda beyət ediləcəyi bildirilir. Bu da göstərir ki, hz. Mehdi (ə.s) özünü heç zaman hz. Mehdi (ə.s) olaraq elan etməyəcəkdir. Hətta insanlar ona gəlib "əlamətlər səndə mövcuddur, sən hz. Mehdi (ə.s)-san" dedikləri halda o yenə rədd edəcəkdir. Hz. Mehdi (ə.s)-a tez-tez "əlamətlər səndə mövcuddur" deyərək hz. Mehdi (ə.s) olduğu iddia ediləcəkdir, lakin o, təkidlə deyilən bu iddianı qəbul etməyəcəkdir. Ancaq "ölümlə təhdid" edildikdən sonra, insanların ona beyət etməsini qəbul edəcəkdir.

İnsanlar nəhayət hz. **Mehdi (ə.s)-a üz tutarlar və Rükn ilə Mövqe arasında, özü istəmədiyi halda ona beyət edərlər.** "Əgər qəbul etməsən, boyunu vurarıq" deyərlər. Yer və göy əhli ondan razı olar. (Ali Bin Hüsameddin El Muttaki, Celaleddin Suyuti'nin Tasnifinden Hadisler, Kahraman Neşriyat, səh. 31)

**Hz. Mehdi (ə.s) ancaq təzyiq ilə başa keçməyə razı olacaqdır.** (ElKavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 48)

**Fitnə içindəki insanlar qan axıdıldığı bir zamanda evində oturan hz. Mehdi (ə.s)-a üz tutar və "Bizim üçün artıq qalx" deyər. O isə qəbul etməz, ancaq ölümlə təhdid edildikdən sonra onlar üçün qalxar. Ondan sonra artıq qan tökülməz.** (İbn Ebi Şeybe, VII cild, səh. 531; Abdurrezzak H. 20771, XI cild, səh. 372; Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 52,53)

## 515-MÜSƏLMANLARIN MƏNƏVİ LİDERLİYİ HZ. MEHDİ (Ə.S)-A EVİNDƏ OTURARKƏN GƏLƏCƏKDİR

**Hz. Mehdi (ə.s) bütün haramların halal sayıldığı, böyük bir fitnədən sonra çıxacaqdır. XİLAFƏT (müsəlmanların mənəvi liderliyi), ONA EVİNDƏ OTURARKƏN GƏLƏCƏK və dövründə yer üzünün ən xeyirlisi o olacaqdır.** (El-Kavlu'l Muhtasar Fi

Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)

**516-HZ. MEHDİ (Ə.S) ORTAYA ÇIXDIĞINDA BÜTÜN İNSANLAR ONUN MƏNƏVİ LİDERLİYİ ALTINDA BİRLİK OLACAQDIR**

İman edənlərin əfəndisi (s.ə.v) deyir ki: **"...ALLAH SİZİN ÜÇÜN, SİZİ BİRLƏŞDİRƏCƏK VƏ SİZİ DAĞINIQ HALDA İKƏN BİR YERƏ TOPLAYACAQ BİRİNİ (HZ. MEHDİ (Ə.S)-I) ÇIXARANA QƏDƏR**... **Gözləsəniz, mükafatlandırılacaqsınız və sizin haqsızlığa uğradılmağınızın intiqamını alanın (darvinizmə, materializmə və ateizmə elmi zəmində lazım olan cavabı verəcək) və hüquqlarınızın xilaskarının, o (hz. *Mehdi (ə.s)) olduğunu əminliklə biləcəksiniz..."*** (Kitab-ül Gaybet, [Bihar-ul Envar, 51-ci cild],

Ansariyan Yayıncılık, Derleyen: Muhammed Bakır el-Meclisi, İran-Kum, 2003, səh. 182)

**517-HZ. MEHDİ (Ə.S) İNSANLARIN BÜTÜN PROBLEMLƏRİNƏ HƏLL OLACAQ, HƏR KƏSİN KÖMƏYİNƏ ÇATACAQDIR**

**HZ. MEHDİ (Ə.S) KÖMƏYƏ GƏLƏN VƏ FƏRYADRESDİR (FƏRYAD EDƏNİN KÖMƏYİNƏ ÇATAN, KÖMƏK EDƏNDİR). ALLAH ONU DÜNYADAKI İNSANLARIN İMDADINA ÇATMASI ÜÇÜN GÖNDƏRƏCƏKDİR**... (ElMehdiyy-il Mev'ud, 1-ci cild, səh. 264, 275, 277, 285, 287, 288, 311, 318, 2-ci cild, səh. 11)

**518-HZ. MEHDİ (Ə.S) ZAMANINDA ZALIMLARIN HAKİMİYYƏTİ SONA ÇATACAQDIR**

**HZ. MEHDİ (Ə.S)-IN HÖKMRANLIĞI ZAMANINDA ZALIMLARIN VƏ TƏKƏBBÜRLÜLƏRİN HÖKMRANLIĞI, MÜNAFİQLƏRİN VƏ XAİNLƏRİN SİYASİ NÜFUZU NƏBUD (YOX) OLACAQDIR (SONA ÇATACAQDIR).** (ElMehdiyy-il Mev'ud, 1-ci cild, səh. 252)

**519-HZ. MEHDİ (Ə.S)-IN ÇIXIŞINDAN ƏVVƏLKİ TƏZYİQ MÜHİTİNƏ GÖRƏ, KİMSƏ ALLAHIN ADINI RAHATLIQLA XATIRLAYA BİLMƏYƏCƏKDİR**

Şeyx Tusinin Əl-Emali kitabında: **"Bütün dünya fəsadla dolacaqdır. KİMSƏ ALLAH DEYƏ BİLMƏYƏCƏKDİR. Sonra Uca Allah məndən və mənim ailəmdən bir şəxsi (hz. Mehdi (ə.s)-ı) göndərəcəkdir. Ondan əvvəlkilərin ədalətsizliklə dolduracağı kimi, o da (hz.** *Mehdi (ə.s) da) dünyanı ədalətlə dolduracaqdır". (Kitab-ül Gaybet, [Bihar-ul Envar, cilt 51], Ansariyan Yayıncılık, Derleyen: Muhammed Bakır el-Meclisi, İran-Kum, 2003, səh. 120)*

Şeyx Tusinin Əl-Emali kitabında: **"Dünya elə təzyiq və ədalətsizliklə dolacaqdır ki, KİMSƏ ALLAHIN ADINI AÇIQ ŞƏKİLDƏ SÖYLƏYƏ BİLMƏYƏCƏKDİR. Sonra Allah dünyanı təzyiq və ədalətsizliklə dolu olduğu kimi, dürüstlük və ədalətlə dolduracaq fəzilətli bir birliyi (hz.** *Mehdi (ə.s) camaatını) gətirəcəkdir".* (Kitab-ül Gaybet, [Bihar-ul Envar, 51-ci cild], Ansariyan Yayıncılık, Derleyen: Muhammed Bakır el-Meclisi, İran-Kum, 2003, səh. 186)

**520-İNSANLARIN HZ. MEHDİ (Ə.S)-I TANIYA BİLMƏMƏLƏRİNİN BİR HİKMƏTİ DƏ ALLAHIN HZ. MEHDİ (Ə.S) ÜZƏRİNDƏKİ NƏZARƏTİDİR**

**AMMA ALLAH XALQIN NƏFSLƏRİNƏ QARŞI ZÜLMÜ, CƏFASI VƏ İSRAFI ÜZÜNDƏN, ONU (HZ. MEHDİ (Ə.S)-I) XALQDAN GİZLƏDƏCƏKDİR.** (Şeyh Muhammed ibn İbrahim-i

Numani, Gaybet-i Numani səh. 162)

**521-HZ. MEHDİ (Ə.S) İNSANLARI NURLANDIRACAQ**

**Buludlar günəşin üzünü örtdüyü zaman insanlar günəşdən necə faydalanırlarsa ondan da (hz. Mehdi (ə.s)-dan) elə faydalanarlar.** (Yenabiu'ly-Mevedde, səh. 477)

Hz. Mehdi (ə.s) Allahın onu insanlardan gizlətdiyini, hz. Mehdi (ə.s) olduğunun bilinmədiyi zamanlarda belə elmi, səmimiyyəti, gözəl əxlaqı və Allaha olan dərin bağlılığı ilə insanları işıqlandıracaq, onların ürəklərini Allaha və Quran əxlaqına isitəcəkdir.

**522-HZ. MEHDİ (Ə.S)-IN OLDUĞU EVDƏ, ALLAHIN ADI ÇOX XATIRLANACAQDIR**

Mufəzzəldan, İmam Cəfəri Sadiq əleyhissalamdan eşitdim ki: **"BU ƏMRİN SAHİBİNİN (HZ. MEHDİ (Ə.S)-IN) BİR EVİ VARDIR Kİ O EVƏ "HƏMD EVİ" DEYƏRLƏR".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 216)

Hz. Mehdi (ə.s)-ın evi Allaha çox həmd edilən, ibadət edilən, Allahın razılığının güdüldüyü və Quran əxlaqının dəqiqliklə yaşandığı bir yerdir.

**523-HZ. MUSA (Ə.S), HZ. MEHDİ (Ə.S)-IN FƏZİLƏTLƏRİNİ ÖYRƏNİNCƏ, ''HZ. MEHDİ (Ə.S) OLMAQ ÜÇÜN'' ALLAHA DUA ETMİŞDİR**

**Salam-ul əşəlldən:**

**"HZ. MUSA İBN İMRAN TÖVRATIN BİRİNCİ HİSSƏSİNDƏ ƏLİ MƏHƏMMƏDİN QAİMİNƏ (ƏLEYHİSSALAM) (HZ. MEHDİ (Ə.S)-A) VERİLƏN QÜDRƏT VƏ FƏZİLƏTLƏRİ GÖRÜNCƏ DEDİ Kİ: "RƏBBİM, MƏNİ ƏLİ MƏHƏMMƏDİN QAİMi (HZ. MEHDİ (Ə.S))**

**OLARAQ QƏRAR VER".** Ona belə deyildi: Doğrusu, o (hz. Mehdi (ə.s)), Əhmədin (Peyğəmbərimiz (s.ə.v)-in) nəsilindəndir.

**SONRA TÖVRATIN İKİNCİ HİSSƏSİNƏ BAXINCA EYNİ ŞEYİ GÖRDÜ. EYNİ SÖZÜ TƏKRARLADI VƏ ONA EYNİ CAVAB VERİLDİ. SONRA ÜÇÜNCÜ HİSSƏDƏ DƏ EYNİ ŞEYLƏRİ GÖRÜNCƏ EYNİ SÖZLƏRİ TƏKRARLADI VƏ EYNİ CAVABI ALDI".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 280)

**Elə isə kafirlərə itaət etmə və onlara (Quranla) böyük bir cəhd et. (Furqan surəsi, 52)**

**Yaralandıqdan sonra Allah və elçisinin dəvətinə razılıq edənlər, içlərindən yaxşılıq edənlər və çəkinənlər üçün böyük bir əcr vardır.** (Ali İmran surəsi, 172)

### 524-İNSANLAR HZ. MEHDİ (Ə.S) VƏSİLƏSİ İLƏ SEVGİNİ ÖYRƏNƏCƏKDİR

**Hz. Mehdi (ə.s) zamanında Əsri-Səadətdə olduğu kimi KÜLLƏNMİŞ DUYĞULAR BİR-BİR TUMURCUQLANACAQ, ÇİÇƏK AÇACAQDIR.** (el-Havi l'il-Fetava, səh. 67, 68; Rahbavi, Kıyamet Alametleri, səh. 162, 163)

**(HZ. MEHDİ (Ə.S)) ALLAHIN İCAZƏSİ İLƏ DAŞ KİMİ ÜRƏKLƏRİ YUMŞALDA BİLƏCƏK, KÖMÜR KİMİ RUHLARI ALMAZLAŞDIRA BİLƏCƏK, ölü ruhları imanın nuru ilə dirildə biləcəkdir...** (El-Kavlü'l-Muhtasır, səh. 24; Şaban Döğen Mehdi ve Deccal, səh. 194-195)

Bu hədislərlə hz. Mehdi (ə.s) əvvəlində insanların sevgidən, mərhəmətdən uzaq olacaqları, bəzilərinin ürəklərinin daşlaşacağı, bəzi kəslərin dərinlikdən məhrum olacaqları, ruh gözəlliklərinin azalacağı, ancaq hz. Mehdi (ə.s)-ın zühuru ilə birlikdə insan ruhundakı sevgi, mərhəmət, şəfqət, mehribanlıq kimi bütün gözəlliklərin yenidən həyat tapacağı xəbər verilir.

### 525-HZ. MEHDİ (Ə.S) ZAMANINDA BÜTÜN İNSANLARIN AĞLI AÇILACAQ VƏ ELMLƏRİ ARTACAQDIR

Hz. Mehdi (ə.s)-ın zühurunun ardından ona tabe olan insanlar üzərində səmimiyyət və ağıl artımı olacaqdır. Hz. Mehdi (ə.s) insanların əxlaq və şəxsiyyət olaraq yetkinləşmələrinə vəsilə olacaq bu inkişaf nəticəsində isə insanların Allahın ayələrini anlamaları və anlayışları açılacaqdır.

İmam Baqir (ə.s) belə buyurmuşdur: **"Qaimimiz (hz. Mehdi (ə.s)) qiyam edincə əlini qulların başının üstünə qoyar, beləcə ağıllarını bir yerə toplayar inkişaflarını kamala çatdırar. Allah fikirlərini və hisslərini gücləndirər. Belə ki, özləri ilə Qaim (hz. Mehdi (ə.s)) arasında heç bir maneə qalmaz…" (Yevm'ul-Halas, səh. 269)**

**526-İNSANLARIN ELM VƏ HİKMƏT ÖYRƏNMƏSİNƏ VƏSİLƏ OLACAQDIR**

**HZ. MEHDİ (Ə.S)-IN HAKİMLİYİ (mənəvi liderliyi) DÖVRÜNDƏ HƏR KƏSƏ ELM VƏ HİKMƏT ÖYRƏDƏCƏKLƏR, belə ki;** qadınlar evlərində Allahın kitabı və Peyğəmbər (s.ə.v)-in sünnəsi ilə hökm edəcəklər. *(Bihar`ül Envar,* 52-ci cild, səh. 352)

**527-İNSANLARIN AĞLININ VƏ ÜRƏYİNİN İŞIQLANMASINI TƏMİN EDƏCƏKDİR**

**O dövrdə XALQ KÜTLƏSİNİN AĞIL GÜCÜ TƏMƏRKÜZ (toplanıb sıxlaşacaq) TAPACAQDIR. HZ. MEHDİ (Ə.S) ALLAHIN DƏSTƏYİ İLƏ İNSANLARIN AĞILINI TƏKAMÜLƏ ÇATDIRACAQ (İlahi tərbiyə ilə kamala çatdıracaq) VƏ HƏR KƏSDƏ BİR İŞIQLIQ MEYDANA GƏTİRƏCƏKDİR.** (Usul-u Kafi, 1-ci cild, Kitab'ül Akl, Hadis: 21)

**528-SIĞINANLAR ÜÇÜN KÖMƏKDİR**

Dedi ki: Ey Əmir Əl-Möminin! Hz. Mehdi (ə.s) kimdəndir? Buyurdu ki: Bəni - Xaşimdəndir—ərəblərin uca dağının zirvəsindən. **O ELƏ BİR DƏNİZDİR Kİ, O MƏNA DƏNİZİNDƏ İNSANLAR ELMİ VƏ ƏXLAQİ CƏHƏTDƏN SONSUZ İNKİŞAF EDƏ BİLƏR. ÖZÜNƏ SIĞINANLAR ÜÇÜN KÖMƏKDİR...** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 251)

**529-MÜZƏFFƏRDİR, ASLANDIR**

Dedi ki: Ey Əmir əl-Möminin! Hz. Mehdi (ə.s) kimdəndir? Buyurdu ki: Bəni - Xaşimdəndir—ərəblərin uca dağının zirvəsindən. O elə bir dənizdir ki, ona girən itər. **Ona sığınanlar üçün köməkdir, xalq kinlə dolduğunda onları pak (təmiz) edən mədəndir, ölüm nazil olduğunuda qorxmaz, ölüm ona çatdığında sarsılmaz, mübarizə meydanından əsla geri çəkilməz.** TƏCRÜBƏLİDİR, QALİBDİR, MÜZƏFFƏRDİR, ASLANDIR, MÖHKƏMDİR, QÖVMÜNÜN DİRƏYİDİR, CƏSURDUR, Allahın elm qılıncıdır, liderdir, hər kəsi ətrafında toplayar, ucalıq və şərəfin qaynağı olan evdə böyümüşdür, onun ucalığı ən zadəgan ucalıqdan qaynaqlanar. (Şeyh Muhammed ibn İbrahim-i Numani,

Gaybet-i Numani, səh. 251)

**530-HZ. MEHDİ (Ə.S)-IN YANINDA TƏXMİNƏN 30 YOLDAŞI OLCAQDIR**

...Əbu Basar Əbu Abdullah (Cəfər Sadiq)-dən belə rəvayət etmişdir:

«Bu işin sahibi (Mehdi aleyhissalam)-ın itməsi qaçılmazdır. Qeyb olması əsnasında, bir küncə çəkilməsi qaçılmazdır. <u>**KÜNCÜNƏ ÇƏKİLDİYİ MƏNZİL, NƏ GÖZƏL BİR YERDİR.**</u> **OTUZ ADAMIN ARASINDA OLMAQ, TƏKLİK DEYİLDİR»** (Usul-u Kafi, Hüccet Kitabı, 16-(899))

**531-HZ. MEHDİ (Ə.S) HZ. XIDIR (Ə.S) VƏ HZ. ZÜLQƏRNEYN (Ə.S)-A BƏNZƏYƏCƏKDİR**

Əhməd ibn İshaq deyər ki: "İmam Əsgəri əleyhissalamın hüzuruna getdim ... Həzrət buyurdu ki:

... **Ey Əhməd ibn İshaq! O (HZ. MEHDİ (Ə.S) BU ÜMMƏTDƏ "XIDIR" ƏLEYHİSSALAM VƏ "ZÜLQƏRNEYN" KİMİDİR...** (Kemal-üd Din 2-ci cild səh. 384) (hz. Mehdi Aleyhisselam, Abdullah Turan, Al-i Taha, səh. 157)

Hədisdə verilən məlumat Qurandakı hz. Zülqərneyn (ə.s) və hz. Xıdır (ə.s) hekayələri digər tərəfdən də hz. Mehdi (ə.s)-a da işarə etdiyini göstərir.

Bu baxımdan hz. Mehdi (ə.s)-ın da hz. Xıdır (ə.s) kimi olacağı, onun əxlaqını və tərbiyəsini götürəcəyi; onun kimi Ledun elmini biləcəyi və bu elmlə hərəkət edəcəyi aydın olur.

Həmçinin Qurandakı hz. Xıdır (ə.s) qissəsində hz. Musa (ə.s)-ın hz. Xıdır (ə.s)-ın hərəkətlərinin hikmətini bilməyərək davrandığı kimi Axırzamanda da insanlar ledun elmi ilə hərəkət edən hz. Mehdi (ə.s)-ı lazımi kimi anlayıb təqdir edə bilməyəcəklər. Hz. Mehdi (ə.s) da insanlar tərəfindən səhv başa düşüləcək, buna görə də xalq ona böyük reaksiya verəcəkdir. Ancaq əslində hz. Mehdi (ə.s)-ın bütün hərəkətləri Allahın lütfü ilə gizli elm və hikmətlərlə dolu olacaqdır.

Peyğəmbərimiz (s.ə.v)-in digər hədislərində də Kəhf qissəsində işarəvi mənada başdan sona qədər insanları dəccalın fitnəsindən qurtaran hz. Mehdi (ə.s)-a işarə etdiyi bildirilmişdir. Yuxarıda yer alan hədis və Kəhf qissəsinin Axırzamana işarə etdiyi ilə əlaqədar aşağıda yer alan bütün bu hədislər hz. Mehdi (ə.s)-ın, Kəhf qissəsində izah edilən hz. Zülqərneyn (ə.s) kimi bütün dünyaya hakim olacağını da göstərir:

Sizdən kim dəccala çatsa KƏHF SURƏSİNİN ƏVVƏLİNİ ONA OXUSUN, bu surənin sonu dəccalın fitnəsindən qurtuluşunuzdur. (Sünen-i Ebu Davud, 5/121)

**532-HZ. MEHDİ (Ə.S)-IN DƏRSLƏRİNİ DİNLƏYƏNLƏR SƏHƏRİ ELMLİ AÇACAQLAR**

**... (Onun (hz.** **Mehdi (ə.s)-ın) lütfü sayəsində) GECƏ CAHİL, QORXAQ VƏ XƏSİS OLAN ADAM SƏHƏRƏ ELMLİ, CƏSUR VƏ SƏXAVƏTLİ ÇIXACAQDIR. (Allahın) köməyi onun (hz. Mehdi (ə.s)-ın) qarşısında gedəcəkdir… Allahın elçisinin addımlarını izləyəcək və heç səhv etməyəcəkdir; O ((hz. Mehdi (ə.s)) görmədən onu dəstəkləyən bir mələk olacaq, bezəni ayağa qaldıracaq və zəifə kömək edəcək, hərəkətləri sözlərinə görə olacaq və sözləri əməllərinə görə olacaqdır...** (Al-Futuhatu'l Makkiyah, səh. 6)

**533-MÜNAFİQLƏR HZ. MEHDİ (Ə.S)-DAN ÇƏKİNƏCƏKLƏR**

**DAHA BİR ÇOX İNSAN QURANDAN ÇOX ONUN (HZ. MEHDİ (Ə.S)-IN) QORXUSUNDAN GÜNAHLARDAN ÇƏKİNƏCƏKDİR...** (Al-Futuhatu'l Makkiyah, səh. 6)

İnsanların bir qismi hz. Mehdi (ə.s)-ın güclü fərasətindən, bəsirətindən və ağılından çox çəkinəcəklər. Buna görə özlərini iman edibmiş kimi göstərəcək və müsəlman kimi yaşamaq məcburiyyətində qalacaqlar. Əxlaqsızlıq etməyə gücləri və cəsarətləri çatmayacaqdır.

**534-HZ. MEHDİ (Ə.S)-IN GECƏ İBADƏTİ (DƏRSLƏRİ)**

Nuaym ibn Hammad, Əbu Cəfərdən belə rəvayət etmişdir:...(HZ. MEHDİ (Ə.S.)) GECƏLƏRİ İBADƏTLƏ MƏŞĞUL OLUB, gündüzləri gizli qalacaqdır... (Ukayli "En-Necmu's-sakıb fi Beyanı Enne'l Hz. Mehdi min Evladı Ali ibn Ebi Talib Ale't-Temam ve'l kamal")

Peyğəmbərimiz (s.ə.v)-in gecə ibadət etdiyi kimi hz. Mehdi (ə.s) və tələbələri də təbliğ fəaliyyətlərini yalnız gündüz deyil; internet, televiziya və radio kimi vasitələrlə gecə də davam etdirəcəklər.

Doğrusu GECƏ NƏŞƏSİ (gecə ibadəti, insanın daxili dünyasında yaratdığı) təsir baxımından daha qüvvətli, oxumaq baxımından daha möhkəmdir. (Müzəmmil surəsi, 6)

Onlar gecələr ibadət edib az yatırdılar. Sübh çağı isə bağışlanma diləyirdilər. (Zariyat surəsi, 17-18)

**535-HZ. MEHDİ (Ə.S) İSLAMIN SONU OLACAQDIR**

Hz. Mehdi bu ümmətin ortası, hz. İsa da axırı olacaqdır. Ortadan qeyd etmək, Mehdinin hz. İsadan az müddət əvvəl gələcəyini ifadə etmək üçündür. Hz. İsa da, ondan dərhal sonra gəldiyi üçün axır olaraq səciyyələndirilmişdir... Peyğəmbərimiz (s.ə.v): “Nəfsim əlində olan Allaha and içərəm ki, Mehdinin atası Qureyşidir. Əgər istənilsəydi onu ən son cəddinə qədər sayardım, ÇÜNKİ HZ. MEHDİ İSLAMIN SONU OLACAQDIR”—DEYƏ BUYURMUŞDUR. (El-kavlu’l muhatasar fi alamet-il mehdiyy-il muntazar, Hadis no 42)

**536-RƏFTARI, BƏNİ-İSRAİL ÜLƏMASINA BƏNZƏYƏR**

**Deyildi ki: "Ya Rəsulullah, o gün insanların imamı kimdir?" Buyurdu ki: "İmam Mehdi, mənim övladımdan qırx yaşında, üzü parlaq bir ulduz kimi olan bir kəsdir. RƏFTARI BƏNİ-İSRAİL ÜLƏMASINA BƏNZƏYƏR. Ərşdəki xəzinələri çıxarar və şirk diyarlarını (mənən) fəth edər".** (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / El-Kuleyni, 1-ci cild)

**537-HZ. MEHDİ "ƏSSƏLAMU ƏLEYKƏ YA BAKİYYƏTƏLLAH" ŞƏKLİNDƏ SALAMLANACAQDIR**

Kafi əsərindən, Biri Əbu Abdullah [Cəfər Sadiq əleyhissalam]-a, əl-Qaim [Mehdi aleyhissalam]-ın imrətul-möminin (möminlərin nüfuzu) adı ilə salamlanıb salamlanmayacağını soruşdu.

Buyurdu ki:

"Xeyr! Bu, Allahın əmir əl-mömininə verdiyi elə bir addır ki, ondan əvvəl və sonra başqa heç kim bu adla adlandırılmamışdır".

"Allaha fəda olum, yaxşı onu necə salamlayacağıq?"—dedim.

"ƏSSƏLAMU ƏLEYKƏ YA BAKİYYƏTƏLLAH (SALAM OLSUN SƏNƏ, EY ALLAHIN BAKİYƏSİ) ŞƏKLİNDƏ"—dedi və ardınca ayəni oxudu".

Kitabül-Qaybəyə alınan bir hədisdə əl-Qaim [Mehdi əleyhissalam]-ın belə buyuracağı nəql edilər: "Mən yer üzündəki Bakiyyətullaham. (Mən Allahın yer üzündəki bakiyəsiyəm)".

Digər bir xəbərdə [Mehdi əleyhissalam]-ın zühur etdiyi zaman sözü gedən ayəni oxuyacağı və "Mən Allahın bakiyəsi və hüccətiyəm" deyəcəyi rəvayət edilmişdir. Beləcə onu ancaq "Salam olsun sənə, ey Allahın yer üzündəki bakiyəsi (Bakiyyətullah)" şəklində salamlayacaqlar. (Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 24-cü cild, səh. 211–212)

**538-HZ. MEHDİ (Ə.S)-IN RUHU ALLAHIN YARATDIĞI ON DÖRD NURDAN BİRİDİR**

İqmalü-d Dində qeyd edildi:

İbn İdris; atası Muhəmməd ibn Hüseyn ibn Zeyd, Həsən ibn Musa, Əli ibn Səmaya, Əli ibn Həsən ibn Ribat, onun atası, Mufaddal vasitəsilə rəvayət edər:

İmam Sadiq [əleyhissalam] buyurdu ki:

"Şanı uca olan Allah məxluqatı yaratmadan on dörd min il əvvəl, on dörd nur yaratdı və onlar bizim ruhlarımızdır".

Ona "Ey Rəsulullahın övladı, on dörd ilə nəzərdə tutulanlar kimdir?" deyilincə belə cavab verdi:

"Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn və onların soyundan gələn imamlardır. ONLARIN SONUNCUSU ƏL-QAİM [MEHDİ ƏLEYHİSSELAM]-dır ki, qaybətindən sonra qıyam edərək dəccalı (mənəvi cəhətdən) öldürəcək, yer üzünü hər cür zülm və haqsızlıqdan təmizləyəcəkdir". (Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 15-ci cild, səh. 23)

# HZ. İSA (Ə.S) VƏ HZ. MEHDİ (Ə.S)

**539-DƏCCALİYYƏTƏ HZ. İSA (Ə.S) SON QOYACAQDIR**

Allahın düşməni olan MƏSİHİ DƏCCAL, İSA ƏLEYHİSSALAMI GÖRÜNCƏ, DUZUN SUDA ƏRİDİYİ KİMİ ƏRİYƏR. Hz. İsa (ə.s) onu tərk edib buraxsa belə həlak olana qədər əriyib gedəcəkdir. Lakin Allah onu şəxsən İsa Əleyhissalamın əli ilə (fikirlə) yox edəcəkdir. (Müslim, Kitabü'l Fiten, səh. 34)

... Dəccal ortalığa fitnə salarkən Cənabı Haqq, Məsih Məryəm oğlu İsanı göndərər... Nəfəsini dərk edən hər kafir mütləq yox olar. İSA (Ə.S) DƏCCAL İLƏ LÜDD QAPISINDA (BEYT-ÜL MAQDİSƏ (MƏSCİDİ-ƏQSA) YAXIN BİR DİYAR) QARŞILAŞAR VƏ ONU (fikirlə) YOX EDƏR. (Sahih-i Müslim; Büyük Fitne Mesih-i Deccal, Saim Güngör, səh. 104)

**540-HZ. İSA (Ə.S) HZ. MEHDİ (Ə.S)-A KÖMƏK EDƏCƏKDİR**

**Hz. İsa Peyğəmbər (ə.s) İMAMI ZAMAN (HZ. MEHDİ (Ə.S))-A KÖMƏKÇİ OLMAQ, ONA BAĞLILIĞINI DİLƏ GƏTİRMƏK və onun arxasında namaz qılmaz üçün göydən enəcəkdir.** (Şeyh Sadık, Al-Amaali, Oturum 39, səhifə 181; İküd'dürer, səh.

157 ve 230)

**541-HZ. İSA (Ə.S) HZ. MEHDİ (Ə.S)-I KİTABLARINDAN DA TANIYACAQDIR**

HZ. İSA (Ə.S) ONU (SANDIĞI) GÖTÜRÜB AÇACAQ VƏ İÇİNDƏ BİR MÖHÜR, MİN KİTAB TAPACAQ, bu kitablarla şəriəti (Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) canlandıracaqdır. (Risalet'ül Meşrep elverdi fi mezhebi

bil Mehdi, Ali bin Sultan Muhammed-el Kari, səh. 4 -Enis el-Cülesci kitabından)

**542-HZ. İSA (Ə.S) VƏ HZ. MEHDİ (Ə.S) GÖRÜNÜŞ VƏ ƏXLAQ CƏHƏTDƏN BİR-BİRLƏRİNƏ ÇOX BƏNZƏYƏCƏKLƏR**

Abdullah ibn Zamrə, İbni Mati-i Himyəri (Qab-ul Ahbar)-dan nəql edərək belə dedi: "... Qiyam edəcək (Qaim) hz. Mehdi (ə.s) Əlinin soyundandır. O (hz. Mehdi (ə.s)) bu yer üzünü tamamilə başqa bir hala gətirəcəkdir. Rum və Çinin xristiyanlarının əleyhində İsa ibn Məryəm (ə.s) ilə dəlil gətirəcəkdir. Qaim Mehdi (ə.s), Əlinin nəsilindəndir. (Seyiddir)

XEYİRDƏ, GÖRÜNÜŞDƏ VƏ ƏXLAQDA ƏN ÇOX HZ. İSA (Ə.S)-A BƏNZƏYƏN ODUR (HZ. MEHDİ (Ə.S)-DIR). Allah peyğəmbərlərə verdiyi (əzəməti) ona da verəcəkdir. Ona fəzilətlər və zinət verəcəkdir... (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh.169)

**543-HZ. İSA (Ə.S) HZ. MEHDİ (Ə.S)-IN ARXASINDA NAMAZ QILACAQDIR**

Naim Əbu Səiddən təxric etdi, dedi Rəsulullah (s.ə.v) buyurar: ARXASINDA MƏRYƏM OĞLU İSANIN NAMAZ QILACAĞI ADAM BİZDƏNDİR. (HZ. MEHDİ (Ə.S)-DIR). (Kitabül Burhan fi Alametil Mehdiyyil Muntazar, səh. 78)

Buxari və Müslim Əbu Xureyrədən təxric etdi. **Buyurdu: MƏRYƏM OĞLU İSA (Ə.S) ARANIZA ENDİYİNDƏ VƏ İMAMINIZ SİZDƏN (HZ. MEHDİ (Ə.S)) OLDUĞUNDA, GÖRƏK NƏ EDƏRSİNİZ?** *(Kitabül Burhan fi Alametil Mehdiyyil Muntazar, səh. 79)*

Əli ibn İbrahim, Şəhər ibn Havşəbdən belə rəvayət edər: ... "HZ. İSA (Ə.S) QİYAMƏTDƏN ƏVVƏL DÜNYAYA ENƏCƏKDİR. ... HZ. İSA (Ə.S) HZ. MEHDİ (Ə.S)-IN ARXASINDA NAMAZ QILACAQDIR. Haccac: "Nələr söyləyirsən sən? Bunu haradan bilirsən ki?" —deyə soruşduqda; "Bu hədisdir"—dedim, "Mən bu hədisi Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talibdən eşitdim!" Bundan sonra: "Vallah tam qaynağından eşitmisən!" dedi. (Kummi Tefsiri, 1-ci cild, səh. 158)

**544-HZ. İSANIN HZ. MEHDİNIN ARXASINDA NAMAZ QILACAĞI HƏDİS TƏMİZ QAYNAQDAN KÖÇÜRÜLÜB**

Təfsirul-Qummidə qeyd edildi:

Qasım ibn Məhəmməd; Süleyman ibn Davud əl-Minkari, Əbu Həmzə vasitəsilə Şehr ibn Havşəbdən rəvayət edər:

"İsa [əleyhissalam] qiyamət günündən əvvəl dünyaya enəcək və beləcə ölmədən əvvəl ona iman etməyən qalmayacaqdır. Yenə o, Mehdi [əleyhissalam]-ın arxasında namaz qılacaqdır".

Haccac mənə: "Nə danışırsan, bu xəbəri haradan köçürürsən?"—dedi.

"Bunu mənə Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib rəvayət etdi" —dedim.

"Allaha and olsun ki, pak bir qaynaqdan köçürürsən" deyə cavab verdi. (Meclisî, Bihârü'l-Envâr, Beyrut, 1404, 14-cü cild, səh. 349-350)

**545-HZ. İSA (Ə.S) HZ. MEHDİ (Ə.S)-A TABE OLACAQDIR**

Rəsulullah (s.ə.v) səadətlə belə buyurmuşdur: "Daim ümmətimdən bir camaat qiyamətə qədər haqqı yüksəltmək üçün fikri mübarizə aparacaq, MƏRYƏM OĞLU İSA (Ə.S) YER ÜZÜNƏ ENƏCƏKDİR. ƏMRLƏRİ (HZ. MEHDİ (Ə.S)) ONA (HZ. İSA (Ə.S)-A) "BİZƏ NAMAZ QILDIR" DEDİKLƏRİ ZAMAN, "XEYR" DEYƏCƏKDİR ... VƏ "İMAM MEHDİNİ" İMAMLIĞA KEÇİRƏR. (Sahih-i Müslim, 1-ci cild, səh. 209)

İbni Əbi Şeybə, Musannəfində, İbni Şirindən nəql eylədi: **Dedi ki: Hz. Mehdi (ə.s) bu ümmətdəndir VƏ HZ.** *İSA (Ə.S)-A İMAM OLACAQDIR.* (Kitabül Burhan fi Alametil Mehdiyyil Muntazar, səh. 79)

# HZ. MEHDİ (Ə.S)-IN TƏLƏBƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

### 546-SEÇİLMİŞ KƏSLƏRDİR

Onun (HZ. MEHDİ (Ə.S)-IN) YANINA GƏLƏNLƏR QAÇILMAZ OLARAQ SEÇİLƏCƏKLƏR, ayrılacaqlar və ələnəcəklər. Əksəriyyəti bu seçilmədən keçə bilməyəcəkdir. (Gaybet'ül Numani, Bölüm 12, səhifə 299)

### 547-TƏHSİLLİ, MƏDƏNİ KƏSLƏRDİR

Hz. Mehdi (ə.s)-ın KÖMƏKÇİLƏRİ ZADƏGAN VƏ TƏHSİLLİ OLACAQLAR. (El-Melahim ve el Fitan, səhifə: 205)

### 548-ÇOX MÜBARƏK İNSANLARDIR

Ata ibn Səiddən İbni Əşazın əmir olduğu günlərdə Əbdürrəhman əl-Hadrami xütbəsində belə deyirdi: Rəsulullah (s.ə.v)-dən belə rəvayət etdiyini eşitdim: "ÜMMƏTİMİN SONUNDA ELƏ KƏSLƏR OLACAQDIR Kİ, ÜMMƏTİMİN İLKLƏRİNƏ VERİLƏN SAVABIN EYNİSİ ONLARA DA VERİLƏCƏKDİR. Fitnə əhli ilə (fikirlə) mübarizə apararlar və pislikdən çəkindirərlər. ." (İbn Hacer Askalani, Metalib-u Aliye)

### 549-İGİD KƏSLƏRDİR

(Hz. Mehdi (ə.s)-ın) DOSTLARI İGİD, ŞÜCAƏTLİ, SALEH, İMANLI KƏSLƏRDİR, ONA İTAƏTDƏ ÇALIŞQANDIRLAR. Hara və hansı işə yönəlsələr mütləq zəfərə çatarlar... (Bihar'ul- Envar, 52-ci cild, səh. 279 ve 53-cü cild, səh.12; İkmal'udDin, 2-ci cild, səh. 367)

### 550-ARALARINDA DÜNYANIN FƏRQLİ YERLƏRİNDƏ YAŞAYANLAR OLACAQDIR

UZAQ YERLƏRDƏKİ TƏLƏBƏLƏRİ HZ. MEHDİ (Ə.S)-A BEYƏT EDƏCƏKDİR. Zülmü və zalımları fikirlə təsirsizləşdirəcəklər, ölkələr düzələcəkdir... (Ukayli "En-Necmu'ssakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali ibn Ebi Talib Ale't-Temam ve'l kamal)

### 551-ƏRƏB DEYİLDİRLƏR

HZ. MEHDİ (Ə.S)-IN KÖMƏKÇİLƏRİ ƏRƏB OLMAYACAQDIR. Digər millətlərdən olacaqdır... (Muhammed İbn Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 187)

### 552-MEHDİ (Ə.S)-A TAM DƏSTƏK OLARLAR

Hz. Mehdi (ə.s)-ın tələbələri, HZ. MEHDİ (Ə.S)-ı (fikri) MÜBARİZƏLƏRİNDƏ DƏ DƏSTƏKLƏYƏCƏKLƏR, istəklərini yerinə yetirəcəklər... (Mikyal el-Mekarim, cild:1, səhifə: 65)

**553-ƏXLAQLARI ÇOX MÜKƏMMƏLDİR**

Onun (hz. Mehdi (ə.s)) TƏLƏBƏLƏRİNİN TƏBİƏTİ TƏMİZ VƏ QÜSURSUZ OLACAQDIR. Riyakarlıqdan və bütün digər çirkinliklərdən təmizlənmiş olacaqlar. (Bihar-ül Envar, 52-ci cild, səhifə 35)

**554-ALLAH ONLARIN ÜRƏKLƏRİNİ PİS ƏXLAQDAN TƏMİZLƏMİŞDİR**

Onların (hz. Mehdi (ə.s)-ın tələbələrinin) ÜRƏKLƏRİ PİSLİK, QISQANCLIQ VƏ ƏDAVƏTDƏN TƏMİZLƏNMİŞ VƏ QÜSURSUZ OLACAQDIR. (Bihar-ül Envar, 52-ci cild, səhifə 35)

**555-ÇOX GÜCLÜ BİR İMANA SAHİBDİRLƏR**

İmam Zaman (hz. Mehdi (ə.s))-ın tələbələrinin HƏR ŞEYƏ QADİR ALLAHA ZƏRRƏ QƏDƏR ŞÜBHƏSİ OLMAYACAQ və ONU ONUN TANINMASI LAZIM OLDUĞU KİMİ TANIYACAQLAR. (Bayaan Fi Akhbaar -e-Mahdi Aakher al -Zamaan ( a .s.) , Bölüm 5; Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 65)

**556-ALLAHDAN ÇOX QORXARLAR**

Onlar (hz. Mehdi (ə.s)-ın tələbələri) İLAHİ QORXUDAN ÜRPƏRƏRLƏR. (Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 65)

**557-RUHƏN VƏ FİZİKİ CƏHƏTDƏN ÇOX SAĞLAM İNSANLARDIR**

İmam Məhəmməd Baqir və İmam Cəfər Sadiq hz. Mehdi (ə.s)-ın köməkçiləri haqqında belə buyurmuşdur: "Onlar dünyanın şərqini və qərbini ələ keçirəcəklər. ONLARDAN HƏR BİRİNİN QIRX İNSAN QƏDƏR GÜCÜ VARDIR. ÜRƏKLƏRİ DƏMİR KİMİDİR. ..." (Bihar-ul Envar, 52-ci cild, səh. 340)

**558-MƏNƏVİ TƏRƏFLƏRİ ÇOX GÜCLÜDÜR**

Onların (hz. Mehdi (ə.s)-ın tələbələrinin) RUHLARI ÇIRAQLAR KİMİ İŞIQLIQDIR VƏ ÜRƏKLƏRİ DƏ İŞIQLIDIR. (Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 65)

**559-ÇOX TƏVƏKKÜLLÜDÜRLƏR**

Onlar (hz. Mehdi (ə.s)-ın tələbələri) hər şeyə qadir olan ALLAHA TAMAMİLƏ TƏSLİM OLACAQLAR. (Bihar-ül Envar, 52-ci cild, səh. 35 & səh. 311, Oyoon-o-Akhbaar

al-Reza (as)'dan aktarıyor.)

**560-BÜTÜN HƏYATLARINI ALLAHA HƏSR EDƏRLƏR**

Gecələrini RAHATLIQLA KEÇİRMƏK ƏVƏZİNƏ onlar (hz. Mehdi (ə.s)-ın tələbələri) Rəblərinə ibadət edərək keçirəcəklər. (Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 65)

**561-GECƏLƏRİNİ İBADƏTLƏ KEÇİRƏRLƏR**

**... ONLAR gündüz aslan, GECƏLƏR DƏ ABİDDİRLƏR*...** *(Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh.* **57-68)**

**562-ÇOX SƏMİMİDİRLƏR**

Onların (hz. Mehdi (ə.s)-ın tələbələrinin) HAMISI SƏMİMİ və sadiq olacaqdır. (Bihar ül-Envar, 52-ci cild, səhifə 283 Kamaal al-Deen'den aktarıyor.)

**563-SON DƏRƏCƏ CƏSUR VƏ QORXMAZDIRLAR**

İmamı Zaman (hz. Mehdi (ə.s))-ın TƏLƏBƏLƏRİ ASLANLARDAN DAHA CƏSUR VƏ MİZRAQDAN DA DAHA İTİ OLACAQLAR. (Mikyaal əl-Maqaarəm, cild 1, səh. 65)

Onların (hz. Mehdi (ə.s)-ın tələbələrinin) ÜRƏKLƏRİ POLADDAN DAHA GÜCLÜ OLACAQDIR. Onların hər biri 40 güclü adama bərabər olacaqlar. (Mikyaal alMakaarem, 1-ci cild, səh. 65)

**564-ONLARA EDİLƏN TƏZYİQLƏRDƏN QORXUB ÇƏKİNMƏZLƏR**

Hz. Mehdi (ə.s) əlini köməkçilərinin çiyni ilə sinəsi arasına çəkəcək, BELƏCƏ ONLAR HAQQLARINDA VERİLƏN HEÇ BİR HÖKMDƏN ÇƏKİNMƏYƏCƏKLƏR, HEÇ BİR QƏRAR ONLARA ÇƏTİN GƏLMƏYƏCƏKDİR. (Bihar-ül-Envar, cild: 52, səhifə: 345, El Melahim va el Fitan, səhifə: 205; Mikyaal elMekarim, 1-ci cild, səh.144/235)

**565-BÜTÜN TƏZYİQLƏRƏ BAXMAYARAQ HZ. MEHDİ (Ə.S)-IN YANINDAKILAR QORXUYA DÜŞMƏZLƏR**

Hz. Əlidən izah edildiyinə görə bir nəfər ona hz. Mehdi (ə.s)-ı soruşdu. Hz. Əli isə "O (hz. Mehdi (ə.s)), Axırzamanda çıxacaqdır. Adamın "Allah" dediyi üçün ölümə məhkum ediləcəyi bir zamanda gələcəkdir"—deyə cavab vermişdir. Ardınca "ALLAH, ONUN ƏTRAFINDA HEÇ BİR ŞEYDƏN QORXMAYAN VƏ HEÇ BİR MƏNFƏƏT ÜÇÜN SEVİNMƏYƏN BİR BİRLİK YARADACAQDIR". (Sıddık Rasan Han, el-İzan, səh.128)

**566-DÜNYƏVİ NƏ MADDİ, NƏ DƏ MƏNƏVİ EHTİRASLARI OLACAQDIR**

Ey Əbu Hüreyrə! Bu birlik (HZ. MEHDİ (Ə.S) CAMAATI) çətin bir yola girərək peyğəmbərlərin dərəcəsinə qovuşarlar. **ALLAH ONLARI DOYURDUQDAN SONRA ACLIĞI, GEYİNDİRDİKDƏN SONRA ÇILPAQLIĞI, İÇİRDİKDƏN SONRA SUSUZLUĞU SEÇƏRLƏR; ALLAHIN QATINDAKINA ÜMİDLƏRİNİ BAĞLAYIB BUNLARI TƏRK EDƏRLƏR. HESABINDAN QORXARAQ HALALI BELƏ BURAXARLAR. DÜNYAYA YALNIZ BƏDƏNLƏRİ İLƏ MARAQ GÖSTƏRƏRLƏR, ONUN HƏR HANSI BİR ŞEYİ İLƏ DƏ MƏŞĞUL OLMAZLAR.**

Onların Rəblərinə olan itaətləri qarşısında, mələklər və peyğəmbərlər də heyrətlənər. Nə xoşbəxt onlara, nə xoşbəxt onlara! Allahın onlarla mənim aramı birləşdirməsini nə qədər çox istəyərdim! ... (el-Vesaya li-İbnü'l-Arabi, Halet Ef. no.:

198/2, 486a yaprağı)

**567-İNSANLARIN RAZILIĞINI GÜDMƏZLƏR**

Onlar ALLAH YOLUNDA HEÇ BİR QINAYANIN QINAMASINDAN, DEDİ-QODUSUNDAN QORXMAYAN İSLAM ƏHALİSİDİR. Bu İslamın xeyirlilərinin ordusu Konstantinopolu təsbihlərlə, təkbirlərlə fəth edərlər... (Sünen-i İbni Mace, 10/259)

**568-HƏR TƏRƏFLİ KEYFİYYƏTLİ İNSANLARDIR**

İmamı Zaman (hz. Mehdi (ə.s))-ın tələbələri SOYLU, MƏLUMATLI OLACAQLAR və dünyanın idarəçiləri olacaqlar**.** (Al-Malaahem wa al-Fetan, səh. 205)

Hz. Əli (ə.s) belə buyurar: "... ALLAH HZ. MEHDİNİN KÖMƏKÇİLƏRİNİ ... yer üzünün bütün insanlarına qalib edər". (İsbat-ul Hudat, 7-ci cild, səh. 49)

**569-DÜNYADAN UMACAQLARI YOXDUR**

Buyurdu ki: "Onları yer üzünün kənarlarında axtar. ONLARIN HƏYATLARI SADƏDİR, EVLƏRİ KÜRƏKLƏRİNDƏDİR, əgər hazır olsalar tanınmazlar... Onlar mallarını aralarında bərabər olaraq bölüşərlər və bir-birlərini qəbirlərində ziyarət edərlər, fərqli şəhərlərdə olsalar da istəkləri həmişə eynidir". (Gaybetul Numani, səh. 23)

**570-BİR-BİRLƏRİNDƏN BAŞQA DOSTLARI YOXDUR**

Buyurdu ki: "... Hazır olsalar tanınmazlar, əgər İTSƏLƏR AXTARILMAZLAR, XƏSTƏ OLSALAR KİMSƏ ONLARI ZİYARƏT ETMƏZ, əgər evlənmək istəsələr kimsə onlara gəlməz. Əgər ÖLSƏLƏR CƏNAZƏLƏRİNƏ KİMSƏ QATILMAZ". (Gaybetul Numani, səh. **23)**

**571-HAMISI ALLAH RİZASI ÜÇÜN ÇALIŞAR**

Buyurdu ki: "...FƏRQLİ ŞƏHƏRLƏRDƏ OLSALAR DA İSTƏKLƏRİ HƏMİŞƏ EYNİDİR". (Gaybetul Numani, səh 23)

**572-İNSANLARIN DİNƏ YÖNƏLMƏSİNƏ VƏSİLƏ OLARLAR**

Hz. Əli belə buyurar: "... Allah hz. Mehdi (ə.s)-ın köməkçilərini... YER ÜZÜNÜN BÜTÜN İNSANLARINA QALİB EDƏR. BELƏCƏ İNSANLAR İSTƏR İSTƏMƏZ HAQQ DİNƏ GİRƏRLƏR". (İsbat-ul Hudat, 7-ci cild, səh. 49)

**573-İSLAM ƏXLAQINI BÜTÜN DÜNYAYA İZAH EDƏR VƏ ÇOX TƏSİRLİ OLARLAR**

İmam Məhəmməd Baqir və İmam Cəfər Sadiq hz. Mehdi (ə.s)-ın köməkçiləri haqqında belə buyurmuşdur: "ONLAR DÜNYANIN ŞƏRQİNİ VƏ QƏRBİNİ (ELMLƏ) ƏLƏ KEÇİRƏCƏKLƏR... BELƏ Kİ, “LA İLAHƏ İLLƏLLAH VƏ ƏŞHƏDU ƏNNƏ MUHAMMƏDƏN RƏSULULLAH” HƏR YERDƏ SƏS SALACAQ VƏ EŞİDİLƏCƏKDİR". (Bihar-ul Envar, 52-ci cild, səh. 340)

**574-SAYLARI ÇOX AZDIR**

Hükeym ibn Sad belə deyir: İmam Əmir-əl möminin Əlinin belə buyurduğunu eşitdim: "Qaim (hz. Mehdi (ə.s))-ın səhabələri gəncdir və içərilərində yaşlı yoxdur; ANCAQ GÖZDƏKİ SÜRMƏ VƏ YA AZUQƏDƏKİ DUZ QƏDƏRDİRLƏR VƏ AZUQƏDƏKİ ƏN AZ ŞEY DUZDUR". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani

səh.374)

**575-SAYLARI 313 NƏFƏRƏ QƏDƏRDİR**

Məhəmməd ibn Hənəfi (r.ə)-dən rəvayət edildi ki: "...Buludların səmada toplandığı kimi Allah Onun ətrafına bir qövm toplayar. Onların ürəklərini uzlaşdırar. Onlar içərilərindən şəhid olana kədərlənməz, onlara qatılana da sevinməzlər. SAYLARI BƏDR SƏHABƏLƏRİ (313) QƏDƏRDİR. Əvvəlkilərin onları keçə bilmədiyi kimi, sonrakılar da onlara çata bilməzlər və onların sayları Talut ilə çayı keçənlər qədərdir". (Kitab-ül Burhan Fi Alamet-il Mehdi yy-il Ahir Zaman, 57)

**576-QADIN TƏLƏBƏLƏRİ DƏ VARDIR**

Hz. Mehdi (ə.s)-a ARALARINDA QADINLARIN DA OLDUĞU 314 nəfər beyət edəcəkdir. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdi yy-il Muntazar, 25)

**577-ALLAH HZ. MEHDİ (Ə.S)-IN TƏLƏBƏLƏRİNİ BİR YERƏ TOPLAYACAQDIR**

Cəfər əl Juafi, İmam Məhəmməd ibn Əli əl Bəkirdən belə rəvayət edir: "Hz. Mehdi (ə.s) çıxdığında yanında 313 kişi və 50 qadın olacaqdır, ONLAR DAHA ƏVVƏL ARALARINDA HEÇ BİR MÜQAVİLƏ OLMADAN, FƏRQLİ BULUDLARIN SƏMADA TOPALAŞMALARI KİMİ BİR YERƏ YIĞIŞACAQLAR. **Bu, Allahın "harada olsanız olun, Allah sizi bir yerə toplayacaq.** Allah hər şeyə güc yetirəndir" ayəsinin bir təcəllisidir". (Bihar-ül Envar, 52-ci cild, səh. 223)

**578-GƏNCLƏRDƏN İBARƏT OLARLAR**

Əmr-əl Möminin Əli belə buyurmuşdur: "VƏD EDİLMİŞ MEHDİNİN DOST VƏ SƏHABƏLƏRİNİN HAMISI GƏNCLƏRDİR. ONLAR ARASINDA YAŞLILAR ÇOX AZ OLAR". (Bihar-ul Envar, 52-ci cild, səh. 333)

Hz. Mehdi (ə.s)-ın bayraqdarı, saqqalı xəfif, rəngi sarı, kiçik BİR GƏNC OLACAQDIR. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 51)

**579-ÇOX SADİQDİRLƏR**

Onların (hz. Mehdi (ə.s)-ın tələbələrinin) hamısı səmimi və SADİQ OLACAQDIR. (Bihar ül-Envar, 52-ci cild, səhifə 283 Kamaal al-Deen’den aktarıyor.)

**580- AXİRƏTİ DÜNYA HƏYATINDAN ÜSTÜN TUTARLAR**

Gecələrini RAHATLIQLA KEÇİRMƏK ƏVƏZİNƏ ONLAR (HZ. MEHDİ (Ə.S)-IN TƏLƏBƏLƏRİ) RƏBLƏRİNƏ İBADƏT EDƏRƏK KEÇİRƏCƏKLƏR. (Mikyaal al-Makaarem, 1-ci cild, səh. **65)**

**581-ÇOX BİLİKLİDİRLƏR**

İmamı Zaman (hz. Mehdi (ə.s))-ın tələbələri soylu, BİLİKLİ və dünyanın idarəçiləri olacaqlar. (al-Malaahəm al-Fətan, səhifə 205)

Hz. Mehdi (ə.s)-ın KÖMƏKÇİLƏRİ ALİCƏNAB VƏ TƏHSİLLİ OLACAQLAR. (El-Melahim ve el Fitan, səhifə: 205)

**582-BƏZİ KƏSLƏR QİYMƏTLƏRİNİ BİLMƏZLƏR**

Onlar Allah yolunda (elmlə) mübarizə aparарlar və TƏKƏBBÜRLÜLƏR ONLARI ALÇAQ SAYARLAR. ONLARIN QİYMƏTİ DÜNYADA NAMƏLUM, lakin axirətdə yaxşı tanınarlar. (Muntakab el Ezhar, səh. **474)**

**583-MÜXTƏLİF TƏZYİQLƏRLƏ QARŞILAŞARLAR**

Hz. Mehdi (ə.s) əlini köməkçilərinin çiyni ilə sinəsi arasına çəkəcək, BELƏCƏ ONLAR HAQLARINDA VERİLƏCƏK HƏR HANSI HÖKMDƏN ÇƏKİNMƏYƏCƏKLƏR, HEÇ BİR QƏRAR ONLARA ÇƏTİN GƏLMƏYƏCƏK. (Bihar-ül-Envar, cild: 52, səhifə: 345, El Melahim va el Fitan, səhifə:205; Mikyaal elMekarim, 1-ci cild, səhifə:144/235)

**584-MEHDİ (Ə.S)-IN VERDİYİ QƏRARLARDA HEÇ BİR PROBLEM YARATMAZLAR**

Hz. Mehdi (ə.s)-ın tələbələri, ... HZ. MEHDİ (Ə.S)-A QARŞI BİR QULUN SAHİBİNƏ QARŞI OLDUĞUNDAN DAHA İTAƏTLİ OLACAQ VƏ BOYUN ƏYƏCƏKLƏR. (Mikyal el-Mekarim, cild:1, səhifə: 65)

**585-ALLAH ONLARA NİŞAN VƏ ƏLAMƏTLƏRLƏ KÖMƏK EDƏR**

Hz. Əli belə buyurar: "...ALLAH HZ. MEHDİNİN KÖMƏKÇİLƏRİNİ QORUYAR, ONLARA NİŞAN VƏ ƏLAMƏTLƏRLƏ KÖMƏK EDƏR və onları yer üzünün bütün insanlarına qalib etdirər". (İsbat-ul Hudat, 7-ci cild, səh. **49)**

**586-AXIRZAMANDAKI TEXNOLOGİYADAN FAYDALANARLAR**

DÜNYADAKI HEÇ BİR ŞEY HZ. MEHDİ (Ə.S)-IN TƏLƏBƏLƏRİNDƏN GİZLİ QALMAYACAQDIR. (Mikyaal al Makaarem, cild:1, səhifə: 235-236)

**587-DÜNYANIN HƏR YERİ İLƏ İNTERNET VASİTƏSİ İLƏ ÜNSİYYƏT QURARLAR**

...Onlar (hz. Mehdi (ə.s)-ın tələbələri) BÜTÜN DÜNYANI DƏQİQƏLƏR ƏRZİNDƏ QƏT EDƏ BİLMƏK gücünə sahibdirlər. (Bihar-ül Envar, 52-ci cild, səhifə 318; Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 148 Basaaer al-Darajaat'dan aktarıyor.)

**588-OLDUQLARI YERDƏ KÖRPÜ OLACAQDIR**

... (Hz. Mehdi (ə.s)-ın tələbələri) SU ÜZƏRİNDƏ GƏZƏRLƏR.... (Bihar-ül Envar, 52-ci cild, səhifə 318; Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 148 Basaaer al-Darajaat'dan aktarıyor.)

Peyğəmbər (s.ə.v)-dən rəvayət edilən bu hədisdəki "su üzərində gəzərlər" ifadəsi, hz. Mehdi (ə.s)-ın tələbələrinin Boğaz Körpüsündən keçəcəklərinə işarə edir.

**589-TƏYYARƏ İLƏ SƏYAHƏT EDƏRLƏR**

ONUN DOSTLARI BULUDLARA MİNİB İSTƏDİKLƏRİ YERƏ GEDƏ BİLƏCƏKLƏR. (Mucem-ul Ehadis-i İmam Mehdi Cild:1 səhifə 296 ve Keşf-ul Ğumme Cild:2, səhifə 470 ve Muntehab-ul Eser səh. 554)

... (Hz. Mehdi (ə.s)-ın tələbələri) ... BULUDLAR ÜZƏRİNDƏ GƏZƏRLƏR... (Bihar-ül Envar, 52-ci cild, səhifə 318; Mikyaal al-Makaarem, 1-ci cild, səhifə 148 Basaaer al-Darajaat'dan aktarıyor.)

(Bihar-ül Ənvar, Cild 52, Səhifə 318; Mikyaal əl-Makaarəm, Cild 1, Səhifə 148 Basaaər al-Darajaatdan nəql edilir.)

Hədislərdə yer alan buludlar üzərində gəzmək ifadəsi hz. Mehdi (ə.s) dövründə hava nəqliyyatının olacağına və Mehdi (ə.s)-ın tələbələrinin təyyarə ilə səyahət edəcəklərinə işarə edir.

**590-HEYVAN VƏ BİTKİLƏRİN DAŞLAŞMIŞ QALIQLARINI CANLILARIYLA MÜQAYİSƏ EDƏRƏK İNSANLARA GÖSTƏRƏRLƏR**

Allahın icazəsi ilə onlar (hz. Mehdi (ə.s)-ın tələbələri) ÖLÜLƏRİ CANLANDIRARLAR... (Bihar-ül Envar, 52-ci cild, səh. 318; Mikyaal al-Makaarem,

1-ci cild, səh. 148, Basaaer al-Darajaat'dan aktarıyor.)

Hədisdən aydın olduğu kimi, hz. Mehdi (ə.s)-ın tələbələri ölü heyvan və bitki qalıqlarını canlıları ilə müqayisə edərək insanlara göstərəcəklər, bu şəkildə Allahın icazəsi ilə darvinizmi və materializmi təsirsizləşdirəcəklər.

**591-ALLAH ONLARI İMAN ETMƏYƏNLƏRDƏN AYIRAR**

Allah ONUN (MEHDİ (Ə.S)-IN) DOSTLARINI VƏ SEÇİLMİŞ OLANLARI DİGƏRLƏRİNDƏN AYIRACAQ Kİ, dünya münafiqlərdən və yoldan çıxanlardan təmizlənsin. (Bihar-ül Envar, cild:52, səhifə: 250)

**592-ONLAR QALU-BƏLADA ALLAHIN ƏHD ALDIĞI MÖMİNLƏRDİR**

Əli ibn Əbu Həmzə deyir ki, İmam Əbu Abdullah Cəfəri Sadiq belə buyurdu: "Qaim əleyhissalam (hz. Mehdi (ə.s)) qiyam etdiyində xalqın çoxu onu inkar edəcəkdir. Çünki o, doğru yolu tutan bir gənc olaraq zühur edəcəkdir. ONU (HZ. MEHDİ (Ə.S)-I) YALNIZ ZƏRR ALƏMİNDƏ ALLAHIN ƏHD ALDIĞI MÖMİNLƏR QƏBUL EDƏCƏKDİR". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 247)

**593-ƏRƏB OLMAYACAQLAR, AMMA İÇLƏRİNDƏ ƏRƏBCƏ BİLƏNLƏR OLACAQ**

Hz. Mehdi (ə.s)-ın köməkçiləri ... Digər millətlərdən olacaqdır. LAKİN ƏRƏBCƏ DANIŞACAQLAR. (Muhammed İbn Resul El Hüseyin El Berzenci, Kıyamet

Alametleri, səh. 187)

**594-TƏLƏBƏLƏRİ İÇİNDƏ ÇOX YAXIN KÖMƏKÇİLƏRİ OLACAQDIR**

Məmləkət işlərinin ağırlıqlarını onunla paylaşacaqlar. DOQQUZ NƏFƏRDƏN İBARƏT OLACAQLAR. (Kıyamet alametleri, səh. 187)

**595-TƏLƏBƏLƏRİ DƏ HZ. MEHDİ (Ə.S) KİMİ ƏSLA QAN TÖKMƏZLƏR**

Ona (hz. Mehdi (ə.s)-a) beyət edənlər, (Kəbə ətrafındakı) rükn və mövqe arasında beyət edərlər. YATANI OYANDIRMAZ, ƏSLA QAN TÖKMƏZLƏR. (El-Heytemî, ElKavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 24)

**596-ALLAH HZ. MEHDİ (Ə.S) VƏ KÖMƏKÇİLƏRİNİ UĞURLU EDƏCƏKDİR**

Allah MEHDİNİN ORDUSUNU VƏ KÖMƏKÇİLƏRİNİ UĞURLU EDƏCƏKDİR... (Mer'iy ibn Yusuf ibn Ebi bekir ibn Ahmet ibn Yusuf el-Makdi'si "Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar")

**597-HZ. MEHDİ (Ə.S)-IN TƏLƏBƏLƏRİ DƏ HZ. MEHDİ (Ə.S) KİMİ TƏZYİQ GÖRƏRLƏR**

Hz. Mehdi (ə.s) hz. Musa (ə.s)-ın fiziki gücünü, hz. İsa (ə.s)-ın ehtişamını, hz. Əyyub (ə.s)-ın səbrini göstərəcək. GƏLDİYİ ZAMANDA ONUN SEÇİLƏNLƏRİ (TƏLƏBƏLƏRİ) ALÇALDILACAQ, HÖRMƏTDƏN SALINACAQ. QORXU ONLARI BÜRÜYƏCƏK. Budur, bunlar mənim dostlarımdır! (Beheyullah: Kitab-ı İkan, səh. 245)

Onlar Allah yolunda mücahidlərdir və TƏKƏBBÜRLÜLƏR ONLARA YUXARIDAN AŞAĞI BAXARLAR. Onların qiyməti dünyada naməlumdur, lakin axirətdə yaxşı tanınarlar. (Muntakab el Ezhar, səh. **474)**

**598-HZ. MEHDİ (Ə.S) VƏ TƏLƏBƏLƏRİ TƏBLİĞ FƏALİYYƏTLƏRİNİ YALNIZ GÜNDÜZ DEYİL, İNTERNET, TELEVİZİYA VƏ RADİO KİMİ VASİTƏLƏRLƏ GECƏ DƏ DAVAM ETDİRƏCƏKLƏR**

... Bir xalq bir nalbəndin oxun ucunu yonması kimi yonulacaqdır —GÖZLƏRİ VƏHYLƏ İŞIQLANMIŞ, QULAQLARI TƏFSİRLƏ DOYMUŞ VƏ MÜDRİKLİK QƏDƏHLƏRİ GECƏ -GÜNDÜZ ONLARA TƏQDİM EDİLƏCƏKDİR. (Kitab-ül Gaybet, [Bihar-ul Envar, 51-ci cild], Ansariyan Yayıncılık, Derleyen: Muhammed Bakır el-Meclisi, İran-Kum, 2003, səh. 186)

Aralarında qadınların da olduğu 314 nəfərlik bir qrup yaradarlar. Onlar hər zalıma qalib gələrlər. Onların ürəkləri dəmir kimidir və onlar gündüzlər aslan, GECƏLƏR DƏ ABİDDİRLƏR. Nə əvvəlkilər, nə də sonrakılar fədakarlıqda onlara çata bilməz. (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 57-68)

# ARALARINDAN AYRILANLAR DA OLAR

**599-HZ. MEHDİ (Ə.S)-IN TƏLƏBƏLƏRİ ONLARDAN AYRILANLARA KƏDƏRLƏNMƏZLƏR**

Hz. Müaviyə (r.ə)-dən rəvayət edilmişdir: "Ümmətimdən bir tayfa hər kəsin üzərində hakim olmadıqca qiyamət qopmaz. ONLARI TƏRK EDƏNLƏRƏ GÖRƏ ÜZÜLMƏZLƏR və onlara kömək edənə də sevinməzlər" (Ramuz el-Ehadis, 476 (İbni Mace))

**600-AYRILANLARDAN SONRA MÖVCUD BİRLİK HƏR CƏHƏTDƏN ÇOX SEÇİLMƏDİR**

Əsbağ ibn Nəbatə deyir ki, əmir-əl möminin Əli əleyhissalam belə buyurdu: "...Belə ki, sizdən yalnız gözdəki sürmə qədər və ya yeməkdəki duz qədər qalacaqdır və mən sizə bir nümunə verəcəyəm: Birisinin bir miqdar buğdası vardır. Onu təmizləyər və bir evdə saxlayar, uzun bir müddət sonra geri döndüyündə onun qurdlandığını görər, onu təkrar təmizləyər sonra yenə evdə saxlayar. Uzun bir müddət sonra döndüyündə onun təkrar qurdlandığını görər. Təkrar onu təmizləyər və həmişə eyni işi təkrarlayar. SONDA QURDLARIN ZƏRƏR VERƏ BİLMƏDİYİ ÇOX AZ SAYDA SAF BUĞDA QALAR. Bax siz də beləsiniz. Sonda içinizdə fitnələrin zərər verə bilmədiyi çox az qrup qalacaqdır" (Eyni hədisi Əhməd ibn Məhəmməd ibn Səid də nəql edər). (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 246)

**601-AYRILANLAR ONLARA HEÇ BİR ZƏRƏR VERƏ BİLMƏZ**

Hz. Cabir (r.ə)-dən rəvayət edilmişdir: "BU İŞ ONDAN AYRILANLARA BAXMAYARAQ UĞURLA DAVAM EDƏCƏKDİR. MÜXALİFLƏRİN VƏ AYRILANLARIN ONA ZƏRƏRİ OLMAZ". (Ramuz el-hadis, 487)

**602-AYRILANLAR DƏCCALIN ARXASINCA GEDƏRLƏR**

... MƏDİNƏ ŞƏHƏRİ SAKİNLƏRİYLƏ BİRLİKDƏ ÜÇ DƏFƏ SİLKƏLƏNƏCƏK, BUNUN NƏTİCƏSİNDƏ DƏ (MƏDİNƏDƏ OLAN) MÜNAFİQ KİŞİLƏR VƏ QADINLARIN HAMISI ONUN YANINA GEDƏCƏKLƏR və beləcə dəmirçi körüyünün dəmirin çirkini, pasını təmizləyib atdığı kimi Mədinə də pisliyi (yəni xəbis insanları) kənara atacaq və o günə qurtuluş günü deyiləcəkdir. (İbn-i Mace 10-cu cild, səh. **331-335)**

**603-HZ. MEHDİ (Ə.S) ALLAHIN DİLƏMƏSİ İLƏ MÜNAFİQLƏRİ ÜZLƏRİNDƏN TANIYACAQ**

Əbu Basir İmam Cəfəri Sadiqə "Günahkarlar çöhrələrindən tanınacaq (Məhəmməd surəsi, 30) ayəsi haqqında belə buyurdu: "ALLAH ONLARI TANIYAR, LAKİN BU AYƏ QAİM

(HZ. MEHDİ (Ə.S)) HAQQINDA NAZİL OLMUŞDUR. HZ. MEHDİ (Ə.S) ONLARI (MÜNAFİQLƏRİ) ÇÖHRƏLƏRİNDƏN TANIYACAQ VƏ SƏHABƏLƏRİ İLƏ BİRLİKDƏ ONLARI (MƏNƏVİ CƏHƏTDƏN) DARMADAĞIN EDƏCƏKDİR". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 283

**604-HZ. MEHDİ (Ə.S) ZAMANINDA MÜNAFİQLƏRİN NÜFUZU QALMAYACAQDIR**

Mehdi (ə.s)-ın hökmranlığı zamanında zalımların və müstəkbirlərin hökmranlığı, MÜNAFİQLƏRİN VƏ XAİNLƏRİN … NÜFUZU İTƏCƏKDİR (SONA ÇATACAQDIR). (El-Mehdiyy-il Mev'ud, 1-ci cild, səh. 252)

**605-MÜNAFİQLƏR HZ. MEHDİ (Ə.S)-A KİN BƏSLƏYƏRLƏR**

… Əbdüləziz ibn Müslim belə rəvayət etmişdir:

"İmam Mehdi dinin nizamı, müsəlmanların qürurudur. MÜNAFİQLƏR ONA KİN BƏSLƏYƏR, kafirlərin (mənəvi cəhətdən) məhv olmasının vəsiləsidir. İmam Mehdi zamanının tək adamıdır. Heç kim onun səviyyəsinə çata bilməz və heç bir alim onunla rəqabətə girə bilməz..." (İman Ve Küfür Kitabı / Usul-U Kafi (El-Usul Min El-Kafi) / ElKuleyni, 1-ci cild)

**606-HZ. MEHDİ (Ə.S) VƏ TƏLƏBƏLƏRİ MÜNAFİQLƏRİ MƏNƏVİ CƏHƏTDƏN, ELMLƏ DARMADAĞIN EDƏCƏKDİR**

… İmam Cəfəri Sadiq Əbu Basirdən “günahkarlar çöhrələrindən tanınacaqdır” (Məhəmməd surəsi, 30) ayəsi haqqında belə buyurdu: "ALLAH ONLARI TANIYAR, LAKİN BU AYƏ QAİM (HZ. MEHDİ (Ə.S)) HAQQINDA NAZİL OLMUŞDUR. HZ. MEHDİ (Ə.S) ONLARI (MÜNAFİQLƏRİ) ÇÖHRƏLƏRİNDƏN TANIYACAQ VƏ SƏHABƏLƏRİ İLƏ BİRLİKDƏ ONLARI (MƏNƏVİ CƏHƏTDƏN) DARMADAĞIN EDƏCƏKDİR". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 283)

**607-DÜNYANIN DÖRD BİR TƏRƏFİNDƏ İSLAM ƏXLAQINI İZAH EDƏRLƏR**

Mehdi (ə.s)-ın yaranları (dost və yoldaşları) aləmin hər yerinə ayaq basıb hər yerdə qüdrəti əllərində saxlayacaqlar, hər kəs və hər şey onlara itaət edəcək, hətta ÇÖLDƏKİ YIRTICI HEYVANLAR VƏ OVLAR (YIRTICI) QUŞLARIN HAMISI ONLARIN RİZA VƏ MƏMNUNLUĞUNU QAZANMAQ İSTƏYƏCƏKLƏR. BU DİN ELÇİLƏRİ, SƏLAH (DİNCLİK, RAHATLIQ, DÜZƏLTMƏK VƏ YAXŞILAŞDIRMAQ) VƏ ƏDALƏT ELÇİLƏRİ ELƏ BİR SEVİNC VƏ MƏMNUNLUQ GƏTİRƏCƏKLƏR Kİ, Mehdi (ə.s)-ın səhabələrinin ayaq basdığı yer başqa yerlərlə fəxr edəcəkdir. (İkmal'üd Din. Bihar'ül Envar, 52-ci cild, səh. 327)

**608-BİR-BİRLƏRİNƏ ÇOX BAĞLIDIRLAR**

Hz. Ömər (rədiyallahu ənh) izah edir: Rəsulullah (əleyhissalatu vəssalam) buyurdu ki: Allahın qulları arasında bir qrup var ki, onlar nə peyğəmbərlərdir, nə də şəhidlər. Həmçinin qiyamət günü Allah şəxsi mövqelərinin ucalığına görə peyğəmbərlər də, şəhidlər də onlara qibtə edərlər. Orada olanlar soruşdu: "Ey Allahın Elçisi! Onlar kimdir, bizə xəbər ver! ONLAR ARALARINDA NƏ QAN BAĞI, NƏ DƏ BİR-BİRLƏRİNƏ BAĞIŞLADIQLARI MAL OLMADIĞI HALDA, ALLAH ADINA BİR-BİRLƏRİNİ SEVƏNLƏRDİR. Allaha and içərəm, onların üzləri mütləq nurdur. Onlar bir nur üzrədirlər. Xalq qorxarkən, onlar qorxmazlar. İnsanlar kədərlənərkən, onlar kədərlənməzlər". (Ebu Davud, Büyü 78, (3527))

**609-KƏDƏRƏ QAPILMAZ, QORXU HİSS ETMƏZLƏR**

Onlar aralarında nə qan bağı, nə də bir-birlərinə bağışladıqları mal olmadığı halda, Allah adına bir-birlərini sevənlərdir. Allaha and içərəm, onların üzləri mütləq nurdur. Onlar bir nur üzrədirlər. **Xalq qorxarkən, onlar qorxmazlar. İNSANLAR KƏDƏRLƏNƏRKƏN, ONLAR KƏDƏRLƏNMƏZLƏR.** (Ebu Davud, Büyü 78, (3527))

**610-HZ. ƏLİ (R.Ə) HZ. MEHDİ (Ə.S) VƏ CAMAATININ XÜSUSİYYƏTLƏRİNİ İZAH EDİR**

Əbu İshaqdan—Əmir-əl Möminin (hz. Əli (r.ə)) səhabələrindən olan etibarlı birindən eşitdim ki, Əmir-əl Möminin bir xütbəsində belə buyurdu:

"Allahım, mən bilirəm ki, elmin hamısı əhatə edilməz, qaynağı qurumaz və ərşin, sənin xalqa olan açıq, amma özünə itaət edilməyən ya da çəkindiyinə görə saxlanan bir dəlilindən boş qalmaz. Beləcə isbatın batil olmaz. Sənin dostların da hidayətə gəldikdən sonra dəlalətə düşməzlər. Amma onlar (dostların) haradadırlar və sayları nə qədərdir? ONLAR SAY BAXIMINDAN ÇOX AZ OLSALAR DA, ZİKRİ UCA OLAN ALLAH QATINDA DƏYƏRLƏRİ ÇOX BÖYÜKDÜR. ONLAR DİNİN BƏLƏDÇİLƏRİ OLAN HİDAYƏT İMAMLARINA TABE OLARLAR, onların ədəbləri ilə ədəblənər, yolları ilə gedərlər. Bax o zaman elm imanın həqiqəti ilə birlikdə onlara doğru axın edər, ruhları elm öndərlərinin dəvətini qəbul edər; BAŞQALARINA ÇƏTİN GƏLƏN HƏDİSLƏRİ ONLAR ASANLIQLA QƏBUL EDƏRLƏR; YALANÇILAR VƏ İSRAFÇILARIN ÇƏKİNİB QƏBUL ETMƏDİKLƏRİ ŞEYLƏRLƏ DİNCLİK TAPARLAR. Məhz alimlərə inanalar onlardır. Onlar uca Allaha və vəlilərinə itaət edərək, dünya əhalisi ilə birlikdə oldular; dinlərini gizlədib düşmənlərindən qorundular. Onların ruhları ən uca mövqeyə bağlıdır, alimləri və onlara inananlar, batil dövlətdə dilsiz və səssizdirlər, HAQQIN DÖVLƏTİNİ GÖZLƏYƏRLƏR. Allah yaxında öz sözləri ilə haqqı ucaldacaq və batili yox edəcəklər. O qorxulu vəziyyətdə dinlərini səbirlə qoruduqları üçün nə xoşbəxt onlara! Onların dövləti qurulduğunda, onları görməyi nə qədər də çox

istəyirəm! Allah onları, saleh atalarını, yoldaşlarını və nəsillərini bizimlə birlikdə Ədn cənnətində birləşdirəcəkdir". (el-Kafi 1-ci cild, səh. 270)

# HZ. MEHDİ (Ə.S) VƏ AXIRZAMANDAKI ƏHƏMİYYƏTLİ ŞƏXSLƏR

**611-HZ. MEHDİ (Ə.S)-I MÜJDƏLƏYƏN BAŞISARIQLI ŞƏXS**

Hz. Mehdi (ə.s) çıxarkən BAŞINDA SARIQ OLACAQ bir müəzzin “Bu, Allahın xəlifəsi olan Mehdidir, onun ardınca gedin” şəklində səslənəcək. (El-kavlu’l muhatasar fi alamet-il mehdiyy-il muntazar, Hadis no.23)

**612-HZ. MEHDİ (Ə.S)-A ZƏMİN HAZIRLAYAN BƏDİÜZZAMAN HƏZRƏTLƏRİ**

ŞƏRQ TƏRƏFİNDƏN BƏZİ İNSANLAR ÇIXIB hz. Mehdinin səltənətini hazırlayacaqlar. (El-kavlu’l muhatasar fi alamet-il mehdiyy-il muntazar, Hadis no.17)

ŞƏRQDƏN BİR CAMAAT ÇIXAR VƏ HZ. MEHDİ (Ə.S)-IN SƏLTƏNƏTİNƏ KÖMƏK EDƏR. (Ali Bin Hüsameddin El Muttaki, Celaleddin Suyuti'nin Tasnifinden Hadisler – Ahir Zaman Mehdisinin Alametleri, Kahraman Neşriyat, səh. 60)

Sənin bu aciz və kasıb, nadir olmayan qardaşın, həddimə düşmədiyi üçün, özümü **O GƏLƏCƏK ŞƏXS (hz. Mehdi (ə.s))** olduğumu iddia edə bilmərəm, buna heç vəchlə ləyaqətim də çatmaz. **Lakin o irəlidə gələcək heyrətli şəxsin (hz. Mehdi (ə.s)-ın) bir xidmətçisi (yəni hz. Mehdi (ə.s)-ın xidmətində olan bir şəxs olduğumu) və ona (hz. Mehdi (ə.s)-a) yer hazırlayacaq bir dümdarı (zəmin hazırlayacaq bir qabaqcılı) və o böyük komandirin (bütün İslam aləminin rəhbəri olan hz. Mehdi (ə.s)-ın) pişdar bir nəfəri (qabaqcıl bir əsgəri) olduğumu zənn edirəm.** Ona görə də sən yazılan şeylərdən o heyrətləndirici qoxusunu hiss etdin. (Barla Lahikası, 28. Mektup, səh. 162)

**613-YALANÇI MEHDİLƏR**

Əbu Hureyre-rədiyallahu ənh-izah edir: Rəsulullah Əleyhissalam buyurdu ki: "OTUZA QƏDƏR YALANÇI DƏCCALLAR ÇIXMADIQCA qiyamət qopmaz. Bunlardan hər biri Allahın elçisi olduğunu zənn edər". (Tirmizi, Ebu Dâvud)

**614-SAXTAKAR YAŞLI BİR ADAMIN İNSANLARI ALLAHA İMANDAN UZAQLAŞDIRMASI (TƏKAMÜL NƏZƏRİYYƏSİNİN YARADICISI ÇARLZ DARVİNƏ İŞARƏ)**

Əmr ibn al-as rəvayət etmişdir: "Peyğəmbərimiz belə buyurmuşdur: “MƏN BU ÜMMƏTİN İLKİYƏM. HZ. MEHDİ (Ə.S) BU ÜMMƏTİN ORTASINDA, HZ. İSA (Ə.S) İSƏ SONUNDADIR. ARAMIZDA İSƏ SAXTAKAR YAŞLI BİR ADAM VARDIR". (Bihar ül Envar, 51-ci cild, Kitab ul Gaybet, Allame Muhammed Bakır ElMeclisi, səh. 132)

**615-KƏNANİ ADINDAKI ŞƏXS**

Hədislərdə həmçinin MEHDİ ZAMANINDA "KƏNANİ" ADINDA BİR ADAMIN ÇIXACAĞI və onun da müxtəlif mücadilələrinin olacağı ifadə edilir. (Muhammed

İbn Resul Al-Hüseyni El Berzenci, 'Kıyamet Alametleri', Pamuk Yayınları, səh. 175)

**616-KƏHF ƏHLİ VƏ HZ. MEHDİ (Ə.S)**

İmam Əbu İshaq Saləbi təfsirində Kəhf qissəsini izah edərkən deyir ki: "Mehdi çıxdığı zaman KƏHF ƏHLİNƏ GEDİB SALAM VERİNCƏ ALLAH ONLARI DİRİLDƏCƏK VƏ MEHDİNİN YANINDA YERLƏRİNİ ALACAQLAR" (Kitab ul Burhan Fi Əlamət-el Mehdiyy el Axır Zaman, səh. 39)

ƏSHABİ-KƏHF MEHDİNİN KÖMƏKÇİLƏRİ OLACAQ. (Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, səh. 39)

# DƏCCAL İLƏ ƏLAQƏDAR ƏLAMƏTLƏR

**DƏCCALIN ÇIXIŞ ZAMANI**

**617-ƏSRİN ƏVVƏLİNDƏ ÇIXAR**

Dünya qurulduğundan bəri hər əsrin əvvəlində əhəmiyyətli bir hadisə olmuşdur. BİR ƏSRİN ƏVVƏLİNDƏ DƏ DƏCCAL ÇIXAR və Məryəm oğulu İsa nüzul edərək (yer üzünə enərək) onu yox edər.  (Suyuti, Ahir Zaman Mehdisinin Alametleri, səh. 90)

**618- DƏCCAL ZAMANINDA DÜNYƏVİ BÖYÜK HADİSƏLƏR YAŞANACAQ**

Dəccalın zühurundan ÜÇ İL ƏVVƏL, SON DƏRƏCƏ BÖHRANLI GÜNLƏR OLACAQ, ACLIQ HÖKM SÜRƏCƏK. BİRİNCİ İLDƏ ALLAH GÖYƏ YAĞIŞI HƏBS ETMƏSİNİ ƏMR EDƏCƏK... (Qiyamət Əlamətləri, Mədinəli Allame Məhəmməd B. Rəsul əl-Hüseyn Əl Berzenci, Pambıq Nəşriyyat, səh. 220)

**DƏCCAL NECƏ TANINAR?**

**619-İMANIN FƏRASƏTİ İLƏ TANINAR**

"(Dəccalın) ONUN İKİ GÖZÜ ARASINDA (KAFİR) YAZILMIŞIDIR. OXUMAĞI BİLƏN DƏ, BİLMƏYƏN DƏ BUNU RAHATLIQLA OXUYACAQ..." Necə ki, digər rəvayətlərdə də bu söz heca hərfləri ilə (K. A. F. R.) şəklində varid olmuşdur...  (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 226)

**620-HZ. MEHDİ (Ə.S)-A ƏN ÇOX TƏZYİQ GÖSTƏRƏNDİR**

Əbu Səid əl-Hudri rədiyallahu ənh rəvayəti; "... DƏCCAL O MÖMİN QULU KƏSMƏK ÜÇÜN TUTAR, LAKİN BU SIRADA ONUN BOYNU İLƏ KÖRPÜCÜK SÜMÜYÜ ARASI ALLAH TƏRƏFİNDƏN MİS LÖVHƏYƏ ÇEVRİLƏR ARTIQ DƏCCAL ONU KƏSƏ BİLMƏZ. BU DƏFƏ DƏCCAL ONU İKİ ƏLİ VƏ AYAĞI İLƏ TUTARAQ FIRLADIB ATAR. İnsanlar dəccalın onu oda atdığını zənn edərlər. Halbuki, o mömin şəxs bir cənnətə atılmışdır". (Sahih-i Müslüm Kitabul Fiten. Bab Hadis No:113- İmam Şarani, Kurtubi Tezkire səh. 488)

**621-İLAHLIQ İDDİA EDƏR (ALLAHI TƏNZİH EDƏRİK)**

(Dəccal) Çıxdığı zaman ... hər kəs onu həqiqi bir mürşid sanıb dediyinə inanacaq, sonra Kufəyə gəlincə eyni şəkildə işlərini davam etdirəcək, bu anda PEYĞƏMBƏRLİK İDDİA

EDƏCƏK... Bunu görən ağıl sahibləri ondan ayrılacaqlar... DAHA SONRA ÜLUHİYYƏT (İLAHLIQ) İDDİASINDA OLACAQ... HAŞA, MƏN ALLAHAM DEYƏCƏK.... (Təbarani bunu Sahabi olan ibn Mutəmərdən belə rəvayət etmişdir"). (Medineli Allame Muhammed İbn Resul El- Hüseyni El Berzenci, Kıyamet Alametleri, səh. 212)

**622-DÜNYA SƏVİYYƏSİNDƏ TƏSİRİ OLAR**

Dəccal BİR MİLLƏTİN YANINA GƏLƏRƏK ONLARI (ÖZ BATİL YOLUNA) DƏVƏT EDƏR. O MİLLƏT DƏ DƏCCALA (İLAH OLDUĞUNA) (Allahı tənzih edərik) İMAN EDİB ONA BEYƏT EDƏRLƏR. (İmam Şarani, Ölüm Kıyamet Ahiret ve Ahir Zaman Alametleri, səh. 491)

**623-DƏCCAL GİZLİ HƏRƏKƏT EDƏR**

Dəccal yola çıxıb ilk dəfə Dəməşq şəhərinin şərqə baxan qapısının yanına gələcək... AXTARILACAQ, LAKİN TUTULMAYACAQ... Sonra Kisvə çayının sularının yanında görüləcək... AXTARILACAQ, HANSI TƏRƏFƏ GETDİYİ BİLİNMƏYƏCƏK...

(Sahabi ibn Mutemer'den rivayet edilmiştir; El Berzenci, Kıyamet Alametleri, Pamuk Yayıncılık, İstanbul, 2002, səh. 213)

**624-MƏTBUAT YAYIM VASİTƏLƏRİNDƏN İSTİFADƏ EDƏRƏK DÜNYANIN HƏR YERİNƏ ÇATAR**

"Dəccal çıxdığında MÜDHİŞ ŞƏKİLDƏ QIŞQIRAR, NƏRƏ ÇƏKƏR Kİ, ŞƏRQ VƏ QƏRBİN BÜTÜN XALQI ONU EŞİDƏR". (İbni Kesir, en-Nihaye, 1:96)

"Dəccal, evlərinizə girmiş, uşaqlarınızı əsir götürmüşdür" deyə BİR SƏS EŞİDİLƏCƏK". (Muhyiddin Arabi, El Fütühatül Mekkiye, I-XII, 2:168; Şaban Döğen, Mehdi ve Deccal, Gençlik Yayınları, 2-ci nəşr)

**DƏCCALIN AĞILSIZ TAKTİKALARI**

**625-DƏCCALİYYƏT DOĞRUNU SƏHV, SƏHVİ DOĞRU KİMİ GÖSTƏRMƏYƏ ÇALIŞAR**

(Dəccal) BUDUR BU CƏNNƏTDİR, BU DA CƏHƏNNƏMDİR" deyib hər kəsi aldatmağa çalışacaq. (Hakim ilə  İbni Asakir  İbni Ömər) (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 213)

**626-YAXŞINI PİS, PİSİ YAXŞI KİMİ GÖSTƏRƏR**

Yanında iki çay vardır; bunların birini gözə dümağ su çayı olaraq, digərini də qaynayan bir od şəklində göstərəcək... sizdən biriniz buna yetişsə, ALOV OLARAQ GÖRDÜYÜ ÇAYA TƏRƏF GƏLSİN VƏ GÖZLƏRİNİ YUMARAQ BAŞINI ƏYİB ONDAN SU İÇSİN...

ÇÜNKİ O BUZ KİMİ BİR SUDUR. (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 214)

Dəccal çıxar. Yanında su və alov vardır. İNSANLARIN SU OLARAQ GÖRDÜYÜ YANDIRICI ALOVDUR. İNSANLARIN ALOV OLARAQ GÖRDÜKLƏRİ DƏ SOYUQ VƏ ŞİRİN BİR SUDUR. (Müslim, Büyük Fitne Mesih-i Deccal, Saim Güngör, səh. 13)

**627-SAXTA QALIQLAR VƏ BƏRPALARLA İNSANLARI ALDADAR**

"(Dəccal) CAHİLLƏRƏ ÜZ TUTUB İSTƏSƏN ÖLMÜŞ ATANI, ANANI DİRİLDİM DEYƏCƏK, o da bəli göstər, dedikdə yanındakı şeytan, atasının şəklinə girəcək və "Oğlum mən sənin atanam! Bu adama uy!" deyəcək... (Kıyamet Alametleri, Medineli

Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 217)

**628-MADDƏNİ İNSANLARA SAXTA İLAH OLARAQ GÖSTƏRƏR (ALLAHI TƏNZİH EDƏRİK)**

"(Dəccal) O, "MƏN ALƏMLƏRİN RƏBBİYƏM" DEDİYİ ZAMAN (Allahı tənzih edərik)... (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 21)

**629-BİLİKLİ OLMAYAN İNSANLARI ASANLIQLA ALDADAR**

KƏNDLİ CAHİLLƏRİ DAHA ASAN ŞƏKİLDƏ ALDADA BİLƏCƏK... (Kıyamet Alametleri, Medineli Allame Muhammed B. Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 216)

**630-SONSUZ AXİRƏT HƏYATINI İNKAR EDƏR, CƏNNƏT VƏ CƏHƏNNƏMİN BU DÜNYADA OLDUĞUNU İDDİA EDƏR**

(Dəccal) O da "DAĞILIN İNSANLARA ONLARIN RƏBBİ OLDUĞUMU SÖYLƏYİN; BAX CƏNNƏT VƏ CƏHƏNNƏMİN TAPILDIĞINI İZAH EDİN" deyəcək... O sizin Rəbbinizdir, aranızda hökm vermək üçün gəlmiş, cənnəti və cəhənnəmi də vardır... (Allahı tənzih edərik) (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 218)

**631-İNANANLARIN HƏMRƏYLİYİNİ POZARAQ, ARALARINI VURMAĞA ÇALIŞAR**

O günlərdə ARALARINDA İNCİKLİK OLAN MÖMİNLƏR DƏCCALIN HƏDƏFİ OLMAQDAN XİLAS OLA BİLMƏZLƏR. (Hakim, Müstedrek, 4:529-530; Şaban Döğen,

Mehdi ve Deccal, Gençlik Yayınları, 2-ci nəşr)

**DƏCCAL DÖVRÜNDƏKİ TEXNOLOJİ İNKİŞAFLAR**

**632-ORQAN KÖÇÜRÜLMƏSİ**

(Dəccal) BİR ADAMA SATAŞIB OLUB ÖLDÜRÜB ONU İKİ YERƏ AYIRACAQ... SONRA ARALARINDAN KEÇİB "GÖRDÜNÜZ, İNDİ MƏN ONU DİRİLDƏCƏYƏM..." deyəcək. (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 220)

**633-BULUDLARI SAĞ ƏLİ İLƏ TUTMASI (GÖY ÜZÜNDƏ UÇAN TƏYYARƏLƏR)**

İbnil Münadi Əlidən rəvayət edilmişdir:

"BULUDLARI SAĞ ƏLİ İLƏ TUTACAQ, günəşi batdığı yerə qədər dərk edəcək, dənizdə gəzəcək, lakin su topuğuna qədər gələcək... Qarşısında duman, arxasında yaşıl dağ olacaq... Elə bir nərə çəkəcək ki, yer ilə göy arasındakıların hamısı eşidəcək..." (Kıyamet Alametleri, 10-cu nəşr, səh. 219)

**634-GÜNƏŞİ BATDIĞI YERƏ QƏDƏR DƏRK ETMƏSİ (PEYK SİSTEMLƏRİNDƏN İSTİFADƏ EDİLMƏSİ)**

İbnil Münadi Əlidən rəvayət edilmişdir:

"...GÜNƏŞİ BATDIĞI YERƏ QƏDƏR QAVRAYACAQ, dənizdə gedəcək, lakin su topuğuna qədər gələcək...." (Kıyamet Alametleri, 10-cu nəşr, səh. 219)

**635-DƏNİZDƏ GETMƏSİ, LAKİN SUYUN TOPUĞUNA QƏDƏR GƏLMƏSİ (SU İDMANLARININ EDİLMƏSİ)**

İbnil Münadi Alidən rəvayət edilmişdir:

"... DƏNİZDƏ GEDƏCƏK, LAKİN SU TOPUĞUNA QƏDƏR GƏLƏCƏK... Qarşısında duman, arxasında yaşıl dağ olacaq..." (Kıyamet Alametleri, 10-cu nəşr, səh. 219)

**636-QARŞISINDA DUMAN, ARXASINDA YAŞIL DAĞ OLACAQ (TƏYYARƏLƏR UÇARKƏN YARANAN MƏNZƏRƏ)**

İbnil Münadi Əlidən rəvayət edilmişdir:

"... QARŞISINDA DUMAN, ARXASINDA YAŞIL DAĞ OLACAQ..." (Kıyamet Alametleri, 10-cu nəşr, səh. 219)

**637-YERLƏ GÖY ARASINDAKILARININ SƏSİNİ EŞİTMƏSİ (PEYK VƏ RADİO DALĞALARI İLƏ SƏSİN GÖYDƏ VƏ YERDƏ EŞİDİLMƏSİ)**

İbnil Münadi Əlidən rəvayət edilmişdir:

"... ELƏ BİR NƏRƏ ÇƏKƏCƏK Kİ, YERLƏ GÖY ARASINDAKILARIN HAMISI EŞİDƏCƏK..." (Kıyamet Alametleri, 10-cu nəşr, səh. 219)

**638-YERƏ ƏMR EDİB ƏKİN YETİŞDİRƏCƏK**

Bu hədis İbnil-Münadi Əlidən rəvayət etmişdir.Müslimin Nüvvas ibn Səmandan nəql etdiyi bir hədisdə belə buyrulmuşdur: "... YERƏ ƏMR EDİB ƏKİN YETİŞDİRƏCƏK... HEYVANLARINI DA ÇOXALDACAQ... Məmələrini də südlə dolduracaq". (Kıyamet Alametleri, 10-cu nəşr, səh. 219)

**639-ANBARLAR QURULACAQ**

(Dəccal) BİR ÇAYA GƏLƏRƏK AXMASINI ƏMR EDƏCƏK, AXACAQ, SONRA YUXARIYA ÇEVRİLİB AXMASINI ƏMR EDƏCƏK, AXACAQ, QURUMASINI ƏMR EDƏCƏK; QURUYACAQ... (Hammadoğlu Nuaym) (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 213)

**640-QATAR NƏQLİYYATI**

(Dəccal) Hər kəsi aldatmaq üçün əvvəl İKİ DAĞI GÖTÜRÜB GEDƏCƏK; DAĞLARIN BİRİNDƏ BOL AĞAC VƏ MEYVƏ VARDIR, DİGƏRİNDƏ İSƏ DUMAN VƏ ALOV VARDIR... (Hakim, ilə İbn Asakir İbn Ömər) (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 213)

**641-NARKOZ İSTİFADƏSİ**

(Dəccalın) yanında cənnət və cəhənnəm tapılacaq... ADAMLARI DA OLACAQ BUNLARIN BİR QİSMİNİ ÖLDÜRÜB SONRA DİRİLDƏCƏK... (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 213)

**642-TOPLU YEMƏK SİSTEMLƏRİNİN İSTİFADƏ EDİLMƏSİ**

(Dəccalın) ƏTDƏN DAĞI, SUDAN ÇAYI TAPILACAQ... . (Nuaym Huzeyfe'den)

(Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 213)

YANINDA ŞORBADAN BİR DAĞ, SOYUMAYAN İSTİ ƏT, AXAN BİR ÇAY... Budur yemək, içkiləri deyəcək..." (Kıyamet Alametleri, səh. 215)

### 643-SÜRƏTLİ NƏQLİYYAT TEXNOLOGİYASI

(Dəccal) BÜTÜN YER ÜZÜNÜ 40 GÜNDƏ GƏZƏCƏK. (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 216)

### 644-TELEVİZİYA VƏ RADİO NƏŞRLƏRİ

(Dəccalın) ŞƏRQ VƏ QƏRB ƏHLİNİN RAHATLIQLA EŞİDƏ BİLƏCƏYİ ZİLDƏ ÜÇ SAYHASI (NƏRƏSİ) VARDIR. (Kıyamet Alametleri, Medineli Allame Muhammed İbn Resul El-Hüseyin El Berzenci, Pamuk Yayıncılık, səh. 216)

## HZ. MEHDİ (Ə.S) DÖVRÜNDƏ QAN AXIDILMAYACAQ, İSLAM ƏXLAQI ELMİ İŞLƏRLƏ BÜTÜN DÜNYAYA HAKİM OLACAQ

### 645-HZ. MEHDİ (Ə.S) BİR DAMLA BELƏ QAN AXITMAYACAQ

İnsanlar bal arılarının bəyləri ətrafında toplaşdıqları kimi hz. Mehdi (ə.s)-ın ətrafında toplanarlar. DAHA ƏVVƏL ZÜLMLƏ DOLU OLAN DÜNYANI, O ƏDALƏTLƏ DOLDURAR. ƏDALƏTİ O DƏRƏCƏDƏ OLAR Kİ, **YUXUDA OLAN BİR KƏS DƏ OYADILMAZ VƏ BİR DAMLA QAN BELƏ AXIDILMAZ.** DÜNYA SANKİ ƏSRİ-SƏADƏT DÖVRÜNƏ GERİ QAYIDAR. (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 29)

**Hz. Mehdi (ə.s) Peyğəmbər (s.ə.v)-in yolu ilə gedəcək, yatan adamı oyandırmayacaq, QAN DA AXIDILMAYACAQ.** (Muhammed İbn Resul Al-Hüseyni El Berzenci, Kıyamet Alametleri, səh. 163)

**(Hz. Mehdi (ə.s)) Zamanında nə bir kimsə yuxusundan oyandırılacaq, NƏ DƏ BİR KİMSƏNİN BURNU QANAYACAQ.** (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar, səh. 44)

### 646-YATAN YUXUSUNDAN OYANDIRILMAZ

Ona (hz. Mehdi (ə.s)-a) beyət edənlər, (Kəbə ətrafındakı) rükn və mövqe arasında beyət edərlər. **Yatanı oyandırmaz, ƏSLA QAN TÖKMƏZLƏR.** (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 24)

### 647-YER ÜZÜNÜN SÜLHLƏ DOLMASI ÜÇÜN CƏHD GÖSTƏRƏR

**QAB SU İLƏ DOLDUĞU KİMİ YER ÜZÜ SÜLHLƏ DOLACAQ.** Heç kimin arasında bir düşmənçilik qalmayacaq. Və bütün düşmənçiliklər, boğuşmalar, bəhskarlıq, şübhəsiz, itib gedəcək. (Sahih-i Müslim, 1/136)

... Cənabı Haqq İslamı necə bizimlə başlamışsa onunla (hz. Mehdi (ə.s)) ilə sona çatdıracaq. Necə, bizimlə onlar aralarındakı şirk və ədavətdən (hüsumət və düşmənçilikdən) xilas olmuş və ürəklərinə ülfət (dostluq) və məhəbbət (sevgi) dolmuşsa**, hz. Mehdi (ə.s) gəlişi ilə yenə elə olacaq.** (Ahir Zaman Mehdisi'nin Alametleri, Celalettin Suyuti, səh. 20)

### 648-HZ. MEHDİ (Ə.S)-IN SİLAHI İMANDIR, SEVGİDİR

Hz. Mehdi (ə.s) və tələbələri dinsizliyin beynini, yəni fikir sistemini Quranla, elmlə, sənətlə, ağılla, imanla məğlub edəcəklər. İnancda, fikirdə qalibiyyət meydana gələcək və batil düşüncə, dəlalət, Darvinist, materialist, ateist düşüncə yox olub gedəcək, inşaAllah.

Hz. Əmr ibn Avf (r.ə.)-dən rəvayət edilmişdir:

**Rumlara aid Konstantinopol təsbehlə və təkbirlə müsəlmanlar tərəfindən fəth edilmədikcə qiyamət qopmaz.** (Ramuzel-Ehadis, səh. 478)

İmam Müslümün Əbu Hureyrə (r.ə.)-dən rəvayət etdiyi hədisi-şərifdə Peyğəmbər (s.ə.v) bir gün səhabələrinə xitab olaraq:

… Bu mücahidlər o diyara gəlib yerləşdikləri zaman silahla vuruşmaz, ox da atmazlar. **Lə-ilahə illallahu-əkbər deyərək təkbir gətirərlər.** Bu təkbirlə şəhərin iki tərəfindəki qala divarlarından biri yıxılar. Sonra ikinci dəfə təkbir gətirərlər. Dərhal şəhərin o biri tərəfindəki də yıxılar. **Sonra üçüncü dəfə təkbir gətirəcəklər.** Bununla da İslam ordusu üçün qala divarlarının mövqeləri açılacaq, onlar da dərhal buradan şəhərə girərək fəth edəcəklər. (İmam Şarani, Ölüm-KıyametAhiret ve Ahir Zaman Alametleri, səh. 445-446)

**Bu şəhərə girərkən müsəlmanlar döyüşməyəcəklər.** Yalnız təkbir gətirdiklərində şəhərin dəniz tərəfi yıxılacaq, təkrar təkbir gətirdiklərində digər tərəfi yıxılacaq. Üç dəfə təkbir gətirdiklərində də bütün şəhər əllərinə keçəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 30)

Hz. Mehdi (ə.s) və tələbələri Allahı xatırlayaraq İstanbulu və dünyanın bir çox şəhərini mənəvi cəhətdən, fikirlə, mədəni istiqamətdən fəth edəcək, Darvinizmi və materializmi mənəvi cəhətdən öldürəcəklər. Qurandakı bu ayədə də Allah fikirlə öldürməyə diqqət çəkir:

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz ... (Ənbiya surəsi, 18)**

### 649-İŞLƏRİNİ RAHATLIQLA YERİNƏ YETİRƏRLƏR

Hz. Mehdi (ə.s)... **çox rahatlıqla irəliləyəcək**. (Muhammed İbn Resul Al-Hüseyni El Berzenci, Kıyamet Alametleri, səh. 173)

**650-HZ. MEHDİ (Ə.S) DİN ƏXLAQINI HAKİM ETDİYİNDƏ PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN SON PEYĞƏMBƏR OLDUĞUNU QƏBUL ETMƏYƏN KİMSƏ QALMAYACAQ**

İmam Baqir əleyhissalamdan nəql edilən başqa bir hədisdə belə buyrulub: **BU QƏLƏBƏ (QALİBİYYƏT) VƏ ÜSTÜNLÜK ƏL-İ MƏHƏMMƏDDƏN OLAN HZ. MEHDİ (Ə.S.) QİYAM ETDİYİNDƏ REALLAŞACAQ. BELƏ Kİ, YER ÜZÜNDƏ HZ. MƏHƏMMƏD MUSTAFANI (ONUN PEYĞƏMBƏRLİYİNİ) TƏSDİQ ETMƏYƏN BİR KİMSƏ QALMAZ".** (Tefsir-i Burhan, 2-ci cild, səh. 121.)

**651-HZ. MEHDİ (Ə.S)-IN ''ÜZƏRİNDƏ ALLAHIN ADININ YAZILDIĞI, SARI-AĞ BAYRAQLARI'' DÜNYANIN DÖRD BİR TƏRƏFİNİ ƏHATƏ EDƏCƏK**

Belə rəvayət edilmişdir: "Bu mütləq ki, Axırzamanda məğrib məmləkətinin ən uzaq mövqeyindən hz. Mehdi (ə.s) deyilən bir şəxs çıxacaq. Ön tərəfində qırx mil məsafədə yardım irəliləyəcək. **HZ. MEHDİ (Ə.S)-IN BAYRAQLARI AĞ VƏ SARIDIR. ÜZƏRİNDƏ XƏTLƏR OLAR. BAYRAQLARINDA ALLAHIN AZAM İSMİ YAZILMIŞDIR.** *Onun bayrağı altındakı heç bir birlik məğlub edilməz".* (İmam Şarani, Ölüm Kıyamet Ahiret ve Ahir Zaman Alametleri Muhtasaru, (Tezkireti'l Kurtubi), səh. 438)

Hədisdə Axırzamanda hz. Mehdi (ə.s)-ı insanlara tanıdacaq xüsusiyyətlərdən birinin hz. **Mehdi (ə.s)-ın istifadə edəcəyi "sarı ağ bayraqları" olduğu xəbər verilmişdir. Həmçinin, "bu bayraqların içində xətlər olacağı və üzərində də Allahın adının xatırlandığı yazılar olacağı" da ifadə edilmişdir.**

Hədisin izahatından bu xüsusiyyətlərin hz. Mehdi (ə.s)-ın insanlara İslam əxlaqını təbliğ etdiyi kitablara işarə etdiyi aydın olur. Bu kitablar ağ səhifələrdən düzəldiləcək, sarı qızıl rəngli bəzəkləri olacaq və kitabın içində də yazılar, bu yazıları əhatə edən çərçivələri xatırladan kənar xətləri, şəkillər və rəsmlər olacaq. Uca Allahın adı kitabın hər yerində yazılacaq; Allahın Böyüklüyü və Ucalığı bu kitablarda çox təfərrüatlı olaraq izah ediləcək. Həmçinin hədisdə "bayraq" deyə izah edildiyi kimi, bu kitablar sanki bir ordunun bayraqları kimi, çatdığı hər yeri mənəvi cəhətdən fəth etməsinin bir əlaməti olaraq, hz. Mehdi (ə.s)-ın mənəvi cəhətdən, mədəni baxımdan və elmi cəhətdən fəth etdiyi; yəni ateistliyi məğlub etdiyi hər yerdə tapılacaq.

Hədisdə **"onun bayrağı altındakı heç bir birlik məğlub edilməz"** sözləri ilə də, hz**.** Mehdi (ə.s)-ın bu əsərlər çatdığı hər yerdə məğlub edilməz təsir oyadaraq, İslam əxlaqının yer üzündə hakim olmasına vəsilə olacağına işarə edilmişdir.

**652-HZ. MEHDİ (Ə.S)-IN İMANİ ƏSƏRLƏRİ AXIRZAMANDA İNSANLARIN HİDAYƏTİNƏ VƏSİLƏ OLACAQ**

Əli ibn Əbu Talib (ə.s) belə buyurur: "Hz. Peyğəmbər (s.ə.v) uzun vəsiyyətində mənə xitabən belə buyurdu:

"Ya Əli! İmani cəhətdən xalqın ən heyrətləndiriciləri və elm baxımından da ən böyük insanlar, Axırzamanda gələcək kəslərdir. Onlar Peyğəmbəri görməmiş və imam da (hz. Mehdi (ə.s) da) onlardan gizlidir. **BUNUNLA BİRLİKDƏ ONLAR AĞ SƏHİFƏLƏRƏ NAXIŞ OLUNMUŞ QARA XƏTLƏR VASİTƏSİ İLƏ (YAZILI SƏNƏDLƏRLƏ) İMAN EDƏRLƏR".** (Men La Yehzuruhu'l Fakih, 1-ci cild, səh. 269)

Axırzamanda ağ səhifələrə qara hərflərlə kitabların basılacağı və hz. Mehdi (ə.s)-ın tələbələrinin də, hz. Mehdi (ə.s)-ın liderliyində hazırlanacaq bu əsərləri oxuyacaqları xəbər verilmişdir. Məlumdur ki, hz. Mehdi (ə.s)-ın tələbələri də, onun hz. Mehdi (ə.s) olduğundan əmin olmayacaqlar, ancaq görülən əlamətlərə görə ona qarşı bir hüsni-zənn sahibi olacaqlar.

### 653-HZ. MEHDİ (Ə.S) BÜTÜN DÜNYANIN HİDAYƏTİNƏ VƏSİLƏ OLACAQ

**Hz. Mehdi (ə.s) HİDAYƏT MƏŞƏLİ İLƏ ALƏMDƏ GƏZƏR VƏ SALEHLƏR KİMİ YAŞAYAR.** (El-Mehdiyy-il Mev'ud, 1-ci cild, səh. 281-282 ve 266 ve 300)

### 654-ALLAH HZ. MEHDİ (Ə.S)-I VƏSİLƏ EDƏRƏK, ƏSRƏ VƏ BÜTÜN DÜNYAYA TƏSİR EDƏCƏK MÜKƏMMƏL KİTABLAR HAZIRLATDIRACAQ

Əbu Basar İmam Məhəmməd Baqir və ya İmam Cəfəri Sadiq əleyhissalamdan belə nəql edir: **"ONA (HZ. MEHDİ (Ə.S)-A) İMAMƏTİ VERƏN ONA ELM VƏ KİTABLAR VERƏCƏK VƏ ONU ÖZ BAŞINA BURAXMAYACAQ".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh. 387)

Hz. Mehdi (ə.s)-ın davamlı olaraq Allahın idarəsində olacağı; Allahın hz. Mehdi (ə.s)-ı vəsilə edərək çox təsirli, əsrə və bütün dünyaya təsir edəcək mükəmməl kitablar hazırladacağı hədisdən aydın olur.

### 655-HZ. MEHDİ (Ə.S) VƏSİLƏSİ İLƏ İSLAM ƏXLAQI BÜTÜN DÜNYAYA HAKİM OLACAQ

**Yer üzünə dörd nəfər malik olmuşdur.** İkisi mömin, ikisi kafirdir. Möminlər hz. Zülqərneyn (ə.s) və hz. Süleyman (ə.s), kafirlər isə Nəmrud və Buhtunnasırdır. **Beşinci olaraq Əhli-Beytimdən biri (hz. Mehdi (ə.s)) gələcək və o da dünyaya malik olacaq.** <u>(Kitab'ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, səh. 10)</u>

**Hz. Mehdi (ə.s) eynilə hz. Zülqərneyn (ə.s) və hz. Süleyman (ə.s) kimi dünyaya hökm edəcək.** (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 30)

Ayyasi Əli ibn Həsəndən belə rəvayət edildi: Onun yanında bu ayəti-kərimə oxundu: Onlar Allaha and olsun ki, bizim Əhli-beyt sevənlərindəndir. ALLAH BİZDƏN BİR ŞƏXSİN ƏLİ İLƏ ONLARA (BUNU) ETDİRƏR. O ŞƏXS İSƏ BU ÜMMƏTİN MEHDİSİDİR. (Mecmau’l beyan fi tefsiri’l-Kuran Ebu Ali Eminuddin Fazl, Hasan ibn Fazl Tabersi 1986, 4-cü cild, səh. 832)

# İSLAM ƏXLAQININ DÜNYA HAKİMİYYƏTİNİ MÜJDƏLƏYƏN AYƏLƏR

"Allah içinizdən iman edənlərə və saleh əməldə olanlara vəd etmişdir: Heç şübhəsiz, onlardan əvvəlkiləri necə “güc və iqtidar sahibi” etdisə, onları da yer üzündə “güc və iqtidar sahibi” edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərinə məskun edib sağlamlaşdıracaq və onları qorxularından sonra təhlükəsizliyə çevirəcək..." (Nur surəsi, 55)

Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra nazil etdiyimiz kitablarda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar. (Ənbiya surəsi, 105)

Allahın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)

Sevdiyiniz başqa şey də vardır: Allah tərəfindən kömək və yaxın qələbə. Möminləri bununla müjdələ. (Saff surəsi, 13)

Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi:

“Həqiqətən, onlara kömək göstəriləcəkdir. Bizim əsgərlərimizin mütləq qələbəsi labüddür. (Saffat surəsi, 171-173)

"Allah əzəldən belə yazmışdır: “Mən və elçilərim hökmən qalib gələcəyik!” Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)

Allahın Öz elçilərinə verdiyi vədə xilaf çıxacağını sanma. Həqiqətən, Allah Qüdrətlidir, intiqam almağa qadirdir. (İbrahim surəsi, 47)

Müşriklərin xoşuna gəlməsə də, İslam dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur. (Saff surəsi, 9)

İslamı bütün dinlərdən üstün etsin deyə Öz Elçisini hidayətlə və həqiqi dinlə göndərən Odur. Şahid kimi Allah kifayətdir. (Fəth surəsi, 28)

Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur. (Tövbə surəsi, 33)

"Və onlardan sonra sizi o yerdə sakin edəcəyik. Bu, hüzurumda durmaqdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir”. Elçilər qələbə istədilər. Hər bir inadkar dikbaş da ziyana uğradı. (İbrahim surəsi, 14-15)

Həqiqətən, Biz sənə aydın bir qələbə verdik ki, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni düz yola yönəltsin və Allah sənə böyük bir qələbə ilə kömək etsin. (Fəth surəsi,1-3)

Allah Öz Elçisinin həqiqət kimi gördüyü yuxusunu həqiqətə çevirdi. Allah qoysa, siz əmin-amanlıqla, başlarınızı qırxdırmış, bəziləriniz də saçlarını qısaltmış halda və qorxmadan Məscidul-Hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan

qabaq (Məkkəyə girməzdən əvvəl sizə) yaxın bir qələbə də bəxş edəcəkdir. (Fəth surəsi, 27)

"... Bu yurdun sonu kimindir, inkar edənlər çox yaxında biləcəklər." (Rəd surəsi, 42)

Təkcə iman sahibi olub xeyirxah əməllər edən, Allahı tez-tez yada salan və haqsızlığa məruz qaldıqdan sonra dini müdafiə edənlərdən başqa. Zalımlar isə qayıdacaqları yeri mütləq biləcəklər. (Şuəra surəsi, 227)

Sonra elçilərimizi və möminləri xilas edərik. Möminləri xilas etmək Bizə vacibdir. (Yunis surəsi, 103)

"... Onların ardınca sizi yer üzündə xəlifələr etdik." (Yunis surəsi, 13-14)

Musa ilə olan zəif qövmü isə yer üzünün xeyir-bərəkət verdiyimiz şərq və qərb bölgələrinə varislər təyin etdik..." (Əraf surəsi, 137)

Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. (Tövbə surəsi, 32)

Onlar Allahın nurunu öz ağızlarından çıxanlarla söndürmək istəyirlər. Halbuki, kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaqdır. (Saff surəsi, 8)

Allah sizi onların yerlərinə, yurdlarına və mallarına, üstəlik də ayağınız dəyməyən bir yerə varis etdi. Allah hər şeyə qadirdir. (Əhzab surəsi, 27)

De: “Hamı gözləyir, siz də gözləyin. Yaxında siz kimin doğru yol sahibi olduğunu və kimin haqq yola yönəldiyini biləcəksiniz!” (Taha surəsi, 135)

Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. (Zumər surəsi, 61)

Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)

Günahkarlar istəməsələr də Allah Öz kəlmələri ilə haqqı bərqərar edəcək. (Yunis surəsi, 82)

Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)

Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız. (Ali İmran surəsi, 139)

# BÖYÜK İSLAM ALİMLƏRİNİN MEHDİYYƏTƏ İŞARƏ ETDİYİNİ BİLDİRDİKLƏRİ AYƏLƏR

**" Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 148)**

Kuleyni Əbu Cəfərin bu ayənin işarə etdiyi kəslərin Qaimin (hz. Mehdi (ə.s)-ın) dostları olduğunu söylədiyini bildirir. (Ravdatu'l-kafi, səh.260; Iyaşi, et-Tefsir, I.66)

**Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil? (Fussilət surəsi, 53)**

Yenə Kuleyni bu ayədə Qaimin (hz. Mehdi (ə.s)-ın) Allah Qatından çıxışının nəzərdə tutulduğunu rəvayət edir. (Ravdatu'l-kafi, səh.312)

Əbu Basir deyir ki: İmam Məhəmməd Baqirdən Allahın bu ayəsinin təfsiri soruşuldu, "Çox yaxında onlara aləmdəki və canlarındakı dəlilləri göstərəcəyimiz zaman, sonda onun haqq olduğunu anlayacaqlar". Belə buyurdu: "Onlara nəfslərindəki çirkinlik (heyvanlaşma) və aləmin onlara artıq daraldığı göstəriləcək. Beləcə onlar Allahın Qüdrətini həm öz nəfslərində, həm də aləmlərdə görəcəklər. "Sonda onun haqq olduğunu anlayacaqlar". Məhz o zaman Qaimin (hz. Mehdi (ə.s)-ın) zühurdur. O (hz. Mehdi (ə.s)) Allahdan gələn haqdır və bu xalq onu (hz. Mehdi (ə.s)-ı) mütləq görəcək".

Əbu Basirdən, İmam Baqir həzrətlərindən bu ayə haqqında soruşulduğunda belə buyurdular: "Daxillərində və xariclərində Allahın heyrətləndirici və qəribə möcüzələrini görərək hz. Mehdi (ə.s)-ın zühurunun haqq olduğuna inanacaqlar. Buna heç kimin şübhəsi qalmayacaq".

**"Siz onun verdiyi xəbəri bir vaxtdan sonra mütləq biləcəksiniz!" (Sad surəsi, 88)**

Kuleyni bunun Qaimin (hz. Mehdi (ə.s)-ın) çıxışı əsnasında baş tutacağını rəvayət etmişdir. (Ravdatu'l-kafi, səh. 239, 240)

**Onlar əzabımızı hiss edən kimi dərhal oradan qaçmağa başladılar. "Qaçmayın! İçində olduğunuz xoş güzərana və yurdlarınıza qayıdın. Bəlkə, sizinlə məsləhətləşdilər". (Ənbiya surəsi, 12-13)**

Kuleyni, bunun Qaimin (Hz. Mehdi (ə.s)-ın) çıxışı əsnasında baş verəcəyini rəvayət etmişdir. (Ravdatu'-kafi, səh. 44)

**Onlar özlərinə vəd olunmuş əzabı gördükləri zaman kimin köməkçisinin daha zəif və sayca daha az olduğunu biləcəklər. (Cin surəsi, 24)**

Bu, İbrahim əl-Quminin təfsirində ifadə etdiyinə görə Qaimin (hz. Mehdi (ə.s)-ın) ortaya çıxışı ilə reallaşacaq. *(Iyaşi, age., II. 390)*

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Əli ibn Həsəndən Ayyaşi rəvayət etdi: **Onun yanında bu ayəti-kərimə oxundu:** Onlar Allaha and olsun ki, bizim Əhli-beytin sevənlərindəndirlər. **ALLAH BİZDƏN BİR ŞƏXSİN (HZ. MEHDİ (ə.s)-ın) ƏLİ İLƏ ONLARA (BUNU) ETDİRƏR. O ŞƏXS İSƏ BU ÜMMƏTİN MEHDİSİDİR.** (Mecmau'l beyan fi tefsiri'l-Kuran Ebu Ali Eminuddin Fazl, Hasan ibn Fazl Tabersi 1986, cild:4, səh. 832)

Ayaşi təfsirində:

Zeynel-Abidin həzrətləri: ... (Nur surəsi, 55) ayəsini oxudu və belə buyurdu: **"Vallah! onlar biz Əhli-beyti sevənlərdir. Allah onlar üçün bunu, şübhəsiz, edəcək, bizdən birinin əli ilə... Ki, o bu ümmətin Mehdisidir".**

**Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra nazil etdiyimiz kitablarda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar. (Ənbiya surəsi, 105)**

İmam Məhəmməd Baqir bu ayə ilə əlaqədar olaraq belə buyurmuşdur: "Bunlar, Axırzamanda zühur edəcək hz. Mehdi (ə.s)-ın səhabələridir". (Mecma-ul Beyan Tefsiri)

Buradakı (ayədə bildirilən) "saleh qullar" hz. Mehdi (ə.s) və yoldaşlarıdır. *(Hüseyn əs-Şirazi, səh.* **113)**

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Maidə surəsi, 54)**

... İmam Cəfər Sadiq bu ayə ilə əlaqədar olaraq belə buyurmuşdur: "Bu ayədə işarə edilən vəzifənin sahibi (hz. Mehdi (ə.s)) qoruma altındadır. Əgər insanların hamısı getsələr də, Allah onu (hz. Mehdi (ə.s)-ı) və səhabələrini gətirəcək. Onlar Uca Allahın haqqlarında belə buyurduğu kəslərdir: Əgər kafirlər ayələri inkar etsələr, Biz onları inkar etməyən bir qövmə həvalə edərik. (Ənam surəsi, 89)

Onlar (hz. Mehdi (ə.s) və ona tabe olan müsəlmanlar) bu ayənin nəzərdə tutduğu kəslərdir: **"Ey inananlar! Sizdən kim dinindən dönsə, (bilsin ki) Allah, yaxında elə bir camaat gətirəcək ki..." (Maidə surəsi, 54) (Tefsir-un Nu'mani)**

**Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz? (Nəml surəsi, 62)**

Məhəmməd ibn Müslim belə dedi: "Ehtiyacı (ehtiyac, möhtaclıq içində) olan biri Onu çağırdığında ondan razılıq edər" ayəsi haqqında İmam Məhəmməd Baqir belə buyurdu: **"Bu ayə qaim (hz. Mehdi (ə.s)) haqqında nazil olmuşdur. Ağ bir quş şəklində Kəbənin novundan gəlib xalqın içində hz. Mehdi (ə.s)-a ilk beyət edəcək olan Cəbrayıl əleyhissalamdır".** (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani, səh.37)

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

... Əbu Basirdən; İmam Cəfər Sadiq belə buyurdu:

Qaimin (hz. Mehdi (ə.s)-ın) qiyamından əvvəl *bir il xalq ac qalacaq və onları öldürülmə qorxusu bürüyəcək; malları, canları və məhsulları azalacaq. Bu hadisə Allahın Kitabında açıq şəkildə yazır. Sonra bu ayəni yüksək səslə oxudu: **"Sizləri qorxu, aclıq, mal, can və məhsulların azalması ilə mütləq sınayacağıq.** Və səbir edənləri müjdələ". (Şeyh Muhammed ibn İbrahim-i Numani, Gaybet-i Numani səh. 297)

* Hz. Mehdi (ə.s)-ın qiyamından əvvəl dünya səviyyəsində 7 il davam edən çox böyük bir iqtisadi böhran yaşanacaq. İmam Cəfər Sadiq, 7 il davam edəcək olan bu iqtisadi böhranın xüsusilə bir il boyunca daha da şiddətini artıracağına və təsirini göstərəcəyinə diqqət çəkmişdir.

Eyni şəkildə Məhəmməd ibn Müslimə istinadən digər bir rəvayətə görə isə;

İmam Cəfər Sadiq belə buyurdu: "Qaimin (hz. Mehdi (ə.s)-ın) qiyamından əvvəl işarələr vardır. Uca Allah tərəfindən mömin qullarına bəlalar gələcəkdir"

"Bu işarələr nələrdir?" deyə ərz etdim.

Buyurdu ki: "O, Allah Azze və Cellenin bu buyruğudur: Sizləri qorxu, aclıq, mal, can və məhsulların azalması ilə mütləq sınayacağıq. Səbir edənləri müjdələ".

Buyurur ki: "Siz möminləri mütləq sınayacağıq. Qorxu ilə, yəni səltənətlərinin sonlarına doğru hər hansı bir oğullarının hökuməti ilə qorxudacağıq. Aclıqla, yəni məhsulların bahalılığı ilə, malların azalması, yəni ticarətlərin kasad olması və faydasının azalması. Canların azalması yəni, sürətli və ani ölümlər. Məhsulların azalması, yəni cütçülüyün azalması və meyvələrin bərəkətinin azalması. Səbir edənləri müjdələ, yəni məhz o zaman Qaimin (hz. Mehdi (ə.s)-ın) zühuru ilə onları müjdələ". Sonra mənə buyurdu ki: "Ey Məhəmməd! Bu onun şərhidir. (Əsl məna və şərhi budur). Allah Azzə və Cəllə buyurur ki: "Onun şərhini yalnız Allah və elmdə dərin olanlar bilərlər".

**Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqdır. (Ali İmran surəsi, 83)**

Ayyaşi təfsirində İmam Musa Kazımın nəql etdiyi kimi bu ayənin hz. Mehdi (ə.s)-a işarə etdiyi rəvayət edilir.

**Bilin ki, Allah torpağı onun ölümündən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə anlayasınız. (Hədid surəsi, 17)**

Salam ibn Müstenir də İmam Məhəmməd Baqirdən bu hədisi rəvayət etmişdir:

"Allah Təala, qiyam edəcək hz. Mehdi (ə.s)-ın əli ilə yeri dirildəcək. O (hz. Mehdi (ə.s)), ədalətlə xalqı idarə edəcək. Beləcə yer üzü zülmlə öldükdən sonra, (hz. Mehdi (ə.s)) ədalətlə təkrar dirildəcək". (Şeyh Tusi, Gaybet, səh. 120; Duhayyil, el-Hz. Mehdi, səh. 57)

**Əgər onlara gələcək əzabı müəyyən vaxtadək gecikdirsək: "Onu saxlayan nədir?" – deyəcəklər. Xəbəriniz olsun ki, əzab onlara gəldiyi gün onu heç nə onlardan dəf edə bilməyəcək və istehza etdikləri o əzab onları bürüyəcəkdir. (Hud surəsi, 8)**

İshaq ibn Əbdüləzizdən:

İmam Cəfər Sadiq "**Əgər onlara gələcək əzabı müəyyən vaxtadək gecikdirsək**" ayəsi haqqında belə buyurdu:

"Əzab, Qaim əleyhissalamın (hz. Mehdi (ə.s)-ın) qiyamıdır. Sayılacaq sayda bir ümmət isə Bədrdə döyüşənlərin sayı qədər olan səhabələridir". (Hz. *Mehdi (ə.s)-ın zühuru möminlər və insanlar üçün bir nemət, insanlığa əzab verən küfr sistemlərin sona çatmasına vəsilə olacağından onlar üçün də bir növ mənəvi əzab olacaq.)*

**...Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 148)**

Əbu Basirdən:

İmam Cəfər Sadiq "**Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır** " ayəsi haqqında belə buyurdu: "Qaim (hz. Mehdi (ə.s)) və səhabələri haqqında nazil olmuşdur. Allah onları (hz. Mehdi (ə.s) və səhabələrini) vədsiz olaraq bir yerə toplayacaq".

**Günahkarlar simalarından tanınacaq, kəkillərindən və ayaqlarından yaxalanacaqlar. (Rəhman surəsi, 41)**

Əbu Basirdən:

İmam Cəfər Sadiq "Günahkarlar simalarından tanınacaq" ayəsi haqqında belə buyurdu: "Allah onları tanıyar, lakin bu ayə Qaim (hz. Mehdi (ə.s)) haqqında nazil

olmuşdur. (hz. Mehdi (ə.s)) onları çöhrələrindən tanıyacaq və səhabələri ilə birlikdə onları fikirlə darmadağın edəcək. "

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Maidə surəsi, 54)**

Süleyman ibn Haruni İcli belə deyir:

İmam Cəfər Sadiqin belə buyurduğunu duydum: "Bu əmrin sahibinin (hz. Mehdi (ə.s)-ın) səhabələri qorunandırlar, əgər xalqın hamısı ölsə də Allah onun (hz. Mehdi (ə.s)-ın) səhabələrini gətirər. Allah onlar (hz. Mehdi (ə.s) və səhabələri) haqqında belə buyurmuşdur: "Onlar ona qarşı kafir olsalar da, ona elə bir qövm vermişik ki, ona qarşı kafir olmazlar". Allah onlar (hz. Mehdi (ə.s) və səhabələri) haqqında həmçinin belə buyurmuşdur: "Allah elə bir qövm gətirəcək ki, Allah onları sevər, onlar da Allahı sevərlər. Möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan."

**Talut qoşunla birlikdə döyüşə yola düşdükdə əsgərlərinə dedi: “Allah sizi bir çayla imtahan edəcək..." (Bəqərə surəsi, 249)**

Əbu Basir belə deyir:

İmam Cəfər Sadiq belə buyurdu: "Talutun səhabələri bir çayla imtahan olunmuş və Allah onlar haqqında "Sizləri bir çay ilə sınayacağıq" buyurmuşdu. Qaim (hz. Mehdi) əleyhissalamın səhabələri də eynilə onun kimi imtahan olunacaqlar".

**Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız! (Ali İmran surəsi , 200)**

İmam Baqir bu ayəyə belə məna vermişdir:

***"Ey məhəmmədilər! Fərzlərin yerinə yetirilməsində səbr edin, düşmənlərinizin əziyyətlərində bir-birinizə səbir diləyin, bir-birinizə kömək edin, imamınız Mehdi Rəsula möhkəm sarılın".*** **(Süleyman İbrahim, Meveddet Pınarları, Hz.**

**Mehdi (as) hakkındaki ayet ve hadisler, səh. 219)**

**Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur. (Tövbə surəsi, 33)**

İmam Cəfər Sadiq bu ayə haqqında belə demişdir:

"Vallah! Qaim (hz. Mehdi (ə.s)) zühur etmədən bu ayənin mənası təcəlli etməz".

Abayə ibn Rəbidən, Əmir əl-Möminin hz. Əli yuxarıda zikr edilən ayə haqqında, "Nəfsim əlində olan Allaha and içirəm ki! Heç bir kənd, qəsəbə və şəhər qalmayacaq ki, səhər-axşam içində, “Əşhədu ən la-ilahə illəllah və əşhədu ənnə Muhamməden Rəsulullah deyilməsin'" buyurdu. İmam Zeynal Abidin və İmam Məhəmməd Baqir "Cənabı Haqq,

şübhəsiz, Qaim (hz. Mehdi (ə.s)) ilə İslam dinini bütün dinlərə qalib etdirəcək" deyə buyurdular.

**Onlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" De: "Qeyb ancaq Allaha aiddir. Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm". (Yunis surəsi, 20)**

Cəfər Sadiq "bu ayədəki qeyb, hz. Mehdi (ə.s)-dır" deyə buyurdu.

**O dedi: "Kaş ki, sizə çatan bir qüvvəm olaydı, yaxud möhkəm bir dayağa söykənəydim!" (Hud surəsi, 80)**

İmam Cəfər Sadiq "Bu ayəti-kərimədəki hz. Lut (ə.s)-ın dilədiyi qüvvə, Qaimin (hz. Mehdi (ə.s)-ın) qüvvəsi, sığınmaq istədiyi qala da hz. Mehdi (ə.s)-ın səhabələri idi. "Ruknu şedid" onlardır. Onlardan biri qırx adam qüvvəsindədir və hər birinin ürəyi dəmir kimidir...."—deyə buyurmuşdur.

**Elçilər hər dəfə ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini güman etdikdə köməyimiz onlara gəlir və istədiyimiz kəs də nicat tapırdı. Günahkar tayfadan əzabımız əsla dəf olunmaz. (Yusif surəsi / 110)**

Mufaddaldan, Cəfər Sadiq Həzrətlərindən, atasından, atalarından, Əmir əl-Möminin hz. Əlidən:

Allahın nüsrəti (qələbəsi), ancaq insanların ölümü yaşamaqdan üstün tutduqları zaman gəlir, Rəbbimin Kitabı-Cəlilində bu ayədə bəyan etdiyi kimi:

Ta ki, peyğəmbərlər Allahın qələbəsinin dərhal təcəlli etməməsindən ümidsiz olduqları, yalana çıxarıldıqlarını zənn etdikləri bir zamanda, qəflətən köməyimiz (hz. Mehdi (ə.s)) onlara yetişdi. Biz istədiyimizi qurtararıq. Cənabı Haqqın qələbəsi Qaim (hz. Mehdi (ə.s) ) ilə gələcək.

**Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)**

Əbul Caruddan:

... O zülm ilə yurdlarından çıxarılan kəslərə, əgər ərşdə yer versək, onlar (hz. Mehdi (ə.s) və səhabələri) iqtidar sahibi olunca lovğalanmazlar, namazlarına davam edərlər, zəkatlarını verərlər, yaxşılığı əmr edib, pislikdən çəkindirərlər. Bunların bütün işlərinin aqibəti Allaha aiddir.

İmam Baqir həzrətləri: "Bu ayə hz. Mehdi (ə.s) və səhabələri haqqında nazil olmuşdur. Allah onları şərqdən qərbə qədər, bütün dünyaya sahib edəcək, İslamı onlarla ucaldacaq, zülmdən və bidətdən əsər qalmayacaq"—deyə buyurdu.

**Göyün və yerin Rəbbinə and olsun ki, bu vəd sizin danışmağa qüdrətiniz olduğu kimi həqiqətdir. (Zəriyət surəsi, 23)**

Bu ayədə də Cənabı Haqq, "Səmavatın və ərşin Rəbbinə and içirəm ki, Qaimin (hz. Mehdi (ə.s)-ın) zühurunun vədi, danışdığınız söz kimi şübhəsiz və haqdır" buyurur.

**...Və o gün möminlər sevinəcəklər. Allahın köməyi ilə. O, dilədiyinə kömək edər... (Rum surəsi, 4-5)**

İmam Cəfər Sadiq bu ayə haqqında "Qaim (hz. Mehdi (ə.s)) zühur edincə, möminlər Allahın qələbəsi ilə rahatlanacaqlar" deyə buyurdu.

Əbu Cəfərdən:

"... O (hz. Mehdi (ə.s)) çıxdıqda kürəyini Kəbəyə söykəyər. Ona (hz. Mehdi (ə.s)) tabelərindən 313 adam tabe olar. Hz. Mehdi (ə.s) əvvəlcə bu ayəni oxuyar:

**Əgər möminsinizsə, bilin ki, Allahın saxladığı nemətlər sizin üçün daha xeyirlidir…" (Hud surəsi, 86)**

Bu ayəni oxuyub belə dedi: "Mən sizin üçün Allahın seçdiyi və xəlifəsiyəm (müsəlmanların mənəvi lideriyəm). Mən onun dəliliyəm". Hz. Mehdi (ə.s)-a salam verənlər belə salam verərlər: "Salam sənə ey Allahın yer üzündə xəlifəsi (bakiyyəsi!)" Sonra hər kəs ona (hz. Mehdi (ə.s)-a) beyət edər. (Hz. Mehdi (ə.s)-ın) adamlarının sayı on minə çatar. Allahdan başqasına ibadət edən, yəhudi və xristian olan hər kəs ona (hz. Mehdi (ə.s)-a) iman edər. Beləcə yer üzündə tək bir millət hasil olar; o İslam millətidir. Sonra Allahdan başqasına tapınanların üzərinə göydən od yağar və onları yandırar. *Doğrusunu Allah bilir".* (Nurul Ebsar, Ehl-i Beyt, Oniki İmam,

Kutuplar ve Mezhep İmamlarının Menkıbeleri, Şeblenci (1250), Tercüme:

Saim Güngör, (pamuk yayıncılık nisan 2004 cild: 628 77 93) səh. 594)

**Yasin surəsinin, 30-cu ayəsi:**

**Vay bu qulların halına! Onlara elə bir elçi gəlməyib ki, ona istehza etməsinlər. (Yasin surəsi, 30)**

**Amma hüccət (hz. Mehdi (ə.s)) xalqı tanıyar, xalq isə onu (hz. Mehdi (ə.s)-ı) tanıya bilməz. Eynilə Yusif kimi. Yusif xalqı tanıdığı halda onlar Yusifi inkar edərdilər. Sonra hz. Əli bu ayəni oxudu: "qullara təəssüflər olsun, Rəsul onlara gəldikcə onunla lağ edirdilər". (şeyh muhammed ibn İbrahim-i numani, gaybet-i numani səh. 162)**